**ZÜLFÜMAR**

# DUYĞULARIN DİLİ

*(etüdlər və şeirlər)*

**"Şərq-Qərb"**
**Bakı–2011**

Redaktor: **Əli Rza Xələfli**
*şair-publisist*

**ZÜLFÜMAR (Zülfümar Vəli qızı İsmayılova),**
**"Duyğuların dili" (etüdlər və şeirlər).**
Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 272 səh.

**ISBN 978-9952-34-625-1**

© Zülfümar Vəli qızı İsmayılova, 2011
© "Şərq-Qərb" Nəşriyyat evi, 2011



**ZÜLFÜMAR**
(İsmayılova Zülfümar Vəli qızı)

***1987-ci ildə ziyalı ailəsində doğulub. 1993-cü ildə 158 saylı orta məktəbə gedib. 2004-cü ildə məktəbi bitirib. Elə həmin il də 1 nömrəli tibb məktəbinin "tibb bacısı" şöbəsinə daxil olub və 2006-cı ildə həmin məktəbi qurtarıb.***

* * *

***Hər insan doğulandan müəyyən arzuları həyatına hədəf seçir. Mən ziyalı ailəsində dünyaya göz açmışam. Gözəl valideynlərdən tərbiyə alıb, böyümüşəm. Amma mən arzularıma gedən yolda onları tez itirdim. Bu ayrılıq dünyamı qaraltdı. Məni həyatdan küsdürdü.***

***Böyük qaranlıqda yaranan balaca bir işıq qəlbimə yaşamaq həvəsi gətirdi. O, Allah sevgisi, Tanrı işığı idi. Bu sevgi mənə həyatı sevməyi də öyrətdi.***

***Sevə-sevə həyatın çox sınaqlarından keçdim. Qəlbimdəkiləri qələm vasitəsilə beləcə kağız üzərinə köçürürəm.***

***Yazıram...***

***Taleyimdən də çox razıyam. Rəbbimə yaşadığım hər gün üçün şükür edirəm. Allahın həyatı sevən, yaşamağı sevən bəndəsiyəm.***

## HƏYAT VƏ SEVGİ NƏĞMƏLƏRİ

Əziz balam, Zülfümar. Mən deyə bilmərəm ki, həyatın boyu səni başa düşəcək, hisslərini yüksək qiymətləndirəcək insanlar çox olacaq, ya az olacaq. Bu, təkcə sənin problemin deyil. Bu, ümumiyyətlə, həyatın problemidir. Onsuz da insanlar daha çox elə başa düşülmədiklərinin əziyyətini çəkirlər.

Əlbəttə, insan həssas varlıqdır. Ruhuna toxunan, qəlbinə dəyən nə varsa, hamısından inciməyə, küsməyə meyillidir. Amma son nəticədə insanı həyata bağlayan tellər o qədər güclü olur ki, hətta incidiyindən də, küsdüyündən də peşmanlıq hissi keçirir. Barışıq üçün məqam axtarır. Tanrı sənə elə bir ürək, elə bir geniş mənəvi dünya bəxş edib ki, sən nəinki insanlardan, ayrı-ayrı adamlardan, hətta səni başa düşməyən, səni anlamayan doğmalarından belə, taleyindən, bəxtindən də küsmürsən. Əgər hissinə, duyğularına toxunacağımdan ehtiyat etməsəydim, deyərdim ki, elə bəxtindən və taleyindən küsməyə sənin haqqın var.

İnsanın daxilində güclü, mənəvi ehtiyat, insanın hisslərini sözə çevirən, əmələ çevirən, bir sözlə, həyat və yaşam elementlərinə çevirən bu gün elə birinci növbədə insanın özünü qoruyur. Buna dünya hərb tarixini yazan müəlliflər mərdlik və qəhrəmanlıq da deyirlər. Təbii imkanların ən ağır məhdudiyyəti çərçivəsində yaza bilmək və əlbəttə, birinci növbədə düşünə bilmək, özü də sağlam düşünə bilmək mərdlik deyil, qəhrəmanlıq deyil, bəs nədir?

Bəzən acıyıram, hər cür imkanlara malik, hətta nəinki təbii imkanlara, maddi imkanlara malik adamların yazıqlığına və bədbəxtliyinə, onların danışığında, hərəkətlərində paxıllıq, hərislik görəndə düşünürsən: axı bu məxluq nə üçün xırda və cılızdır.

Əziz balam, Zülfümar. Sənin kimi gənclərin həyatı dünyanın çoxundan gözü doymayan, qeyri-sağlam, hətta insanlara dərd və bəla gətirən düşüncə sahibləri səni tanısaydılar, səni başa düşsəydilər, bəlkə, necə böyük bədbəxtlik içərisində olduğunu dərk edərdilər. Zülfümar, qızım, sən tək deyilsən, dünyada sənin kimi nadir gücə malik, iradəyə malik və həm də böyük istedada malik adamlar olub. İki gözdən məhrum olub, böyük ədəbiyyat

yaradan yazıçılar, şairlər, əllərindən məhrum olub ayaqları ilə rəsm çəkən, sənət yaradan sənətkarlar azmıdır? Dişlə yazılan povest oxumuşam. Bu, insanın iradəsi, insanın daxili böyüklüyü haqqında cəmiyyətə oxunan manifestdir.

Zülfümar, məni sevindirən odur ki, sənin "Duyğuların dili" adı ilə cəmiyyətə təqdim olunan kitabında toplanmış yazıların da beləcə həyata oxunan nəğmədir. Cəmiyyətə, insanlara parlaq və aydın düşüncə ilə verilən vədlərdir, manifestdir. Bəs bu vədlərin arxasında nə dayanır? Bu vədlərin arxasında ümidsizlik girdabında çapalayanlara, qəlbindəki inamı itirənlərə, bəlkə də, əsən küləklərin, coşan dalğaların özü kimi, tüğyan eləyən ziddiyyətli düşüncələrin arasında qaranlığa düşmüş insanlara verilən işıq payıdır.

"Duyğuların dili..." necə dəqiq, necə mahiyyəti və məzmunu ifadə edən bir addır. Çox istəyirəm ki, biləsən. Redaktor kimi, çoxlu müəlliflərin kitabını nəşrə hazırlamışam. Və iş prosesində o qədər düzəlişlər aparmışam ki, az qala müəllifin yazdığından heç nə qalmayıb. Amma demək olar ki, sənin kitabında heç nəyə qələm toxundurmadım. Yalnız kitabın müəllifinin adını ayrıca təqdim etməyi vacib hesab elədim. "ZÜLFÜMAR". Bu, həm sənin adındır, həm də təxəllüsündür. Ədəbiyyat aləmi, söz-sənət adamları bu addan yan keçə bilməzlər. Bu adın doğurduğu hiss və həyəcan istər-istəməz sənin mənəvi dünyana gedən yola da istiqamət verəcək.

Sənin yazılarını bacın Fidan gətirmişdi. Əlbəttə, yazıları gətirmək, bir redaksiyaya təqdim etmək, qavranılacaq, başa düşüləcək səviyyədə aparmaq imkanı məhdud olsa da, sənin bacın da şagird dəftərinin səhifələrinə yazılmış duyğulara necə həssas yanaşırdı. Bu, onu göstərir ki, həyatda səni başa düşən adamlar var. Boynuma alıram, şagird qələmi ilə yazılmış yazılar ilk baxışdan mənə bəsit görünmüşdü. Elə zənn edirdim ki, gəncliyin gətirdiyi duyğular səmti bilinməyən küləklər kimi tez ötüb keçə bilər. Həssaslıq dərəcəsi də elə bu ötüb keçmə müddəti ilə bağlı olar. Amma etüdlərini oxuduqca, necə ardıcıl, dəqiq, aydın bir təfəkkürlə duyğularını qələmə aldığını gördüm.

Bəlkə də, bir vaxt gələcək, insanlar səmimi duyğularını yaza bilməyəcəklər. Həyatın, sivilizasiyanın sürətlə dəyişməsi, kompü-

ter inqilabları insanları bir qədər robotlaşdıracaq. İnsanlar daha az sözdə daha dəqiq sual qoyacaq və cavab istəyəcək. Amma elə bilirəm bu cür poetik duyğular, zəngin insan hissləri heç vaxt köhnələ bilməz, yaddan çıxa bilməz. Nə vaxtsa, insan taleyi belə bir acı mənzərə ilə rastlaşacaqsa, onda cəmiyyət özünü hifz edə bilməyəcək.

Bir sözlə, demək istəyirəm ki, yaddaşı həddindən artıq yüklənmiş, daxili aləmi sərtləşmiş adi insan duyğularından uzaq düşmüş hər kəs nostalji bir hisslə sənin "Duyğuların dili" kitabını oxumaq istəyəcək.

İnsan iztirabları, sevgi hissləri nə qədər təbii təzahür edirsə, bir o qədər yaşarılıq haqqı qazanır.

Həyatının ən gözəl anlarını itirən təbii hissləri və duyğuları qiymətləndirə bilməyən bir şəxsin faciəsini necə dəqiq və aydın verə bilirsən. İnsan-insana doğma olduğunu, insanın ən yaxın adamı elə insan olduğunu gərək heç kəs unutmasın. Bu, təbii həyat suallarının qarşısında müşküllük çəkən, susmağa məcbur olan insanın çoxlarımızın dərk edə bilmədiyi faciəsini sən bir neçə sətrə sığışdıra bilirsən.

*"Yaşadıqlarımızın sənin üçün əhəmiyyətsiz olduğunu söylə. Həyatında heç vaxt dəyərli olmadığımı söylə. Nədir? Niyə susmusan? Elə dayanma!.. qaldır başını, gözlərimə bax! Məni heç vaxt sevmədiyini söylə. İndi də verdiyin qərarın xəyanətlə heç bir əlaqəsi olmadığını söylə. De ki, bu, sadəcə əyləncə idi ki, yaşadıq.*

*Deyə bilmirsən?.. Axı sən də bilirsən ki, hara getsən, yenə dönəcəksən. Sevgin üçün dönəcəksən. Onda qarşımda diz çökmüş olsan belə, bağışlamaram. Sevgimin böyüklüyünə baxmayaraq, hətta sən sınmış qürurumu bərpa elə bilməzsən.*

*İndi getsən də, illərdən sonra belə səni sevəcəyimi bilirsən. Onu da yaxşı bilirsən ki, məndən çox sevənin olmayacaq!"*. İnsana inam budur. Üz döndərib gedənin, başa düşüb-düşməyənin, yaxud lap elə yaxınında olsun, fərqi yoxdur, onun qəlbinin dərinliklərində yatmış yox, gizlənmiş həqiqəti dilə gətirə biləsən. "*Məndən çox sevənin olmayacaq*". Bəli, budur, həyatın sirlərlə, həyatın anlaşılmazlıqlarla dolu olan, heç kimin aça bilmədiyi "qırxıncı otaq"dakı həqiqət. Azərbaycan

nağıllarından, məhəbbət dastanlarından, bir sözlə, insanlıq fəlsəfəsinin lap dərinliklərindən gələn bir həqiqətdir bu. Və acı həqiqətdir. İnsan daha gur işığın hardan gələ biləcəyini görə bilmir. Amerika yazıçısı, "Nobel" mükafatı laureatı Con Steymberq əsərlərinin birində deyirdi: "***Pulun nəinki qəlbi olmur, onun həmçinin, şərəfi, yaddaşı da olmur. Vacib deyil ki, pul səndə hardandır. Vacib odur ki, o, olsun. Və onun köməyi ilə bir az da qazanasan. Bunun həyasızlıq hesab etməyin. Bu pulu olanlar üçün darıxdırıcı mövzudur. Kasıblar üçünsə, bu, ən əyləndirici mövzudur yer üzündə".*** Sanki "Duyğuların dili" kitabı insan qəlbinin zənginliyi ilə, həssaslığı və təbiiliyi ilə canlanır, onun nüfuzedici baxışları insan faciəsinin mahiyyətini ifadə edən "pulun yaddaşı olmur" hökmünə qarşı durur. "Duyğuların dili" daha gözəldir. Hətta pulun yaddaşı olsaydı, hətta pulun şərəfi və ləyaqəti olsaydı belə, yenə ondan üstün olardı.

Bəli, "Duyğuların dili" daha gözəldir. Puldan da, maddi imkanlardan da, insana yalnız zor və güc üçün gərək olan nə varsa, hamısından daha gözəldir. Bəli, həyatın amansızlığına qarşı sən daha çox həssas və daha çox duyğulusan. Təmkinin, insanlığın, şükranlığın heyrətləndirəcək qədər gözəldir.

"Duyğuların dili" həyat və sevgi nəğmələridir.

İnsan həyatdan doya bilmədiyi kimi, sevgidən də usana bilməz.

Kaş hamımız duyğuların dili ilə danışa biləydik.

Zülfümar, qızım, sənə yaradıcılıq uğurları və əbədi ömrün boyu sağlam düşüncə arzulayıram. Həyata daha dərindən nüfuz etməyə çalış. Düşüncə ilə görə bildiyin məkanı daha da böyüt. O, sənin lap yaxınındadır. Sən bu genişliyi və zənginliyi daha çox görə bilərsən. Sağ ol!

**Əli Rza Xələfli**

*şair-publisist,*

*Beynəlxalq Rəsul Rza mükafatı laureatı*

*21.04.2009*

# ETÜDLƏR

* * *

Başlanğıcını torpaqdan alan insanlarıq hamımız. Hamımızın Yaradıcısı eynidir. Həyatda mövqelərimiz fərqli olsa da, eyni yaradılışdanıq. Tanrı hamını bərabər yaradır… Müxtəlif yüksəklikdən həyatı izləmək, özümüzün əvvəldən çizmiş olduğumuz yoldur. Hər kəsə sevmək üçün qəlb, düşünmək üçün beyin verilib. Bir də bizi idarə edən hisslər... Bəzən qalib gələ bilmədiyimiz, bəzən də həyatı qazandıran hisslər… Hisslər içində ən ülvisi sevgi. Torpaqdan yaranıb, torpağa dönənə qədər həyatı bəzəyən sevgi. İnsanın malik olduğu qəlbin, ən böyük sevgisinin ən böyük sahibi, bütün gözəlliklərin yaradıcısı Allah. Böyük sevgidən bizləri Yaradanı, gərəkdir ki, biz də böyük sevgiylə sevək. Sevərək inanaq ki, Ona, bağışlanaraq mərhəmətdən doğan o böyük sevgini də duya bilək.

31.08.2008

* * *

Ən böyük dərdini belə, əlçatmaz arzularını bölüşdüyün Tanrıyla paylaşmaqdan çəkinmə. Bu həyatda inanılmaz acılar, qəlb oyadan sevinclər hamısı bizlərçün yaradılıb. Acı zarafatlarla dolu bu həyatı da Allah yaradıb. Onu da, yaratdığı hər şeyi də sevməkçin bizlərə qəlb verib. Qəlbin duyduğu hər bir hiss də Ona aiddir. Daim Onu sevərək şükür edib, Onu çağırmağımızı istəyir. Allaha üz tutub, Onu səsləyək... Çünki hər zaman harayımıza hay verən Odur.

20.09.2008

* * *

*Anama*

Salam… "qəm" adası. Bu mənəm "duyğu" gəmisi. Aylı gecənin qaranlığında yanaşmışam sənin limanına. Yüküm – böyük sevgimdir. Qulaq ver, eşit səsimi…bu səs qəlbin səsidir… O deyir: darıxmışam… bizi ayıran illər uzandıqca, sənə olan sevgim artır. Sənsizlikdə yaşadığım illər qəlbimin hərarətini, ürəyimin sevgisini azaltmır, duyğularımı tükətmir. "Zaman hər şeyin dərmanıdır" deyibən dərmanı zamanda aradım. Nədənsə bu dərman mənə əks-təsir edir. Zaman keçdikcə xəyalın bir o qədər yaxınlaşır mənə. Bu aralar mənə səni xatırladan hər şeydən elə bezmişəm ki. Səni düşünərək qəmli olmaqdan bezmişəm. Artıq xatırladıqca xəyalına sevinəcəm. Sevinib yaşayacam. Yaşayacam və çalışacam ki, nə vaxtsa sənlə bağlı dağılmış ümidlərimi, yarı qalmış arzularımı yaşada bilim.

17.08.2007

* * *

Gedirəm. Səni unutmaqçun, sənli xatirələri silib atmaqçun, burada mənə səni xatırladan hər şeydən uzaq olmaqçun gedirəm. Bəlkə uzaqlarda, fərqli insanların əhatəsində, yeni münasibətlərdə unudaram səni. Ürəyə hökm etmək olmur, amma bəlkə yeni tanışlıqlar unutdurar səni mənə. Məni belə sadəliklə həyatından silən birini mən də unutmalıyam. Onu yaddaşımdan silmək, ürəyimdən çıxarmaq, heç həyatımda yoxmuş kimi davranmaq, bundan sonra yalnız özümçün yaşamaq mənim də haqqımdır. Heyif ki, mən bunu bacarmıram. Səndən uzaqlarda belə ürəyimin hər vurğusunda yanımdaymışsan kimi varlığını duyuram. Çünki sən elə hər vurğusunda varlığını duyduğum ürəyimin özüsən.

06.10.2007

* * *

Elə yalnızam, elə tənhayam ki... Bu böyük dünya dar gəlir mənə. Görəsən, nədir məni sıxan? Nədən özümü yalnız hiss edirəm? Ətrafımda ki bu qədər insan var, məni sevənlərim, yaxınlarım ki hər zaman yanımdadır. Hər zaman mənə dəstək olan, acımı paylaşanlar hələ də burdadırlar, axı. Bunları hiss edərək həyatımda tənhalığın hökmranlıq etməsi nədəndir?.. Sadəcə sənin yoxluğundur mənə bunları yaşadan. Sevdiklərim arasında səni görmədikcə, sənin sevgini, isti nəfəsini hiss etmədikcə dünya mənə dar gəlir. Neçə zamandır ki, ayrılıq kəsib aramızı. Artıq mən də həmin adam deyiləm. Yoxluğunun taleyim olduğunu da bilirəm. Tanrının bəxş etdiyi qismətimlə də artıq barışmışam. Ürəyim vurduqca xatirən beynimdən silinməz. Səni hələ də duyuram. Elə lazımsan ki mənə. Ehtiyacım var sənə, sənin sevginə. Yenidən sənli günlərimi istəyirəm. Heç bir dərdi, fikri olmayan, qayğısız, xoşbəxt insan olmaq istəyirəm.

13.10.2007

* * *

Sənsiz keçən neçənci ildir? Neçənci bahardır ki, yaşayıram? Sənsiz bacarmaram deyib də, artıq neçə sabahdır ki, sənsiz açıram? Tək zaman hər şeyə dərmandır – deyiblər. Ən böyük acılara da öyrəşdirir insanı. Yalnız mənim yaramı qapaya bilmir. Çünki varlığınla yaşadırdın, güc verirdin bu ürəyə. İndi yoxluğunda necə yaşamalıdır ürəyim? Həyat sevgisini, yaşamaq eşqini öldürdüyün ürək necə döyünməlidir? Yaşama gücünü səndən alan, yaşama səbəbi sən olan ürək varlığındakı kimi döyünər heç? Tək səninçün vuran ürəyin qədrini ki bilmədin, xoşbəxtliyi burdan uzaqlarda ki aradın, get artıq!.. Gözün arxada qalmasın, heç sənin nəfəsinlə döyünən bu ürəyi də fikirləşmədən get!.. Yalnızca xoşbəxt ol! Sevincin məndən uzaqlardasa da onu tap, gülümsə... Xoşbəxt olduğunu bilərək, sənsizlikdə belə səninçün döyünən ürəyimi ovuda bilərəm.

06.10.2007

* * *

Böyük hisslərin, uşaq tək saf, təmiz sevgimin dəyərini bilmədin. Ürəyinə möhürlənmiş sevgini nə tez unutdun? Nə tez unutdun sözlə deyil, göz yaşlarıyla etdiyimiz etirafları? Verdiyin sözə, içdiyin anda dönük çıxdın. Böyük ümidlərlə, geniş ürəyimin gözəl duyğuları ilə sevmişdim səni. Sevgini yalan sözlərinlə sevdirmişdin mənə. Sevgimizin hər şeydən üstün, hisslərinin təmiz və qüsursuz olması ilə aldatdın məni. İnandım sənə, sənin sözlərinə, yalan hisslərinə. Puç etdin arzularımı, yalana satdın duyğularımı. Məhv etdin sevgimi. Düşünürəm də, sən heç bilirsənmi duyğuların dəyərini? Bilirsən ki, sevgi nədir? Bəlkə də... Amma bir onu dəqiq bilirəm ki, mənə qarşı duyduğun sevgi deyildi. O, sadəcə sənin əyləncə kimi baxdığın eqoistliyin idi. Sevgi sənin kimi hisslərini yalana qurban verib də hər kəsin yanında başıyuxarı olmaq deyil. Yalanlarla qorxaqlığını gizlətmək, böyük sevgi hisslərini danaraq, sevgidən qaçmaq təkcə onunla olarkən etiraf etdiyin hiss deyil sevgi. Tək "səni sevirəm" demək də deyil sevgi! Bu beş hərfdə bütöv bir dünyanı birləşdirməkdir sevgi. Sevgi – hər zaman onunla bərabər olmaq deyil, ondan uzaqda belə onunla ola bilməkdir.

07.10.2007

* * *

Hələ də sevirəm səni. Aramızda artan illərə baxmayaraq hələ də ürəyimin ən böyük sevgisi, ən dərin duyğuları sənə aiddir. Sənsizlik acısı dünənmiş kimi qəlbimi sızladır. Qayıdarmışsan kimi gözlərim hələ də yollarına baxır, həsrətini çəkir. Yanımdaymışsan kimi duyuram səni. Bu da səni unutmağıma mane olur. Unutmuram. Xatırlayıram. Daha da çox sevirəm səni. Sevirəm və darıxıram səninçün. Darıxıram sənli günlərimçün. Yəqin bu da mənim qismətimlə barışmalı olduğum alın yazımdır. Qismətimdir ki, həyatımı sənli xatirələrlə yaşayım. Sevə-sevə unutmaq necə də çətindir, bir bilsən. Qismətimlə barışıb yoxluğuna alışaram, amma səni unutmaq, əsla! Unutmaq mənim ürəyimə görə deyil. Unutmaram. Hələ mənə sevməyi öyrədən qəlbi heç vaxt...

09.10.2007

* * *

Gecənin qaranlığını duy. Qəlbindəki məni hiss et. Hiss et və unutma. Unuda bilməzsən ki. Çünki gedərkən ürəyimi də özünlə aparmısan. Köksündə bir yox, iki ürək daşıyırsan. Uzaqlarda belə səndə qalan ürəyimlə məni unutmağın mümkün deyil. Ürəyimin hər vurğusunda sevgimin böyüklüyündən, hisslərimin dərinliyindən xəbər tutacaqsan. Hər zaman, hər kəsin yanında sənə hamıdan yaxın mən olacam. Ürəyinin hər vurğusunun səsində xatırlayacaqsan məni. Unutmaq istəyirsən? Yoxsa hələ də özünü məni sevmədiyinə inandırırsan. Mənsə yaşamaq istəyirəm. Elə isə qaytar ürəyimi. O sənə lazım deyil. Sən ki, bu ürəyin dəyərini heç əvvəldən anlamamısan. Sənə bağlılığım mənim təxəyyülüm idi, sadəcə səninlə qurduğum boş xəyallarım idi… Mən bunlara çoxdan əlvida demişəm. Sənə də lazım deyilsə, qaytar ürəyimi artıq.

21.09.2007

* * *

Haqqında heç bir kitabda, heç bir qanunda yazılmayan, heç bir çərçivəyə sığmayan, yalnız qəlb sözünə, qəlb səsinə qulaq asan, insanı dinləməyən, başdan iki ürəyi bir araya gətirən, sonda vahid ürək şəklində təzahür edən, ağlımızı başdan alan, bizi ürəyin hökmü ilə hərəkət etməyə məcbur edən o deyilmi? Hər görüşdə sözləri yox, gözləri danışdıran, bəzən səsini hamı duysun deyə bütün dünyaya bağırmaq, bəzən də heç kim duymasın deyə ürəyində gizlin ağlamaq deyilmi sevgi? Mənim onun yoxluğunda da, ondan uzaqlarda belə varlığını duymağım deyilmi sevgi?

Əlbəttə, bu böyük sevgidir. Bir zaman məni həyata bağlayan, yaşamaq eşqimi artıran böyük sevgim. Sən varsan deyə, sevdiyim həyatı sənsiz yaşamaq necə də çətindir. Həyatda varkən, yanımdakı yoxluğun dəhşətdi. Qismətimdəki sənsizliklə barışıram, sadəcə ürəyimdə qoyub getdiyin boşluğu kiminsə dolduracağına inanmıram. Sevdiyim ilk və son ürək sənsən.

21.09.2007

* * *

Yenə payız, yenə xəzəl vaxtı. Ayrılmaq istəməsələr də yarpaqlar tərk etməlidir bütün fəsil boyu bir-birinə mehribanlıqla sarılıb, yaşadıqları qocaman ağacı. Heç bilmək olmur külək onları hara atacaq. Göylərdə uçaraq dənizlər üzərində, sular qoynunda sonunu tapacaq. Biz də belə deyilikmi? Sevərkən ayrılığı gözə alırıqmı? Yox... Bəzən ayrılıq dadandan, sevdiyimizi itirdikdən sonra anlayırıq qiymətini həyatın. Doğrudan da həyat onunlaydı anlayırsan. Artıq gecdir... Gecikmiş peşmançılığın isə faydası yoxdur. "Sevirəm" deməyin, gecikmiş peşmançılığı çəkməməkçün sevgimizi gizlətməyək. Sevək, həm də sevilək, insanların qədrini bilək, həyatı qiymətləndirərək yaşayaq. Həyat gözəldir, yaşamağı bacarsan.

09.09.2007

* * *

*Anama*

Sənsizliyə düçar olmuş dərdimə dərman, çarəsiz dərdə məlhəm axtarmaq kimidir. Nə qədər çətin, nə qədər əzablıdır sənsiz olmaq. Bu qəfil gedişin həyatdakı arzularımı, ümidlərimi alt-üst etdi. Gedişinlə, sanki bir dünya yük qoydun çiyinlərimə... Sənsiz olan həyatımı fikirləşdim, gözümün qabağına gətirib ağladım. Yox, bacarmaram sənsiz. Bir dəqiqə belə yaşaya bilmərəm... Amma indi bax... Yaşayıram. Həm də sənsiz. Artıq neçə ildir. Amma ürəyimdə bir amalla yaşayıram. Birgə qurduğumuz xəyalları yaşatmaqçün, ümidlərini doğrultmaqçün. Sənin ümidlərini. Sənin qarşında olmasa da, xəyalın qarşısındakı borcu ödəməkçün.

05.09.2007

* * *

Niyə görəsən, ətrafda bu qədər insan varkən, qohumlar içində, dostlar arasında özümü tənha hiss edirəm? Yəni insanları görmürəm, yoxsa onları görüb də hiss etmirəm, sadəcə. Bəlkə, bu mənim daxili təkliyimdir. İçdən tənha olduğumçün ətrafdakıların varlığını duymuram. Bu tənhalığın acısını, insanlara laqeydlik sən yaşatdın mənə. Bumuydu mənə layiq bildiyin? Məni inandırdın yalanlarına. Mənim də həyatımı yalanlarınla, boş xəyallarla bəzədin. İndi tənhalığımda da səni axtarıram. Yalanlarınla da olsa, ürəyimin dərinliyində yerləşmisən, içimdəki boşluğu heç nə doldurmur. Səni heç kəs əvəz edə bilmir, bəlkə mən hələ də sənin xəyalına xəyanət edə bilmirəm, məni tənhalığa məhkum edən vəfasız ürək.

30.09.2007

* * *

Yenə gecə düşür, hava qaralır, ətrafa sakitlik çökür, yalnızlıq qoxusu duyulur. Bu sakitliyə qarışan yalnızlığım hər gecə mənimlədir. Təkcə odur məni tək qoymayan. Bu aralar hər gecə səni xatırlamaq artıq adətimdir. Elə bilirdim sən həmişə yanımdasan, həyat yalnız sənlə mövcuddur. Düşünürdüm ki, varlığındır məni yaşadan. Dünyamı sən varsan deyə sevmişdim. Tənhalığın qismətim olacağını, sənsizlikdə tək qalacağımı bilsəydim, elə əvvəldən bu dünyanı sənsiz sevərdim.

30.09.2007

* * *

Burdan çox uzaqlarda bir qəlb döyünür. Sevgisi uğrunda hər şeyə hazır olan bir qəlb. Dünyada onun sevgisindən böyük heç nə olmayan bir qəlb. Həyatda heç nəyə ehtiyacı olmayan, yalnız sənin sevgi əsirin olan bir qəlb. Həyatda istədiyi çox şey deyil, yalnız böyük sevgi, vəfalı ürək! Ürəklər içində böyük sevgi sahibi tək sənin qəlbini görüb sevdi. Ona vəfalı olub da, sevgində sadiq olacağına inanıb sevdi. Əhdinə vəfasız, sözündə dönük olduğunu bilsəydi, heç sevərdi səni? Ülvi hisslərlə dolu ürəyini, saf eşqini dəyişərdi yalanlarla dolu həyata? Sən!.. Sən ey "böyük ürək" sahibi bilmirdin ki, saf eşqin dəyəri nədir? Bilmirsənmi saf eşqə xəyanətin cəzası böyükdür? İndi yaşa sevgidən kənar, yalanla əhatələnmiş, xəyanətlə dolu həyatında. Bu sənin cəzandırsa da, çək!.. Amma mən sənə pislik arzulamıram. Təmiz hisslərini çirkaba atdığın bu ürək, sənə də bu çirkab içində xoşbəxt olmağı diləyir…

05.09.2007

* * *

Gözlərinə baxıb, səni sevirəm deyib, əllərinin istisini duyarkən həyatımı sənsiz təsəvvür edə bilmirəm. Yanımda ikən yoxluğunu duya bilmək çətindir, çünki varlığındır məni yaşadan. Sənsiz həyatı təsəvvür etmək? Əsla!!! “Yoxluğunda mən də yoxam” sanırdım. Amma bax… İndi aramızda neçə illər durur. O zaman xəyalıma gəlməyən indi reallıqdır. Sənin yoxluğunla barışa bilmədiyim reallıq. Həyat ayırsa da bizi varlığını hələ də duyuram. Nə yaxşı ki, həyatımda var idin. İndi səni düşünərək, xəyalınla xoşbəxt oluram.

05.09.2007

* * *

Bir gün mənsiz həyatının mənası olmadığını anlayıb, peşman olsan da geri dönməyi heç düşünmə. Həyatıma gərəksən, yaşaya bilmərəm sənsiz – deyəndə, sən nə etdin ki? Ehtiyacım var sevginə – deyəndə tərk edib getmədin məni? Sənsiz qoymadınmı sevən ürəyimi? Sevgindən kənar yaşamağım çətin olsa da, artıq alışıram sənsizliyə. Ona görə qayıtma…

Sənin bir günahın yoxdur, bu mənim qismətimdir, sadəcə. Mən də barışıram qismətimlə, sənin isə yaşamının bir anlamı yoxsa da dönmə… Qayıtma geri, artıq istəmirəm sənli həyat…

Məndən uzaqda həyatın yoxsa da yaşa! Sən də mənim kimi qismətinlə barış… Özün seçmiş olduğun yolu mənsiz irəliləməyə davam et. Çox gec duymuş olduğun peşmançılıq hissinin faydası yoxdur!..

05.09.2007

* * *

Həyatım, ömrüm, mənim dünyam. Sevdiyim hər şey. Sevdiklərim içində ən çox sevdiyim sən. Özümdən də artıq sevdiyim, niyə belə etdin axı? Arzularımı, duyğularımı, bütün varlığımı heç etdin. Məndəki böyük inamı öldürdün. Sənə duyduğum təmiz, ülvi eşqi dəyərləndirmədin. Məhəbbətim qiyməti olmayan, lazımsız əşya kimi ayaqlar altına atıldı. Tapdalandı...

Yaşamdan məhrum olmuş, qaranlıqlarda döyünən ürəyinin əsl xoşbəxtlik sevincini duymağı, gözəlliklər içində yaşamağını diləyirəm. Sən – "vəfasız ürəy"in sevinci, arzularını puç etdiyin bu ürəyin xoşbəxtliyidir, əslində.

05.09.2007

* * *

*Anama*

Sənə olan sevgimin nə qədər böyük, eşqimin nə qədər saf olduğunu anlamadın? Sənə həyatda nə qədər möhtac olduğumu bilmədin? Nəfəs qədər ehtiyacım var sevginə, deyəndə inanmadın mənə? Bəs nə idi tərk etməyin səbəbi? Unudulmağım? Ola bilməz. Unutmaq asan deyil, axı! Yəqin ki, sən də bu ayrılığı istəmədin. Sadəcə yazılanı silmək olmur. Hər insanın taleyi var, bu da mənim taleyimdir. Mənim qismətimdir, yəqin. İllər üstünə illər gəlir, amma məni səndən ayrı salan qismətimlə barışa bilmirəm, sənsizliyə öyrəşə bilmirəm. İndi yanımda deyilsən. Amma ürəyimdəsən. Həyatda heç nə daimi deyil, mənim sevgim isə həmişə var. Ölənə kimi, hətta ondan sonra da səninçün yaşayacaq.

22.09.2007

* * *

*Atama*

Qarlı, çovğunlu qışda ümid çiçəkli bahardır, gün batımında yeni gün, xəstə ikən sağalmaqdır ümidimiz, bəs sənin gedişində nədir ümid? Axı bir ümid yeri qoymadın gedərkən. Heç fikirləşmədinmi sənsiz qalan ürəyimi? Getdin bir söz demədən, bəlkə heç düşünmədin də məni. Bəlkə də çarəsizlikdir... Amma bilməlisən ki, çarəsizlikdən atdığın bu addım sevdiyin bir insanı gözüyaşlı qoyub.

22.09.2007

* * *

Sevib, sevilmək gözəldir, xoşbəxt olmaq, sevincini insanlarla paylaşmaq ülvi hissdir. Dünyamız gözəldir, yaşamaq, qurub - yaratmaq gözəldir. İnsanlar, onları sevmək gözəldir. Bu gözəlliyi duyub da, ondan həzz aldıqda düşünürsənmi kimdir bunları sənə bəxş edən: Kimdir bu böyük mərhəmət sahibi? Etdiyimiz cahilliklərə, buraxılmış səhvlərə baxmayaraq bizləri bağışlayan, hər zaman tövbə qapılarını bizlərçün açıq qoyan güclü, qüdrətli Allah. İnsanlar, dualarımızı Ondan əksik etməyək. Şükür edib bağışlanmaq diləyək ki, Tanrı mərhəmətini duyaq.

22.09.2007

* * *

Acılı-şirinli, enişli-yoxuşlu həyat yolları. Müxtəlif simalı, yalanlarla dolu dünyamız. Bəzən bizi tənhalığa, ölüm qorxusu duymağa sövq edən həyat… İnsan daim pislikdən yaxşılığa, yalanlardan doğruya gedən yolu axtarır. Hardadır bu yol, hardan keçir bu yol? Hər kəsin yolu öz qəlbindən keçir. Tanrını sevmək, Allaha inam fərdi olaraq hər insanın yoludur. Həyatda insanın qarşısındakı iki yoldan ən doğrusunun seçimi öz üzərinə düşür. Doğru seçimdə bizə yol göstərəni tanıyaq. Allahı doğru tanıyıb, doğru sevək!

25.09.2007

* * *

Məndən uzaqlaşdıqca səni unudacağımı sanma. Düzdür, aramızdakı məsafə böyüyüb, zaman get-gedə artır, amma unutma ki, nə səni unudacaq qədər zaman keçəcək, nə də kecən zaman səni unutdura biləcək. Zaman hər şeyin dərmanıdır, amma zaman unutdurmur ki, sadəcə öyrəşdirir. Sənsizliyə öyrəşdirir. Bəs xəyallar, sənli xatirələr, birgə yaşadıqlarımız, sevdiklərimiz..? Bunları da unutduracaq mənə zaman? Beynimidəmi, ürəyimidəmi siləcək? Silə bilməz. Mənim həyatda sənsiz olmağım üçün bu həyata yenidən gəlməm lazımdır. İndi isə ürəyim vurduqca həyatımın hər yeni səhifəsində sənin yerin bambaşqa olacaq.

25.09.2007

* * *

İndi gedirəm, burdan çox uzaqlara gedirəm. Uzun məsafələr, fərqli yollardan keçəcəm, amma səni unutmaram. Çünki sənə sonsuz sevgilərlə döyünən ürəyimi də aparıram özümlə. Bu məsafələr, uzun sürən ayrılıqlar, ümumiyyətlə, heç nə sənsizlik həsrətilə alışıb yanan qəlbimi soyuda bilməz. Həyata mənlə gələn bu sevgini, yalnız ölüm ala bilər. Həyatdakı qismətimiz ayrılıq olsa da, qəlbimdəki sevgi ölməzdir. Həyatımın ən böyük sevgisi sən deyib, ürəyimin ülvi hisslərin sənə verib də, səni sevmədim ki, unudam! Ürəkdə unutmağa yer olmasa da, böyük sevgi yaşatmağa yer çoxdu. Odur ki, böyük sevgilərin ünvanı olan bu ürəyim, bu sevgilər içində ən böyük sevgi sahibi olan ürəyini heç zaman unutmaz.

04.08.2007

* * *

Artıq gedirəm, uzaqlara. Səni unutmaqçun, ürəyimdən, qəlbimdən silmək üçün gedirəm. Görəsən, bacararam? Adın çəkilən yerdə, gözlərim önündə canlanan xəyalına baxıb da unuda biləcəm səni? Sənin tək xəyalıma xəyanət edə biləcəm? Axı mən səni böyük ürəyimin böyük sevgisi ilə sevmişdim. Mən sevgimi unudaram, silib ataram səni həyatımdan, yalnız ürək ən böyük sevgisinə heç vaxt xəyanət edə bilməz!

11.08.2007

* * *

*Validelynlərimə*

Sizi sevirəm! Sevgilərin ən böyüyünü, duyğuların ən ülvisini, hisslərin ən gözəlini mənə yaşatdığınızçün sevirəm sizi. Sevginin aliliyini öz sevginizin timsalında göstərdiyinizçün, qaranlıqdan sevgi dolu işıqlı dünyaya gedən yolu mənimlə birgə irəlilədiyinizçün sevirəm sizi. Qoy olsun!.. Bu yolda tək qoymusuz məni. Tanrıya minnətdaram ki, siz mənim həyatımda var idiniz. Çünki sizsizlikdə də varlığınızı duyub, xəyalınıza sevinirəm!

22.10.2007

* * *

Sevgi – müqəddəs hiss. İnsanları, anamızı, özümüzü sevməkçün bizə Tanrının bəxşişi. Ürək – müqəddəs hissin doğulduğu yer. Tanrı onu hər birimizə versə də eyni deyil. İnsan – müqəddəs hissin doğulduğu yerin sahibi, bu sahibliyi də Tanrı hamıya bəxş edib. Amma bu da fərqli... İnsan olub da ürək sahibi ikən, gözəlliyi duyub, müqəddəs sevgini yaşarkən bizə bunları bəxş edəni hamımız yada salırıqmı? Şükür edib də, Tanrıya minnətdarlıq edirikmi? Bir gün bu gözəllik bitdiyində günahkar axtarırıq. Kimdir günahkar, zamanmı, dövranmı, yoxsa insan? Bəlkə… Bəlkə deyib günahı özgələrdə axtarmayaq...

12.08.2007

* * *

Zaman keçir, illər də bir-birini əvəz edir. Düşüncələr, fikirlər sakit qoymur məni. Xəyal olsa da xatirimdəsən. Sənsizlik həsrətinə göz yaşlarımdır köməkçim. İllərin ötüşməyinə baxmayaraq unuda bilmirəm səni. Deyəsən, bu hiss məndən güclüdür. Hərdən düşünürəm ki, eşq bizdən uzaqdır? Nə qədər tələsirik, çata bilmirik. Bəlkə qismətimiz budur. Sadəcə barışmalıyıq? Həyat deyilən bu yol mənə çox uzun gəlir. Sənsiz bu yolu axıra kimi gedə biləcəm? Sən yoxsan, həyatım boş kimi görünür. Deyəsən, həyatın bu oyununda nə sənə, nə mənə, nə də bizim sevgimizə yer yoxdu. Oyunda bizim vaxtımız doldu. Ayrılmalıyıq. Qovuşmasaq da bilməlisən ki, sənin qəlbimdə həmişə yerin var. Səni sevirəm!

22.10.2007

* * *

Yenə gecə düşür. Kiminçünsə sevincli, kiminçünsə kədərli. Oturmuşam sənsiz otağımda, baxıram pəncərədən mənim kimi yalnız qalan o parlaq ulduza. Bilirsən, hansı ulduzdu o? Mənim həmişə sevərək izlədiyim, alışıb-yanan, ətrafındakı ulduzlara da işıq saçan parlaq ulduz. Nə üçün sevirəm o ulduzu? Çünki o mənim ulduzumdu. Həyatsevər insana bənzəyir. Mən də həyatımı sevirəm, yaşamağı sevirəm. Həyatın sərtliyin də, gözəlliyin də sevirəm. Hər gün oyandığımda günəşi, yatanda o ulduzu, ayı görməyi sevirəm. Bu dünyanı, insanları, hər şeyi bizə bəxş edən Allahı çox sevirəm, bəxş etdiyi dünyanın içindəki səni sevirəm!

14.08.2007

* * *

*Anama*

Sənsizliyin əzabı səni itirdikdən sonra tapdı məni. Səni itirdikdən sonra anladım ki, əslində ətrafımdakılar, məni əhatə edən bu mühit, insanlar, sadəcə bir boşluqdur. Səninlə yaşadığım həyat sənsiz boşluqdursa, boşluqda necə yaşayım? Sənsiz həyatın dadı da yoxdu elə bil. Bunu indi anlamışam. Yanımda ikən heç sənsizliyi ağlıma gətirmirdim. Bir gün həyatda sənsiz ola biləcəyimi fikirləşmirdim. Amma həyatdır, sənsizliyə öyrəşməliyəm, sənsiz olsa da yaşamalıyam. Yaşamaq hamımızın haqqı və borcudur. Amma xoşbəxt olmağa da hamımızın haqqı var. Sənsiz mənimçün xoşbəxtlik nisbi olsa da, sənsizlikdə axtaracam xoşbəxtliyimi.

18.08.2007

* * *

Görəsən, sevməyim günahdı?... Yoxsa sevgilər içində həmişə ən böyük sevgi aramağım günahdır? Mən sadəcə xoşbəxt olmaq istəyirəm. Mənim də xoşbəxtliyim axtardığım sevgimdir. Budamı günahdır? Bu günahlar içində təkcə sənin sevginə ehtiyacım var. Sevginin böyüklüyünə, sevilməyin gözəlliyinə, hisslərinin təmizliyinə sən inandırdın məni. Aradığım böyük sevgi ünvanı sən olduğuna inandırdın. Sənə duyduğum hicranın vüsal şirinliyinə alışdırdın məni. İnandım sənə, sənin sevginə. Sənin yalanlarla qurduğun boş xəyallara … Heyif mənə, heyif sevgimə, sənə duyduğum o saf eşqə. Yaramın dərinliyinə baxmayaraq, ürəyimin səni unudacağını sanmıram. Amma sən qorx… Qorx ki, mənim qədər sevən tapmayacaqsan. İlk sevginə xəyanət etdin. Eşqinə vəfasızlıq edib, bilmədin qədrini saf qəlbin, təmiz ürəyin. Sənin də ürəyini qırıb, saf eşqinə xəyanət edən olacaq. Onda gec olsa da anlayacaqsan ki, etdiklərinə görə bu sənin çəkməli olduğun cəzandır.

04.01.2008

* * *

Doğrudan da, nə gözəldi yaşamaq. İnsanları sevmək, böyüklərə hörmət, kiçiklərə qayğı göstərmək. İnsanları sevərək nə qədər sevildiyini, həyata nə qədər lazımlı olduğunu anlayırsan. Həyatdır… Həm acılı, həm şirinli günlərilə gözəl həyat. Həyatın sərt üzünə, acı zarafatlarına, ağır imtahanlarına baxmayaraq, sevirəm həyatı. Sevirəm mənə bu həyatı bəxş edən Allahımı. Gəlin hamımız sevək həyatı, bizləri yaradan Allahı. Şükür edək Yaradanımıza, çünki Tanrı sevir şükür edənləri. Həyatın hər sınağında səbrli olaq. Səbr edənlərin mükafatı böyükdür. Şükür edib səbirli olaq ki, mükafat sahibi olub, Tanrı mərhəmətini duya bilək…

05.09.2007

* * *

Sənsiz keçən illərimi sayıram, sənsiz olan günlərimin boşluğuna alışıram. Əlbəttə, həyatdır, alışıram da, yaşayıram da sənsiz. Deyirəm, gülürəm, əylənirəm də. Sadəcə heç nə əvvəlki kimi deyil. Əvvəlki kimi heç nəyin dadı yoxdur. Yer üzündə cənnətin nə olduğunu sən göstərmişdin mənə, səninlə həyatda başımı uca tutmağı öyrənmişdim. Səninlə böyük sevginin yaratdığı möcüzələri birgə izləmişdik. Sənmi aldın bunları məndən, yoxsa həyatmı? Yəqin bu, mənim qismətimdir ki, onunla barışmalıyam. Əlbəttə, qismətimlə barışıram, amma sənsizliyə öyrəşə bilmirəm. Hər dəfə adın çəkilən yerdə gözüm önündə canlanmağın, hər görüntüdə sənin xəyalın, hər zaman duyduğum varlığın məni rahat qoymur. Necə ki, xəyalına xəyanət edə bilmirəm, ölənəcən həyatımda, ürəyimdə sən olacaqsan. Çünki ürəyimə böyük sevgi öyrədən sən, bu sevgiyə xəyanət haqqında heç vaxt danışmamısan. Ən böyük eşqim…

05.09.2007

* * *

Bu sevgini unutmağa bir ömür kifayət edəcək mənə? Görəsən, onu başqasıyla əvəz edə biləcəm? Bəli, "ürək bir dəfə sevir" deyirlər. Sən də mənim duyduğum ilk və böyük sevgimdin. Duyduğum ən gözəl hissi unuda biləcəyimi də sanmıram. Xəyalıma belə heç vaxt xəyanət etməyi gətirməmişəm. Sənin qəlbindən fərqli sevgiylə sevən ürəyim böyük eşqinə xəyanət etməz. Ümumiyyətlə, bilməlisən ki, böyük sevgi yaşamış heç bir ürək bu sevgiyə xəyanət edə bilmir. "Bəlkə ikinci dəfə yaşaya bilərəm" demə, ürək ən böyük eşqini bir dəfə yaşayır. Yaxşı fikirləşib, düzgün addım atsan, ən böyük eşqini itirməzsən...

05.09.2007

* * *

Böyük eşq həsrətilə cilalanmış, arzularla dolu ürəyim öz sevgisini çox axtarıb-aradı. Nəhayət ki, həyatda əlçatmaz arzularına yetişməkçün o, əsl səadətini səndə tapdı. Böyük eşqinin, təmiz hisslərinin hədəfi sənin ürəyini seçdi. Doğrudan da, sən sevgilərin ən böyüyünü, insanı həyata bağlayan, o ülvi hissi yaşatdın mənə. Qəlbimin gözəl hissi duyduğuna, dərin sevgimə görə minnətdaram sənə. Bir də minnətdaram Allahıma ki, səni sevməyə, sevgini duymağa, indi də həsrətini çəkməyə mənə geniş ürək verib. Məndən uzaqlarda belə xoşbəxtliyi duymağın məni sevindirir. Mənə böyük hissləri bəxş etmiş birinin sevinci mənim sevincimdir.

05.09.2007

* * *

Gəlişinlə ümidlər yaratdın. Qəlbimi böyük arzular, şahanə duyğular məkanına çevirdin. Məni arzularıma daha yaxın etdin. Həyatdan istəklərimə gedən yolun düzgünlüyünə ümidləndirdin, ruhlandırdın məni…İndi isə səsini eşitmək belə ümidlərimin sınmasına kifayət edir. Aramızdakı körpülərin yandığını, bağların çoxdan qırıldığını bilirəm. Artıq buna alışmışam da. Bir zəngin bütün hisslərimi alt-üst etməyi bacarır. Unutmağa çalışan bu ürək, səni yenidən arzulayır. İmkansız olduğunu bilərək, ümidlərimi canlandırıram. Yenidən sənin heç nə olmamış kimi davranmağın öldürür məni. Onsuz da yaşamımdakı mövcudluğun mümkün deyil. Elə isə qarşıma çıxıb özünü xatırlatma!!! İzin ver, qəlbimdəki “sən” adlı sevgimlə, yaşamımı sənsizliklə davam etdirim.

25.12.2007

* * *

Birlikdəyik. Zaman necə uçur, hiss etmirik. Sadəcə birliyin ləzzətini və bərabərliyin sevincini yaşamaqdayıq. Heç danışmırıq da. Danışan gözlərdir. Burda sözə ehtiyac var ki? Sevgi ürəkdədir, gözlərsə qəlbin aynasıdır. İndi göz-gözə, üz-üzə oturub, həyatı unutmuşuq. Mənimçün tək sən, səninçün mən varam. Yanımda ikən heç nədən qorxum yoxdur. Həyatda tək qorxduğum şey səni itirməkdir. Hər şey çox gözəl başlayıb. Amma hər gözəl şey bir gün də bitir… Bəlkə hər şeyi burada qoyaq? Xoşbəxt xatirələr acı həqiqətə çevrilməmiş tərk edək sevgimizi?..

30.01.2007

* * *

Sevirəm səni. Sən sevə bildiyindən daha çox sevirəm. Sevgimdən ayrılmağa mənim gücüm yetməzdi. Amma sən bunu etdin. Çox sadəliklə hər şeyi silib, heç nə olmamış kimi davrana bildin. Hər zaman səninləyəm, hər zaman səninəm, deyirdin. Bəs indi hardasan? Sənsiz əzab çəkdiyimi bilib də nədən mənimlə deyilsən? Demək ki, sevgin söylədiyin qədər də böyük deyilmiş. Məndən ayrılmaq qədər acizdin sevgin qarşısında? Sən unutduğun sevgi hələ də qəlbimdədir. Mən onu sən olmasan belə yaşada bilərəm. Yetər ki, sən xəyanətkar simanı, yalanla dolu boş ümidlərini bu ürəkdən uzaq tut!

30.10.2007

* * *

Salam, mənim hər zaman axtardığım, tapanda isə itirdiyim böyük eşqim. Mən yenə də gəlmişəm, burdayam. Həmişəki kimi səninləyəm. Sevginə hər zamanki kimi yenə də ehtiyacım var. Sən də mənim sevgimi duyub yenidən keçmişlərçün darıxsan, yaşananları unudub da hər şeyi yenidən başlamaq istəsən, sadəcə çağır. Bircə sözün yetər ki, dönüm o sevginə. Həmişə olduğu kimi mən yenə də səninəm. Yenə də bu ürək səninçün döyünür. Bu gözlər yalnız səni görür. Olmadığın müddətdə heç unutmağa da çalışmadım səni. Xəyalına belə xəyanət etmədim. Sənsizlikdə belə səni düşünüb yaşadım. Sənə olan sevgim hər zaman həyatda var olmağa mənə güc verir.

08.01.2008

* * *

Tənhalıq hayqıran qaranlıq gecə… Sayrışan ulduzlar, açıq səma… bir də mən. Oturub sahildən uzaqlara baxıram. Hardasa oralarda baxışlarını axtarıram. İndi burda səni istəyirəm. Səni arzulayıram. Bilsən nə qədər ehtiyacım var sənə. Bax, o ulduzlu göylərin dənizlə qovuşduğu uzaqlıqda axtarıram səni, sənin sevgini. Axı ucsuz-bucaqsız səmadan, sonsuzluqdan başlanır bizim sevgimiz. Mənim sevgim dünyada hər şeydən böyükdür. Sənsizlikdə də səninçün vuran ürəyimdə, dünyalara bələd o, sevgin daim yaşayacaq…

10.01.2008

* * *

Nə gözəl bir gün, nə gözəl səhər… Nə xoşbəxt bir insan. Bu gözəlliyi, sabahın o təmiz qoxusunu bizə bəxş edən Allahım, şükür Sənə, Sənin böyüklüyünə ki, qismət etmisən bu həyatı. Çox acılar göstərən, sınaqlardan keçirən, həyatım, sevirəm səni. Nakam sevgi, vəfasız ürək… Necə simalar gördüm həyatda. Büdrədim. Yıxıldım da, amma küsmədim. Sevirəm axı onu. Həyata sevgidir ki, məni yaşadır. Hər zaman əlimdən tutur… Yaşatdığı acılarla bitmir ki, həyat. Canım qədər əziz insanlar, çox dəyərli dostlar bəxş edib həyat. İnsanlara məhəbbəti öyrədib mənə. Bu həyatı sevməyə ürək verib mənə Tanrı. Nə qədər ki Allahın izni var, bütün qəlbimlə sevəcəm həyatı!

11.01.2008

* * *

Dörd hərfli, çox balaca və möcüzəli bir parça. Duyduğumuz acını, sevinci özünə çəkən – ürək. Bəzən ağlımıza, bəzən hisslərimizə hökm edən ürək. "Gözlər qəlbin aynasıdır" deyiblər. Bəs gözləri daim gülən birinin ürəyində nələr yaşanır, bilən varmı? Nə dərd, nə böyük yük daşıyır gözləri gülən o qəlbin sahibi, kim bilir… Heç kim bilməsə də, tək Allah yaxşı bilir qəlbimizdəkini. Hərənin ürəyinə görə üzünü güldürən də Odur. Qəlblərə sevinc bəxş edən, sevgini paylayan da Odur.

Nə yaxşı ki, biz sevə də bilirik. Sevmək yaşamaq deməkdir. Nə yaxşı ki, Allah sevgini duymağa bizə ürək verib. Ən kiçik qəlb belə böyük və şahanə sevgilər məkanıdır. Nə xoşbəxtdir o insan ki, qəlbi tutan qədər sevir. Bütün qəlbini sevgiyə ayır ki, kinə, nifrətə yer olmasın!!!

21.01.2008

* * *

Təmiz duyğular yaşatdığımız ülvi məhəbbət… Sözlərdən, yalan vədlərdən uzaq, qəlbimizə möhürlənmiş eşq… Sadə bir baxışdan başlayıb ürəkdə kök salan sevda. Yadındamı? Söylə, yadındamı?.. Xəyanətdən uzaq sevgimiz. Nə qədər sevinc, səadət bəxş etmişdi bu bərabərlik bizə. Necə xoşbəxt etmişdi məni varlığın. Nə qədər xoşbəxt idik hər ikimiz. Etibarsızmışsan, həyatın özü kimi. Min bir bəhanələr uydurub, yalanlar düşünüb məhv etdin eşqimi. Bütün hisslərimi, duyğularımı öldürdün. İndi qarşımda dikilib bağışlanmaq diləyirsən. Puç etdiyin ümidləri yenidən yaşatmağa, ölmüş hissləri oyatmağa çalışırsan. Amma anlaman lazımdır ki, duyduğum o böyük sevgimlə birlikdə səni də dəfn etmişəm qəlbimdə.

19.01.2008

* * *

Səndən uzaqlarda yeni həyat… Yeni insanlar… hətta yeni bir nömrə. Sənsiz açılan daha bir səhər. Yeni günün başlanğıcı… Yeni görüşlər, tanışlıqlar, fərqli simalar… Amma həmin baxışlar… Mənim baxışlarım. Yenə hər insanda sənin siman, sənin gözlərin… Nə qədər uzaqda olsam belə, həmişə mənimləsən. Burada, lap yaxınımda. Ürəyimin düz ortasında... Unutmaq cəhdi. Yalandır!.. Necə unutmaq olar səni? Ruhuma çökmüş, qanıma hopmuş bir varlıqsan ki, yaşadırsan məni. Burda olmasan da, həyatda mövcudluğun məni yaşadır. Sadəcə varlığınla məni xoşbəxt etməyi bacarırsan.

20.01.2008

* * *

Səni sevmək üçün bütöv qəlbimi ayırmışdım. İstəyim, sadəcə qəlbində mənə yer ayırmağın idi. Sən bunu da çox gördün mənə. Demək ki, heç bir dəyərim yoxmuş sənin-çün, mən sənə həyatımı verməyə hazır olduğum halda. Heyif… çox heyif. Sevgimə layiq olmayan vəfasız üçün axıtdığım göz yaşlarıma heyif… Həsrətinlə qovrulduğum o günlərdə bircə sözün məni qaytarardı sənə. Bircə çağırış, bir kəlmə söz ayırırdı bizi. Amma olmadı. Ən gərəkli vaxtda atdın məni. Arxaya baxmadan getdin… Məni gözü yaşlı qoyub, sevən qəlbimi, təmiz hisslərimi tapdadın. Heç düşünmə ki, qayıdıb gəldiyin andan yenə əvvəlki tək qəlbimin sahibi olacaqsan. Adın möhürlənmiş qəlbimi göz yaşımla o qədər yudum ki, nəinki sən, artıq sənə olan sevgi də yaşamır.

01.02.2008

* * *

İçində olduğumuz dünyanı, yaşadığımız həyatı, insanları görmək üçün yaranmışıq hamımız. Allahın yaratmış olduğu heç nə pis ola bilməz. Sadəcə hər şeyi gözəl görmək üçün gözəl gözlərə sahib olmaq lazımdır. Gecələrin yaraşığı Ay, parlaq ulduzlar, sabahların sultanı Günəşi görmək, baharda çiçək, payızda yarpaq xəzəli gözəlliyini duyarkən, bu, sadəcə Tanrının yaratdığıdır, demə. Bu, gözəllikdir... Allah hamıya görmək üçün göz, duymaq üçün ürək verib. Hər şeyin gözəl tərəfini duymaq üçün sadəcə sevmək lazımdır. Bütün qəlblə sevmək. Sevəndə qızılgül tikanlarıyla belə gözəl görünür. İnsan hər yerdə gözəllik aramış olsa mütləq tapar. Qəlb sevər və insan da sevilər.

25.01.2008

* * *

Çox-çox uzaqlarda, uzunmüddətli ayrılığa baxmayaraq, niyə unuda bilmirəm səni? Niyə hələ də burdasan? Ürəyimin tam ortasında. Sevilməli nə çox adam… Amma bacarmıram. Nədən? Niyə gözlərim kordur? Niyə qəlbim bağlıdır? Günahı kimdədir çarəsizliyimin? Səndəmi? Məndəmi? Səni dəlicəsinə sevən qəlbimdəmi, yoxsa məni sənsiz qoyan həyatdamı? Qisməti sənsizlik olan həyatımın tək sultanı sənsən. Qəlbimin tək hakimi, bütün həyatımın sevgisisən sən. Tək günahım səni sevmək olubsa da, mən bu günahı yenidən edib, böyük günahkar olmağa hazıram. Bütün varlığımla sevirəm səni.

24.12.2007

* * *

*Rəfiqəmə*

Səninlə tanışlığım mənə nələr bəxş edib, bir bilsən. Dost arzusu ilə daim alışıb-yanan ürəyim nəhayət, öz həmdəmini tapıb. Yağış damlası, çiçək ləçəyi, insan ürəyi bir-birinə nə qədər vacibdirsə, mənə də əsl dostluğun gücünü hiss etmək elə vacibdir. Soyuqda donan, istidə əriyən hisslərimə sənin varlığın çox lazımdır. Hər zaman üz tutacağım ürəyin qapılarının mənimçün açıq olması vacibdir. Nə yaxşı ki, sən varsan. Nə yaxşı ki, Tanrı yollarımızı kəsişdirib. Mənə bacı – ürək dostu, sirdaş verdiyi üçün Allaha həmişə minnətdar olmuşam. İndi isə digər bacımı dost kimi sənin simanda tapdığımçün həyatda yaşamağımın böyük mənası olduğunu bir daha anlamış oldum, sadəcə varlığınçün sağ ol…

19.02.2007

* * *

Qaranlıq şəhər. Yenə sənsizlik. Tək başına baxıram yağışa. Baxıram göylərə. Sanki, o da təkliyimdən xəbərdardır. Ürəyim kimi o da ağlayır. Mənim göz yaşlarımla ağlayır. Sənsizlikdə ağlamaqdan gözümdə yaş qalmayıb ki. Gücüm də yetmir, artıq. Hayqırmaq istəyirəm. Göz yaşlarımda islanmış şəhərə sənsizliyimdən danışmaq istəyirəm. Amma bacarmıram. Sənsiz keçən ömrümdə hətta sənsizliyi belə sevmişəm. Səni xatırladan hər şeyi sevmişəm. Yoxluğunun verdiyi işgəncəyə baxmayaraq, sənsizlik də mənə aiddir. Onu da sənin qədər sevirəm və kimsələrlə paylaşmıram.

18.12.2007

* * *

Sevgim mane olursa, heç bir dəyərim yoxsa da səninçün, get... Böyük qəlbimdən, sonsuz sevgimdən, ikimizi də xoşbəxt edəcək sevdadan daha böyük şeylər axtarışındasansa, durma... Verdiyin qərar səni peşman etməyəcəksə, get. Amma peşman olub da geri gəlmə. Gözü yaşlı, sevgisi qəlbindən qoparılmış biçarə halda qoyub getdiyin bu andan itirirsən məni. Həyatımın ən böyük eşqisən, sevgimsən. Amma mən bu eşqi məcburən sənə sevdirməyəcəm. Olmasan da, sevməyə davam edəcəm. Mən səni sənsizlikdə belə sevə bilərəm.

14.02.2008

* * *

O qədər yaxınsan ki, mənə nəfəsini hiss edirəm. Varlığını hiss edirəm… Yanımdasan… Səni hiss edirəm. Duyuram… Həyəcanını da, qorxunu, sevincini də, qəlbinin atışını da duyuram. Qəlbinin hər atışı o qədər tanışdır ki mənə… Elə yaxınsan ki, sanki vücudumu titrədən, ürəyimi əsdirən damarım sənsən. Bir addım qabağa dur, toxunum sənə. Nə qədər həsrətindəyəm bu toxunuşun… Nə qədər həsrətindəyəm sevginin… Çox darıxmışam şahanə sevgimin ünvanı olan qəlbinçün. Bir addımlığımda ikən əlim çatmayan sevginçün. Bütün qəlbimlə sevirəm səni, sevirəm səni, mənə sevdirən o təmiz sevgini…

14.02.2008

* * *

Yaşadığım həyatı nağıl sanırdım. Sonu həmişə yaxşı bitən nağıl. Elə bilirdim ki, sən də bu nağılın qəhrəmanısan. Amma sən nağıl deyilsən. Yaşadıqlarım isə reallıq... Mənim üçün bu böyük dünyanı nağıla bənzədən sənsən. Mən bu həyatı sən varsan deyə sevmişəm. Sən mənimçün hər şeysən. Sevgimsən. Duyduğum sevincsən... Ola bilər, mən duyduğumu sən hələ dərk etmirsən. Yəqin hiss etmirsən ki, sən olmayanda, mən də yoxam. Yalnız səninlə mövcudam.

Varlığımı təsdiq edən sevgim sənsən. Arzularımın, xəyallarımın, bütün qəlbimin sahibisən... Həyat nağılımın baş qəhrəmanısan sən.

22.02.2008

* * *

Ehh… Sənin nə vecinə… Gecələri rahat yatırsan. Sabahları qayğısız oyanırsan. Nə biləsən arxada qoyduğun zavallı necədir? Bir vaxtlar "sevgilim" deyə çağırdığın haralardadır… nə edir? Bilmirsən. Heç özünü yorma da bundan sonra. İtirə-itirə yaşadığım həyatda yəqin sənsizliyi də yaşaya bilərəm. Həyatın özü qədər vəfasızmışsan. Amma bu vəfasız həyatımın tək gerçək hissi, ən böyük sevgisi sən olmuşdun. Unutdun yaşananları… Unutdun məni, sevgimizi. Məni ölmüş bildin, yox saydın… Amma mən ölməmişəm. Həyatdayam… Burda… O böyük sevgim, sən dəfn etdiyin hisslərdir məni yaşadan. Sevgim elə böyükdür ki, nifrət edə bilmirəm sənə. Yaşatdıqlarına baxmayaraq, elə bil əvvəlkindən də çox sevirəm səni. Yanımda deyilsən, amma bil ki, hələ də həyatda varlığını duyub yaşayıram.

23.02.2008

* * *

İnsan həyatdan sevgi umur. Hər zaman sevgi axtarışında yaşayır ömrünü. Sevgisini bəxş etdiklərindən qarşılıq gözləyir. Bu, belə də olmalıdır. İnsan xoşbəxtliyi onun duymuş olduğu sevgisidir. Birdən olmasa? İstədiyin sevgi yaşanmasa?.. Bu həyatdır… Burda baş verənlər heç də həmişə biz istədiyimiz kimi olmur. Onda nə etməli? Tənhalığı duyub da "ölsəm xoşbəxt olaram" – demək? Həyatdan ala bilmədiyin sevgini ölümdə axtarmaq? Nə bilirsən, bəlkə ölüm də o acı sevgisini qıymadı sənə?! Biz o ixtiyar sahibi deyilik ki, hər duyduğumuz acıda, hər tənhalıqda vidalaşaq həyatla. Həyatda varlığımızı idarə edən O tək Allahdır. Həm də heç vaxt tənhalıq düşünmə. Yaradanımız hər an bizlərlədir. Hamı unutmuş olsa belə, O, bizləri unutmur. Daim Ona inanıb, Ona sığınaq ki, əsl xoşbəxtliyi duyub, müqəddəs sevgini yaşaya bilək.

08.12.2007

* * *

Bu da həyatın bir oyunu. Oyunçuları sən və mən olan oyunun sonu. Rol aldığımız oyunu elə sevdim ki, sandım reallıqdır yaşadıqlarım. Unutmuşam ki, bu həyatın özü böyük bir oyundur. Hər gözəl bir şeyin sonu olduğu kimi, bu da bizim oyunumuzun sonu. Burda qalib olmasa da, mən özümü uduzmuş hesab etmirəm. Bu oyun mənə sevilməyin şirinliyini aşkarladı. İndi mən də həyatı sevməyi öyrənmişəm. Həyatdakı hər şeyi bütün qəlbimlə sevirəm. Və həyatın növbəti oyununda məğlub olsam belə, "bu da mənim qismətim" deyib oyunçu olmağa hazıram.

09.12.2007

* * *

Ötüb-keçənləri xatırlayıb, məni düşünüb də ürək sıxıntısından bezəndə ağlına gələn ilk fikir məni geri qaytarmaq olsa, düşündüklərinin heç bir mənası olmadığını da fikirləş. Çünki səni sevən "ürək" artıq yaşamır. Sən onu gözüyaşlı qoyub getdiyin gün itirmisən. Böyük sevgisinə baxmayaraq, o da səni ürəyində dəfn edib artıq. İndi qarşımda diz çöküb ağlasan belə, üzünə də baxmaram. Gözündən axan hər damla ürəyimi yandırsa da, qollarım səni arzulasa da, bağışlamaram. Mənim göz yaşlarıma məhəl qoymadan üz çevirməyin hələ də yadımdan çıxmayıb. Düzdür, yadımdan çıxmayıb, amma sən də ürəyimdən çıxmamısan. Mən də ürəyimin sevgisinə məhəl qoymadan səni siləcəm həyatımdan.

13.12.2007

* * *

Səni şahanə arzularımın, böyük sevgimin hədəfi seçmişdim. Dünyada sadə bir insan ikən, mənim dünyamın fərqli sakini idin. Sən isə… Sənə olan fərqli münasibəti görmədin, həqiqi hissləri anlamadın… Gözündə hər kəslə eyni görünməyim çox pis yaraladı məni. Hisslərimlə oynadın, məni başqası sanıb yoxmuşam kimi davrandın… Məhv etdin məni! Amma məhv etdiyin bu ürək sənə arzu və ümidlərin əlçatmaz zirvəsini arzulayır… Həyatda ən xoşbəxt insan ol!!! Məni yaraladığın kimi yaralanma heç vaxt!

16.03.2008

* * *

İndi dönüb getsən də bil, qayıtmaqçun sənin bu ürəkdə həmişə yerin var. Nəinki ürəyimi, gedişinlə beynimi də, bütün varlığımı da aparmış olursan. Mən hər zaman səni düşüncəmdə yaşadıb ürəyimin ən dəyərli sakini kimi bəsləyəcəm. İllərdən sonra belə, qəlbimin ən böyük sevgisi sən olacaqsan. Hər zaman da ürəyimin istəyi sən qalacaqsan.

17.12.2007

* * *

Həyat bizə nələr yaşadır? Nə imtahanlardan, sınaqlardan keçirir… Hər sınağına da dözmüşəm həyatın. Sevgindən uzaq bir həyat, sənsizlik… Məcburən də olsa dözə bilərəm, görəsən? Yəqin… Yəqin ki, yalanlarından bezmiş qəlbim dözəcək. Yalanlardan təmizlənmiş, xəyanətdən uzaq bir sevgi bəlkə də hardasa məni gözləyir. Sənsizliklə həyat bitmir ki… Mən də bitməmişəm. Yaşayıram. Sevirəm… Özülü sevgiylə qoyulmuş qəlbim, sənsizliklə belə sevir. Demək ki, yanılmısan. Sənsiz də bu dünya dönə bilir. Həyat da bitmir. Səndən başqasını da sevə bilmirəm. Sevgindən daha böyük sevgiylə sevirəm… Yalanlarınla məhv etdiyin qəlbim, yalandan uzaq sevgiylə yaşayır, döyünür, artıq.

03.02.2008

* * *

Artıq tərk edirəm səni. Sevə-sevə tərk edirəm... Bu hisslər elə böyük, sevgimiz elə gözlənilməz başladı ki, zamansız bitəcəyini də bilirdim. Mən hiss edirdim, hiss edirdim ki, gəldiyi kimi də gedəcək... Həmişə səni şirin bir yuxu sanmışam və hər zaman da oyanmaqdan çox qorxmuşam. Amma oyanmalıyam... Gözü yaşlı, qəlbi qırıq, əli boş... Ürək dolusu sevilmədik bu sevgidə. Erkən bitdi. Tam xoşbəxtlik tapmışkən ayrılmalıyıq. Kimdədir günahı ayrılığın? Bizi gec qovuşdurub tez də ayıran zamanda, yoxsa bizim elə özümüzdə? Məndə, ya səndə? Heç kimdə... Xoşbəxtliyin bir addımında sevgimizi donduran reallıqdır. Gözünün içinə əvvəlcədən düz baxmam gərəkən, acı reallıq... Bağışla, sevgilim, bağışla. Bağışla ki, sevgimlə səni xoşbəxt edə bilmədim. Mən səni, zamansa məni yarı yolda qoydu...

05.02.2008

* * *

Baxıram gözlərinə, tuturam əllərindən. Bilsən nə qədər ağırdır ayrılmaq. Necə çətindir sevərək tərk etmək səni… Çox çətin olsa da getməliyəm. Sil gözündən axan yaşları. Ağlama. İnan, niyyətim səni qırmaq deyil. Mən də səni sevirəm. Özü də çox. Amma məcburam. Səni sevdiyimçün getməliyəm.

Bu qəlb səni ilk gündəkindən də çox sevir. Göz yaşlarım buna sübutdur. Amma yaralıdır qəlbim. Çox ağrayır. Həm də ağlayır ayrılığa. Həyatın məni məhrum etdiyi sevgidən səni də məhrum etməyə haqqım yoxdu. Həyata bir sap qədər bağlılığı olan qəlbim sənə nə verə bilər ki? Mənsizlikdə, yalnız xoşbəxt ol. Səni duya bilən, bir də heç vaxt ağlatmayan sevgi arzulayıram sənə… Artıq vaxtdır. Burax əlimi… Həyatın bu oyunu mənimçün bitir artıq. Gedirəm, amma məyus deyiləm. Çünki itirməmişəm. Həyatım qədər əziz və sevimli, sevgimə layiq səni tapmışdım…

08.02.2008

* * *

*Bacıma*

Bir çox çətinlik, sınaqlar, məyusluq, bəzən də əziyyət göstərib həyat mənə. Amma heç nəyə baxmayaraq, həyatımı sevirəm. İllər keçdikcə həyat mənə qorxuları dəf etməyi də öyrədib. Artıq heç nədən qorxmuram. Ölümdən belə...

Tək qorxduğum şey tərk edəcəyim həyatda səni mənsiz qoymaqdır. Səni həyatımdan da çox sevirəm. Sənin də məni sevdiyini bilirəm. Sənə acı yaşatmamaqçün bundan sonra yüz il acı çəkərək yaşamağa da hazıram.

12.02.2008

* * *

Qarşıma keçib artıq gedirəm, tərk edirəm deməyə haqqın yoxdu. Səbəbsiz-filansız hər şeyi atıb istədiyin yerə gedə bilməzsən. Məni burada tənha qoymağa ixtiyarın yoxdu… Həyatıma gözlənilmədən girən, məni özünə öyrəşdirən, sevginə inandıran sən idin. Mən ki heç vaxt səni axtarmamışdım. Həyatıma daxil oldun, məni də dəyişdirdin. Sevməyi öyrətdin. Yaranmış sevgini qorumağı öyrətdin mənə. İndi gedirsən? Heç nə olmamış kimi tərk edə bilməzsən məni.

Heç vaxt olmayan qədər inam yaratmışdın. İnanırdım sənə. Sözlərini eşidib inanmışdım sənə. Haqqın yoxdu! Gedə bilməzsən! Ürəyim səndə ikən mümkün deyil.

24.02.2008

* * *

Ömrüm boyu axtardığım sevgim, tapanda səni inandım ki, sənin də axtardığın sevgi mənəm. Buna sən inandırdın, sevgin inandırdı məni. Sevərkən sevilməyin necə gözəl olduğunu sən yaşatdın mənə. Mən, sadəcə bizi qovuşduran bu sevgini sevdim. Səni sevdim. Səninçün, sevgimizçün hər şeyə hazırdım, yetər ki, bərabər olaq. Həyatım, qəlbim, sevdiklərim arasında ən çox dəyər verdiyimdin sən. Gəlişinlə həyatımı işıqlandırmışdın. İndi isə qaranlıqdayam. Sənsizlikdə tənha qalmışam. Demək ki, sənsizlik də varmış qismətimdə. Qara torpaq nə qədər dərində gizlətsə də, səni unutmağım mümkün deyil. Həyatda heç nə əbədi olmur. Amma mənim sevgim həmişə var. Ölənə kimi. Hətta ondan sonra da səninçün yaşayacaq.

05.12.2007

* * *

Bir gün mənsiz olunca yağışa baxıb da tənhalıqda sıxılsan, əllərini göyə aç. Ovcuna qonan hər damla qədər yaxınam sənə. Məni düşünməyin yetər ki, varlığımı duyasan. Səni dəli kimi sevən qəlbim, hələ də “sən” deyə döyünür. Sevgimi xatırlayıb keçmişlərçün darıxsan da üzülmə. Mən varam. Varlığıyla həmişə sənə dəstək olacaq mən. Həyatımın hər dönəmində var olan birinin bircə sözü, bircə çağırışı yetər ki, yanında olum. Dünyanın hansı tərəfində olursan ol, sevgisi uğrunda hər şeyə hazır olan bu ürəyin hər zaman sənin varlığınla yaşadığını da bil.

03.12.2007

* * *

Yaşadıqlarımızın sənin üçün əhəmiyyətsiz olduğunu söylə. Həyatında heç vaxt dəyərli olmadığımı söylə. Nədir? Niyə susmusan? Elə dayanma!.. Qaldır başını, gözlərimə bax! Məni heç vaxt sevmədiyini söylə. İndi də verdiyin qərarın xəyanətlə heç bir əlaqəsi olmadığını söylə. De ki, bu, sadəcə əyləncə idi ki, yaşadıq.

Deyə bilmirsən?.. Axı sən də bilirsən ki, hara getsən, yenə dönəcəksən. Sevgin üçün dönəcəksən. Onda qarşımda diz çökmüş olsan belə, bağışlamaram. Sevgimin böyüklüyünə baxmayaraq, hətta sən sınmış qürurumu bərpa edə bilməzsən. İndi getsən də, illərdən sonra belə səni sevəcəyimi bilirsən. Onu da yaxşı bilirsən ki, məndən çox sevənin olmayacaq.

25.11.2007

* * *

Bilirsən niyə ağlayıram? Göz yaşım düşən yerdə sevgimdən doğan çiçəklər açır. Mən də ağlayıram ki, sevgi çiçəyimiz solmasın. Bəs niyə gülürəm, bilirsən? Çünki sənin xoşuna gəlirdi.

İllər keçməsinə baxmayaraq, hələ də həyatımda ən əziz adam sənsən. Çiçəklərsə sevgimizin sübutu və xatirəmdir mənim. Budur həyatımın iki böyük hissi, sənin puç etdiyin sevgi üzərində birləşir. Sənin unutduğun bu sevgi hələ də ürəyimdədir. Bu, mənim həyat tərzimdir. Ağlayanda da, güləndə də qarşımdasan. Yanımda olmasan da hər zaman hamıdan yaxınsan mənə. Duyğularım, hisslərimsən...

23.11.2007

* * *

*Anama*

Gözümü yumanda da, açanda da xəyalını görürəm. Məni yaşadan da sənin xəyalındır. Səndən sonra təkcə sevgini, təkcə səni düşünərək yaşadım. Kaş ki, getməsəydin. Məni insanlarla dolu həyatda tək qoymasaydın. Kaş ki, indi də çağıranda "can" deyənim, ağlayanda göz yaşımı silənim, yanımda olaydın. Elə darıxıram ki, səninçün. Elə lazımsan mənə. Möhtacam sənə, sənin sevginə. Tək gərəyim sənsən. Sənin səsin, nəfəsindir. İsti qucağının, yumşaq əllərinin, mehriban simanın həsrətindəyəm. Necə yaşayacam mən sənsiz?.. Hər həsrətin şirin bir vüsal sevinci var. Mənim həsrətimsə böyükdür. Həm çox böyük, həm də vüsalı görünməyən qədər uzaqdır...

21.11.2007

* * *

*Anama*

Bilsən həyatıma necə gərəksən? Mənə necə lazımsan. Elə çox istəyirəm ki, səni. Yaşaya bilmirəm sənsiz. Ehtiyacım var sənə. Sən olmayandan heç nə gözümdə deyil. Elə bil heç kim də məni başa düşmür. Başa düşməyənlərə necə anladaram dərdimi? Dərdi bilinməyənin dərmanı yoxdu, axı. Qəlbimdə bu dərdlə, bu acı ilə yaşamaq çətindir. Sənsiz yaşamaq çətindir. Sənsizlikdə bilsən, nələr gördüm. Sənsiz həyatın acısına necə dözüm?

Məni sənsiz görüb də necə sərt olub həyat, bir bilsən… Bir bilsən, necə darıxıram sənsiz. Həmişəkindən daha çox lazımsan mənə. Həsrətinlə necə yaşayacam…

20.11.2007

* * *

Qaranlıq gecə, ulduzlu göylər, bir də sakit dəniz… Necə də uzaqlara aparır insanı bu sakitlik. Sanki içimə çöküb bu sükut. Elə bil gecənin sakitliyi mənim dilimdən söhbət edir. Daxilimdəki qaranlıq, içimə çökmüş sükut sənsizlikdən xəbər verir. Sakit gecənin qoynunda, dənizin sahilində dayanıb əksini sularda tapmış ulduzları seyr etdikcə, tənhalığın mənə nə qədər yaxın olduğunu anlayıram. Darıxıram sənsizlikdə. Sahilə çırpılan hər bir ləpənin səsi xatirəni bir az da yaxın edir mənə. Sanki yanımdaymışsan kimi duyuram səni. Həsrətinlə yanan qollarım boşluğu sən bilib bağrına basır. Bu boşluq qəlbimi ağrıdır. Necə də çətindir bu ağrı ilə yaşamaq. Amma mən yaşayıram… Sənsizlikdə belə səni ürəyimə möhürləyib yaşayıram.

19.11.2007

* * *

Düşünürdüm ki, səndən uzaqlarda, adın çəkilməyən, siman görünməyən yerdə səni unutmaq da asan olar. Xatirəmdən silməkçün səsini eşitməmək kifayətdir. Amma yox. Aramızdakı məsafələrə, səni unutmaq istəyimə baxmayaraq, hələ də burdasan. Bizi ayıran illərə, getdiyimiz fərqli yollara baxmayaraq, hələ də qəlbimdəsən. Adın çəkilən yerdə, gözümün önündə, yalnızlığımda isə həmişə yanımdasan. Səni sevmək mənə, əslində, həyatın nə qədər dəyərli olduğunu öyrətdi. Səni sevmək, uzaqlarda belə səni duymaq üçün həyatdakı varlığımın vacibliyini anladım.

29.10.2007

* * *

Həyatda hər şey insanın istədiyi kimi olmur. Bunu bilirəm. Amma barışa bilmirəm sənsizliklə. Sadəcə sənsizlik çox ağırdı, öyrəşə bilmirəm… Sən yoxsan, dünya da dönmür sanki. Həyatımın mənası yoxdu. Kaş ki, səni heç tanımasaydım. Həyatımın ən böyük sevgisi olmusan ki, elə sevgin qədər böyük həyatı ürəkdən sevməyi öyrətmisən mənə. Həyatı sevirəm. Sənsiz həyatı… Amma yox kimiyəm. Unutma… Unutma ki, sənsizlikdə mən də yoxam.

26.02.2008

* * *

Həyatda olduğum müddətdə ürəyim, yalnız sevgi ilə döyünür. Hər zaman insanlarla münasibət qurmağı, yeni tanışlıqları sevmişəm. Mən qəlbimə saldığım insana bütün sevgimi verməyə, ona bütün varlığımı bəxş etməyə öyrəşmişəm. Fərq etməz, ümumiyyətlə, hər kəsi bütün qəlbimlə sevməyə alışmışam və bunun da qarşılığını gözləyirəm. Həyatda həmişə xoşbəxtlik axtarışındayam. Xoşbəxtliyim isə sevgidir. Məni yaşadan sevgi. Allahım həmişə mənə qarşı mərhəmətli olub. Həyatda sevmək, sevilmək nə olduğunu bilmişəm. Amma bəzən insan nədənsə sevgini anlamır. Qiymətləndirmir. Bütün qəlblə sevəni ciddi qəbul etmir. Elə bil sevgidən daha böyük şey axtarışındadır. Gəlin, hamımız həyatın qədrini bilək. Əldə etdiklərimizi, sevgimizi vaxtında qiymətləndirək.

16.12.2007

* * *

Səni düşünərək açdığım daha bir səhər. Qəlbimi yandıran bir səhər... Baxıram ətrafa... Bir daha anlayıram ki, yoxsan. Sənsizlikdə daim səni düşünmək elə ağırdır ki. Var olduğunu bilib sadəcə arzulamaq bir toxunuşun, bir baxışın həsrəti ilə yaşamaq çox çətindir. Amma inan, bu çətinlik yormur məni. Sadəcə həyatda olduğunu bilmək yetərlidir. Qoy olsun. Mənimlə deyilsən. Amma hər zaman sevin, gül... xoşbəxt ol. Xoşbəxt ol ki, səndən uzaqlarda xoşbəxtliyini duyub mən də xoşbəxt olum. İnan, bəxtəvər olmaq üçün bu kifayət edər.

05.03.2008

* * *

Yenə bu mahnı… Səni xatırladan, qəlbimi yandıran, hisslərimi oyadan mahnı… Hər sətiri ilə sənsizlik odunda yandıran mahnı… Bunu sən öyrətmişdin mənə. Sən demişdin ki, "məni mahnılarda sev". Yəqin bilirdin… Bilirdin ki, bir gün məni sənsiz qoyacaqsan. Ona görə də sənsizlikdə belə bu mahnıyla səni xatırlamağımı istəyirdin. Amma unutmusan ki, təkcə mahnılarda deyil, hər nəfəs alışımda gözüm önündəsən sən.

09.03.2008

* * *

Çağırıram hay vermirsən. Boylanıram görünmürsən… Həyatdasan, amma niyə burda deyilsən? Məni varlığına elə öyrəşdirmisən ki, sənsiz necə yaşayacağımı bilmirəm. Sevgini duymaq, gözlərinə baxmaq elə vacibdir ki… Elə ehtiyacım var ki sənə. Məndən hər zaman bir addım arxadasan, həmişə dayaqsan, dəstəksən mənə, sanmışdım… Sən demə yanılmışam… Güvənilən dağlara da qar yağarmış!..

Bitməz sandığım, güvəndiyim, tutunduğum sən də, məni yaşadan sevgin də yalan imiş…

11.03.2008

* * *

Yaşananlar hamısı oyun idi? Bitmiş bir nağıl, oxunmuş bir kitab idim səninçün? Bilirəm, günah mənimdir… elə əvvəldən sadəcə bir oyun oynadığımızı bilirdim. Mənimçün önəmli olduğun qədər sənə vacib olmadığımı da bilirdim. Sənin kimi sadəcə oyunumu oynamalıydım. Amma nə biləydim ki, səni bu qədər sevəcəm. Çoxdan bitmiş oyunu tərk etdin. Unutdun məni. Amma mən… Mən unuda bilmirəm. Hər kəlmədə, hər baxışda sən varsan. Yanımda olmasan da, həmişə qəlbimdəsən.

23.03.2008

* * *

Nə qədər sevildiyini bilmək istəsən, baxdığın o dənizin sonunu axtar. Bir də gecə göylərə bax və ulduzları say. Səni də o ulduzlar arasından seçmişəm. Minlərlə parlaq ulduz arasından tək parlayan günəşi sevmişəm. O günəş ki, hərarəti ilə məni hər zaman isidir. O günəş sənsən. Sən. Həyatıma günəş kimi doğulan sən. Məni xoşbəxt edəcək qədər sevgisini xərcləyən sən. Nəticədə, burda, mənimlə olmasan da mənim sevgim bitməyib. O günəşin hərarətini hələ də duyuram. Hələ də qəlbimdəsən. Bu gün də hər gün olduğu kimi varlığını duyub oyanmışam sabaha. Bu, həmişə belə olacaq. Həyatımın günəşi həmişə sən qalacaqsan. Bütün varlığımı zəbt edən sevgim, mənim də qəlbimin əbədi hakimi sənsən, sən qalacaqsan.

06.12.2007

* * *

*Anama*

Mənə gərək olan dünyanı, həyatımı, böyük sevgimi, ən yaxın dostumu səndə tapmışdım. Hər çətinlikdə mənimlə qala bilən, hər zaman əlimdən tutanım idin. Harayıma yetən, sevincimi paylaşan, göz yaşımı silən əlim idin. Hər zaman yanımda olacağını sandığım dayağım idin... Bəs indi hardasan? Hər zamankından daha çox lazım olduğun bir vaxtda haralardasan? Tale ən pis vaxtda ayırdı bizi. Bir gənc qızın ən yaxın dosta, etibarlı əllərə, arxa-dayağına, anasına ehtiyacı olduğu anda ayrıldı yollarımız. İllər gör necə sürətlə ötüb-keçir. Amma hələ də varlığını duyuram. Həyatımda və ürəyimdə qoyub getdiyin boşluğu kimsələr doldura bilməz. Elə ehtiyacım var ki, sənə. Sənin sevginə. Darıxıram sənsiz. Səsini, sözünü eşitməyib darıxıram. Telinə toxunub, əlini tutmaq üçün darıxıram. Qoynunda uzanıb, çiynində ağlamaqçün darıxıram. Qoxunu alıb, sevginlə yaşayıb, xoşbəxt olmaq istərdim. Ən çox ehtiyacım varkən can dostumu – anamı yanımda istərdim. Həyatın bu acı imtahanına hazır olmasam da, barışmalıyam sənsizliklə.

23.10.2007

* * *

Qarşımda dayanıb, "həyatımın sevgisini tapmışam" deyirsənsə, demək ki, qərarın çox ciddidir. Elə isə get... Heç fikirləşmə ki, səni bu qərardan çəkindirəcəm.

Bir vaxtlar ən böyük sevgin mən idim. Bütün həyatımı, sevgimi bütövlükdə sənə vermişdim. Sənin sözlərinə inanıb həyatımı məhv etdim. Həqiqətən sevirsən, sandım. Yoxsa bu qədər özümü aldatmağa yol verməzdim. Gec də olsa, artıq hər şeyi anlamışam. Əslində, axtarışında olduğun gözəl hisslər, dərin məhəbbət heç xoşbəxtlik də deyil. Xoşbəxtlik insanlarla sevincini bölüşməkdisə, sən, yalnız bu sevinci almağı bacarırsan. Eqoist olaraq təkcə özünü düşünürsən. Dediklərinin yalan olduğunu bilə-bilə, başqası üçün təkrarlanmaqdan, and içməkdən belə çəkinmirsən. Sən sevən ürəkləri sındırmağa alışmış, ən təmiz hisslərlə oynayan birisən. Get, artıq... Bu dəfə verdiyin qərarda yanılmazsan, inşaallah. Amma unutma, çıxacağın bu qapıdan üzr istəmək üçün heç vaxt qayıtma! Daha burda səni sevən ürək yoxdur.

27.11.2007

* * *

Yenə gecə, zülmətlə dolu otağım. Və yalnızlıqda darıxan, hələ də səninçün vuran ürəyim. Sənsizliyin adı həm də tənhalıq imiş... Mənim həmişə qorxduğum tənhalıq. Sanırdım ki, qaranlıq otaqda tək qalmaqdır tənhalıq… Amma sən mənə bu işıqlı dünyada, insanla dolu həyatda yaşatdın tənhalığı. Nə qədər əzablıdır, sənsizlik. Bu gecə hər gecədən fərqli istək var qəlbimdə. Hər zamankından daha çox yerin görünür. Göydən göz yaşı tək süzülən bu yağışa baxıram. Eh, bilsən nə qədər darıxıram səninçün. Qaranlıq otağımın pəncərəsindən sonsuz uzaqlara dikilmiş gözlərim səni axtarır. Tək ümidim, bu an sənin də pəncərə önündə dikilib, məni xatırlamağındır. Axı bir zaman yağan yağışı ayrılıqda izləmiş olsaq, bir-birimizi düşünərik – deyə söz vermişdik. Bərabər olmasaq da, düşüncələrimiz hardasa oralarda, göylərdə toqquşacaq – demişdik. Uzaqlarda baxışını hiss edirəm və həyatıma nə qədər vacib olduğunu anlayıram. Səni hələ də hamıdan çox sevirəm. Ürəyimin ilk və tək eşqi olaraq yaşadacam səni qəlbimdə, sonsuzadək... Ölənəcən...

20.12.2007

* * *

Səni nədən sevdim? Heç özüm də bilmirəm. Deyək ki, tanıdığım ən gözəl insan oldun. Həyatda duymadığım hissləri yaşatdın mənə. Bəs indi? İndi niyə sevirəm səni? Qurduğum xəyalları, ümidlərimi almısan. Ürəyimi almısan məndən. İnsanın həyatda ən böyük istəyi nədir ki? Sevgi deyil, məgər? Bəs sənin istəyin nə idi? Səndən sevgimi heç vaxt əsirgəmədim. Kiçicik ürəyimdə səninçün dünya boyda sevgi ayırdım. Məni necə aldada bildin? Dilin yalan danışmağı, ürəyin unutmağı necə bacardı? Bunu sən bacardın. Aldatdın da, unutdun da. Bəs mən niyə bacarmıram? Bəs mən niyə unuda bilmirəm səni? Sevgimə görə çəkdiyim acı yetməzmi? Bəs deyilmi sənsizlik? Amma olanlara baxmayaraq, hələ də ilk dəfəki kimi ən əziz adamsan həyatımda. Gecələr gizlincə axıtdığım göz yaşlarım sənin uğrunda olsa da, səni daha da doğmalaşdırıb mənə. Yəqin budur səni unutdurmayan. Unutmağı bacarmayan ürəyimin sənə həmişə ehtiyacı var. Məni ağladan, gözümü yolda qoyanım, hələ də sevən qəlbimin ən böyük istəyi, ən böyük sevgisi sənsən.

07.12.2007

* * *

Təsadüfən yaranmış, mənimçün gözlənilməz olan bu münasibətin səninçün nə məna kəsb etdiyini hələ də anlamıram. Amma mən özümü, öz ürəyimi tanıyıram. Bax, bu ürək öz sevgisinə xəyanət etməyi bacarmır. Səni lap əvvəldən dostum olaraq sevmişəm. Ürəyim həmişə böyük sevgilər ünvanı olub, amma dostluq mənimçün bundan daha üstündür. Əlində olanın dəyərini itirdikdən sonra anlayan insanlarıq hamımız. Amma mən dostluğumuzu yüksək qiymətləndirirəm. Səninçün də qiymətli olmasını istərdim. Hər kiçik bir səbəblə məni həyatından silmə. Mənə olmasa da, sevgimə heyfin gəlsin. İndi diqqətlə fikirləş. Bu hisslərin sənə lazım olub-olmamasını son dəfə düşün. Bir qərar ver. Verdiyin qərar sevgimi azaltmaz, əsla! Bu qərarın səni qəlbimdən silməz də. Amma münasibətimizin davam və ya tamam olmasını həll edər. Sözlərimi ciddiyə al və yaxşı düşün…

14.12.2007

* * *

Gecənin qaranlığını duyuram. Həyatımın sənsizliyinə ağlayıram. Haralardasan? Niyə burda yoxsan? Yalnızlıqdan doymuşam artıq. Hər zaman səni düşünmək məhv edir məni. Axı hardasan?.. Bilirsən ki, yalnızlığımın tək dərmanı sənsən… Yaralı qəlbin böyük sevgisi də sənsən… Bütün varlığımla səni sevməyi öyrətdin mənə, sənsizliklə yaşamağı öyrətmədin, axı... Ay insafsız, bəs mən necə yaşayım?..

18.05.2008

* * *

Mən, sadəcə, inandım sənə. Sadəcə, sevginə sığınıb inandım… Səni hər kəsdən fərqli sandım. Sən… Amma sən hər kəslə bərabər tutdun məni?.. Ahh, unutmuşam… Axı sən həmin o sənsən… Hamıya eyni gözlə baxan, yalnız özünü düşünən, min simalı yalançı. Hissiyyatsız, duyğusuz...

Nəfsinlə çirkab etdiyin hisslərim də, qəlbim də əyilməz!.. Qəlbim o qədər böyük, hisslərim elə təmiz ki, hər nəfsinə hökm edə bilməyən məni oynada bilməz. Unutma, sevməyi bacardığı kimi, qəlbim bu sevgini qorumağı da bacarır! Qəlbim sevgisini qoruduğu kimi də namusum hisslərimi qoruyur.

17.02.2008

* * *

Elə pis vurdun, yaraladın ki məni... Açdığın yara hələ də sızlayır. Sənin heç vecinə deyil, hə?! Əlbəttə... Mən özüm heç vaxt sənin vecinə deyildim, yoxsa bir "əlvida" ilə unutmazdın ki məni. Unutdun?.. O zaman unutma ki, ilk gündəki qədər dəyərlisən mənimçün.

Çox şey istəmirdim ki... Sadəcə, mənə yaxın olmağını istədim. Sənsə ən lazımlı vaxtda tərk etdin. Mənim üçün dəyərli olduğun halda heçə saydın məni? Birgə qurduğumuz xəyal dünyamızı yıxdın... Məhv etdin məni.

27.03.2008

* * *

Axtardığım hər şeyi səndə tapdım. Həyatımı işıqlandırdın, ömrümə sevinc qatdın. Nə qədər xoşbəxt idik, necə sevirdik… Nədən oldu bəs bu ayrılıq? Necə yaşayacam mən sənsiz? Sən varsan deyə sevdiyim bu həyatı istəmirəm artıq. Gözəl gözlərini görmək eşqi oyadırdı məni sabaha, indi nəyimə lazım sabahlar? Ürəyimə necə anladım sənsizliyimi? Necə əl çəkim bu sevgidən, necə unudum səni?..

08.06.2008

* * *

*Özümə*

Artıq məni sıxan o dörd divar yoxdu. Azadlıq havasını doyunca çəkirəm ciyərlərimə. İllərdir cəmiyyətdən uzaq "mənzil" həyatı məni nə çox şeydən ayrı tutubmuş? İndi sərbəstəm. Qəfəsdən ayrılmış quş kimi qanad açmışam sanki. Qaçmaq artıq bir xəyal deyil. Qaçıram da, gəzirəm də. Doğrudan, Bakı çox gözəldir. Elə bil mən görməyəli ayrı bir yaraşıq gəlmiş şəhərə. Əlbəttə, heç mən də həmin o mən deyiləm. Bakını gözəlləşdirən o illər məni də dəyişdirib. Hər şeydən kənar, bu qaynar şəhər həyatından uzaq yaşam mənə həyatı daha çox sevməyi öyrətdi. Nə olursa olsun, ondan ikiəlli yapışmağı öyrətdi.

02.05.2008

* * *

Qaranlıq gecə. Gecənin sükutunu pozan dəniz. Ləpələrin sahilə dəydiyi yerdə mənim izlərim. Qaçıram... Tənhalıqdan qaçıram. Dörd divarın sənsizliyindən, yalnızlığımdan qaçıram... Gözüm görməyən uzaqlara, qumlu sahildən sonsuzluğa qaçıram. Çox tələsirəm... İtirdiyim sevincimi axtarıram. Ağlamaqdan bezib də, təkliyimə səni axtarıram.

17.05.2008

* * *

Yenə gecə düşür, hava qaralır, hər yerdə yalnızlıq duyulur. Sakitlik… Gecənin sükutu, bir də qaranlıq otağımın pəncərəsi və pəncərəmi döyən yağış… Kaş ki, yalnızlığımı yuya biləydi bu yağış. İçimə axıb, siləydi səni qəlbimdən. Məni tənhalığa məhkum edən bu sevgini kaş ki, yuya biləydi… Qaranlığa dikilmiş gözlərim səni axtarır. Sevən qəlbim səni gözləyir. Gəl… Qurtar məni tənhalıqdan…

17.05.2008

* * *

Budur, günəş artıq üfüqdədir. Üfüqün günəşlə görüşdüyü yerdə, mavi göylərin rəngarəngliyi istilik bəxş edən günəşin torpaqla vidası… Təbiətin bu mehribanlığını duyuram. Günəşin istisini mən də hiss edirəm. Günəş batır… Hava qaralır… Bəs mən?.. Hər kəs kimi gözəlliyini duydurub o da getdi. Yenə yalnızlığıma həmdəm qaranlıq gecədə tək başıma. Artıq soyuqdur. Kaş ki, burda olaydın… Ürəyinin istisiylə, qollarının sevgisiylə isidərdin məni. Möhtacam sevginə. Ehtiyacım var sənə, sevgilim…

17.05.2008

* * *

Yoxluğunda da ən dəyərlim sən idin. Çünki ruhumla həmişə duyurdum səni. Varlığında da ən çox sevdiyim sən oldun. Çünki ruhumla bağlandım sənə. Mən səni həmişə özümdən çox sevmişəm. İndi də… Ummadığım qədər sevgi bəxş edən qəlbini sevmişəm. Qarşılığında verə bildiyim o saf eşqi də aparıram artıq... Gedirəm. Amma çox xoşbəxt gedirəm. O təmiz qəlbinin sevgi bəxş edən istisini duyuram hələ də… Amma həyatın bu üzü çox amansız imiş… Ömür yetmir ki, əllərini bir də sıxım. Ölümlü dünyamın ölümsüz eşqi həmişə səninçün yaşayacaq.

07.05.2008

* * *

Bundan sonra 100 il də yaşasam, sənin qədər heç kimi sevməyəcəyimi bilirdin. Ömür boyu axtardığım xoşbəxtliyimin də səndə olduğunu bilirdin. Sevgimizçün hər şeydən keçərdim. Amma sən bunu istəmədin. Həyat boyu səni sevəcək, bu sevgi uğrunda ölə biləcək birini tapmışkən, üz çevirdin. Tərk etməklə əldə etdiyin nə oldu ki? Deyək ki, hər şeyin bir sonu var. Bu da həyatın gözəl oyunu. Və oyunumuzun sonu. Hər halda içində xoşbəxtlik tapdığım sevgidə uduzmuş deyiləm. Mən bu sevgiyə bütün qəlbimi vermişdim. Peşman da deyiləm. Çünki burda “sevgiyə layiq olmayana sevgi xərcləməmək” dərsi aldım.

Bizim sevgidə uduzmuş olduğunu anlayıb da peşmançılıq hissi ilə qarşıma keçmə… Hələ də “sən” deyə döyünən qəlbim sənə pislik arzulamasa da, özün qazanmış olduğun pisliklə həyatını sevgisiz yaşa. Yaşaya bilsən də, bilməsən də… Artıq mən yoxam.

02.02.2008

* * *

Budur, səndən uzaq həyat… Bəlkə səni xatırladan o sənsiz dünyamdan uzaqda unudaram səni. Yaşaya bilərəm sənsiz?.. Mümkünmü? Sənsizliyə alışmaq… Nəfəs almadan yaşamaq… Axı sən mənim aldığım nəfəsimsən. Həyatımsan… Nə qədər uzaqda olsam da həyatım elə sən olacaqsan. Burda olmasan da, həyatıma rəng qatmağı bacarırsan. Adicə səni düşünmək, səndən uzaqda belə üzümü güldürür. Xoşbəxt olmağımçün xatirən yetərlidir.

09.04.2008

* * *

*Özümə*

Budur azadlıq. Sərbəstlik… Ucsuz-bucaqsız dəniz, qaranlıq göylər… Aylı gecənin sükutu… Bu sənsizlikdə çırpınan ürəyim. Səni düşünən beynim və bir də sənsizliyimə ağlayan göylər. O yağış… Hər zaman məni anlayan yağış... mənim gözlərimlə ağlayan narın yağış… Sevgisi azad olan ürəyim sevinclidi. Sərbəstdir… Başım üstə uca göylər, ayağım altda bərəkətli torpaq, qulağımda dənizin şırıltısı… Gedirəm… Yolu görünməyən sonsuzluğa gedirəm. Hardasa o sonsuzluqda ürəyimin sevgisini tapmaqçün gedirəm… Arzuma qovuşmaqçün, sənə yetişməkçün gedirəm…

11.04.2008

* * *

Adi günlərin birində qarşılaşdım səninlə. Və anladım ki, sevmək üçün məhz bu anı gözləmişəm. Daim sevgi ümmanı olan qəlbimin əsl sevgisini gözləmişəm mən. Səni gözləmişəm… Ömür boyu axtardığım xoşbəxtliyimin açarı səndə imiş. Ülvi eşqimin hədəfi sənin qəlbinmiş. Nə xoşdur ki, arzularımın təzahürü indi qarşımdadır. Nə yaxşı ki, məhz mənim arzumsan… və indi də burdasan. Artıq xoşbəxtəm. Həyatımın eşqi, ömrümün sevgisi, nə çox axtarmışam səni… Nə uzun yol gəldim sənə çatmaqçün. Necə yaşamışam bu vaxtacan sənsiz?..

Amma bilirdim… Bilirdim ki, qismətimdə varsan. Sən də hardasa gözləyirsən məni. Böyük həsrətdən sonra qovuşduq ki, daha heç nə istəmirəm. Ayrılıq olmasın, yetər!

18.04.2008

* * *

*Rəfiqəmə*

Sən bu həyatda ən dəyərli tapıntımsan mənim. Tanrının bütün gözəlliklərinə layiq ruhu gözəl bir insansan. Xoşbəxtliyə də hamıdan çox layiqsən. Məncə sən Allahın insana bəxş etdiyi bütün zənginliyi daşıyırsan özündə. Böyük ürək sahibisən ki, məni də ora qəbul etməklə bir qəlbdən gələ biləcək maksimum hərarəti hiss etdirdin mənə. Təşəkkürlər… Yəqin sən, həyatda itirdiklərimin əvəzisən ki, qəlbimi sevindirirsən. Bacım qədər sevdiyim dostuma varlığı üçün sonsuz minnətdarlıq…

09.06.2008

* * *

Nə vaxt unudacam səni? Qəlbimdə açdığın yara nə vaxt qapanacaq? Görəsən nə vaxt xoşbəxtliyi artıq səndə aramayacam? Görəsən nə vaxt?.. Axı mən də həqiqi xoşbəxtliyi yaşamaq istəyirəm... Bilirəm, nə qədər ki, söküb atmamışam səni qəlbimdən, bu, mümkün deyil. Amma bacarmıram... Sənsiz necə yaşayacağımı bilmirəm. Həyatımın sənsizliyilə barışmışam. Yəqin xoşbəxtliyim sənlə birgə, ömürlük tərk edib məni. Olsun... Sənsiz sənli düşüncələrlə yaşamağa alışmışam artıq.

18.04.2008

* * *

Getdiyin gündən qəlbimin istəyi yalnız sən olmusan. Hələ də ilk günlərdə olduğu kimi sevimlisən. Hələ də ən dəyərli, ən qiymətli sənsən… O gündən hələ elə bir dəqiqəm olmayıb ki, səni düşünmədən keçsin. Acılı-şirinli günlərimdə hər zaman burda idin. Qəlbimin tam ortasında. Beynimin düz içində...

Düşünürəm də tərk edildikdən sonra hiss etdiklərim sevgidir, yoxsa özümü sevgiyə inandırıram?

19.04.2009

* * *

Xoşbəxtlik ani bir hissdir. İnsanı tutduğu kimi də buraxır. Mən də insanam, həm də xoşbəxt bir insan. Allahım məndən heç nəyi əsirgəməyib, çox şükür. Amma həyatda axtardığıma hələ də çatmamışam. O böyük sevgini hələ tapmamışam. Sadəcə eşqimə cavab verəcək təmiz qəlb axtarıram. Bütün qəlbimlə sevə biləcəyim birini, sevilməyə layiq olan birini axtarıram. Və inanıram ki, o da hardasa məni gözləyir.

19.04.2008

* * *

Böyük bir istək var qəlbimdə. Sonsuz bir dua… Gerçəkləşməsi uzaq olan bir arzum da var ki, həmişə ümidi yaxın görünür. O arzu sənsən. Reallıqdan ulduzlar qədər uzaq və soyuq, xəyalı qəlbimi yandıracaq qədər isti olan sən. Mənə hər zaman hər kəsdən yaxın olan sən. Getdiyin gündən bəri, yalnız qəlbimdə yaşayan sən. Qəlbimin istəyi, həyatımın sevgisi, hardasan?.. Məni niyə tək qoymusan? Sənsizliklə bacarmıram. Varlığımın bir mənası yox ki sənsiz... Cismim olsa da, ruhum yaşamır. Üzüm gülsə də, qəlbim ağlayır. Yaşamım sənə bağlıdır. Dön artıq…

05.05.2008

* * *

Bilsən necə həsrətlə gözləyirəm yolunu? Nə böyük ümid var içimdə… Qoyma. Qoyma ki, sönsün ümid işığım. O işığı necə səbirlə gözləyirəm, bir bilsən… Səbir edirəm. Amma bil ki, qəlbimdə səbirdən başqa hisslər də var. Ən böyüyü də sənə aiddir. Sevgim… Bilirsən, nəinki hisslərimin, bütün qəlbimin sahibisən sən…

06.05.2008

* * *

Sevgi elə böyük hissdir ki... Qəlbdə daşına biləcək ən böyük hiss. Qəlb inlərkən sevdiyinçün gülə bilmək qədər böyük bir hiss... Sevgi iki qəlbin bir bədəndə vurmasıdır. Onsuzluqda belə onunla ola bilməkdir, hər an qəlbinlə onu duymaqdır sevgi. Mən də hər zaman səni duymuşam. Tənhalığımda həmişə sən vardın. Doğrudan da, bu kiçicik qəlbdə dünya boyda yer ayrıldı səninçün. Sən mənim dünyamsan, həyatımsan. Mənə aid olan hər şeysən.

06.05.2008

* * *

Bəsdir daha… Sevmə!.. Hisslərini sənə qarşılıq verən biri ilə paylaş… mənə qarşı olan böyük istək, o saf eşqin qarşısında acizəm. Amma yalançı deyiləm… Böyük qəlbinin sevgisi məni sevindirir. Hər zaman saf eşqə, təmiz qəlbə böyük dəyər vermişəm. Qiymətləndirirəm o insanı ki, qəlbində bu cür saflıq daşıyır. Səni də qiymətləndirirəm. Amma sevmirəm. Sevə bilmirəm. Könlün xoş olsun deyə, yalandan "sevirəm" də deməərəm. Təmiz qəlbin, saf eşqini tapdamağa ən azından haqqım yoxdu.

19.05.2008

* * *

Yaşadıqlarımız günahdı... Ən böyük günah da məndədir. Lap əvvəldən səndən uzaq qaçmalıydım. Sevmədiyimi bilə-bilə sənə ümid verməməliydim. Hisslərinin saflığından, bu münasibətin daha sıx bağlılıq yaradacağını bilirdim, axı... Sevilmək gözəldir. Hələ insanın sənin kimi safqəlbli birisi tərəfindən sevilməyi lap gözəldir. Amma mən bu sevgiyə layiq deyiləm... Nə qədər çalışsam da, sevə bilmədim səni. Ən böyük uğurları insan səbir edərək əldə edir. Sən də sevgini daha məndə arama. Layiqli insanı tapınca səbir et... Və sevgidə böyük uğurların sahibi ol.

20.05.2008

* * *

Nə qədər zalım, nə qədər qəddar görünsəm də bunu sənə deməliyəm. Əvvəldən bilirdin ki, hisslərinə qarşılıq verməyə bilərəm. Amma razılaşdın. Sevginə güvəndin. Qəlbində ikimizə də yetəcək qədər sevgi olduğunu deyirdin. Görürsən ki, alınmır... Tək tərəfli sevgi yetərli olmur, artıq bacarmıram... Gözəl olsa da, nağıl həyatından bezdim. Yetər bu yalançı sevgili rolu! Böyük sevginlə bərabər, özünə real bir həyat qur.

20.05.2008

* * *

Gecənin sərin mehi əsdikcə içim rahatlayır. Rüzgara qarşı durub da narın yağışı hiss etmək yaşamdır. Artıq neçə zamandır ki, bu qədər sərbəst deyildim. Sanki ömrüm “qızıl qəfəs”də keçmiş. Ah, nə qədər həsrətindəydim dənizin… Burda durub torpağı hiss etmək, təmiz havanı duymaq… “Qızıl qəfəs"də keçirdiyim ömrümə heyif. Zaman geri gəlmir, amma… Azadlığım ki indi mənimlədir… Düz dənizin torpağa sarıldığı yerdə mən varam. Vücudumu isladıb qəlbimə axan yağış, sakit dəniz və bir də ucsuz-bucaqsız göylər…

22.05.2008

* * *

Hisslərinlə oynadım, bilirəm. Növbəti dəfə üzdüm, qırdım səni. Bağışla sevgilim, istəmədən qırdığım qəlbini yenidən düzəltməyə icazə ver. Səndən uzaqda yaşaya bilmirəm. Həmişəki kimi böyüklüyünü göstər. Bağışla... Bilirəm, sən mənim kimi qəddar deyilsən. Əslində, mən də qəddar deyiləm. Sevgim məni dəyişdirib. Unut olanları... Yenidən başlayaq. Qəlbim ilk günlərdə olduğu kimi sevginlə doludur. Son bir şans daha...

26.05.2008

* * *

Bilsən, necə xoşbəxtəm… Həmişəki kimi sadəcə gözlərinə baxmaq sevinc bəxş edir mənə, hər səni görəndə həyatıma vacibliyini bir daha anlamış oluram. Səni çox sevirəm. Səninçün daim mübarizə apardığım həyat qalib gəldi. Axır ki, ayırdı bizi. Ölüm bahasına olsa da ayırdı… Arxamca ağlama, sevgilim… Harda olmağımdan asılı olmayaraq, göz yaşların məni rahat qoymaz. Hər iki dünyanın sakini olmaq hamının qismətidir. Amma unutma ki, hər iki dünyaya yetəcək qədər sevgi yaşayır qəlbimdə səninçün. Qəlbim yaşasa da, yaşamasa da...

03.06.2008

* * *

Küləkli, yağışlı, qaranlıq bir gecə. Təbiətin şıltaqlığı və dənizin coşqusu. Qaynayan ləpələr, hirsli dalğalar... Bir də göz yaşlarında boğulan qəlbim... Bilirsən, mənim də içimdə bu cür fırtınalar var. Mən həyatımı vəfasız sevgim üçün ağlamaqla keçirirəm. Burda, düz sahildə durub qaranlıq gecədə vahiməli dənizə baxdıqca nə qədər tənha olduğumu anladım. Məni bu tənhalığa məhkum edən sənsən. Öncələr həmişə bahar yaşayan qəlbimi qaranlığa bürüyən də sənsən. Sənin sevgin, o vəfasız sevgin məhv etdi məni.

03.06.2008

* * *

Aylı, sakit gecə… Dənizin sükut içində lal axını. Günəşin istisini hələ də özündə saxlayan mehriban torpaq… Məni qoynunda qonaq edən sahil və mənə toxunub qaçan ləpələr… Ulduzları seyr edirəm. Necə uzaqdılar, nə çoxdular onlar… Amma necə mehriban görünürlər. Ulduzlar qədər uzaq olan xəyalın yenə mənimlədir. Özün nədən yoxsan? Ehtiyacım var sənə. Burda təkbaşına qalınca, bunu bir daha anlamış oldum. Həmişə insanlarla əhatəliyəm, amma qəlbim təkdir. Ruhum tək qalıb sənsiz, sevgilim…

06.06.2008

* * *

Sənə dəyər verənlərin dəyərini bilmirsən. Həmişə özünü hamıdan üstün sanırsan. Elə bilirsən ki, incimək yalnız sənin haqqındır? Sadəcə bəzi insanlar, dəyərlərini incikliyə qurban vermir. Bu da onun qürursuz olmağı demək deyil. Həyatda qürurdan daha böyük bir hiss, sevgi var. Mən də həyatdakı dəyərlərimi bilirəm, onları qoruyuram da… Bəli, sənə də böyük dəyər vermişdim. İnsan olaraq qiymətləndirirdim səni. Münasibətimizi qorumaqçün hər şey edirəm, amma məni görməzdən gəlmə… Mənim də səbrimin bir həddi var. Çalış sevənlərinin dəyərlərini bil ki, sonra peşmançılıqla yaşamayasan.

07.06.2008

* * *

Yaşamaqçün doğulur bütün insanlar. Mənsə sevməkçün gəlmişəm həyata. Səni sevməkçün. Elə bil həyatım boyu səni gözləmişəm. Həyatımı dəyişən, qəlbimə dolan sevgimi gözləmişəm mən. Uğrunda yaşana biləcək, yolunda ölümlə üzləşiləcək eşqinə yetişməkçün keçdim bütün yolları. Səninçün doğuldum, varlığını duyub yaşayıram. Sevginçün də ölümə hazıram.

07.06.2008

* * *

Sənsiz olunca zaman keçmir elə bil. Qəlbimdə qoyduğun iz, səni unutdurmur. Həsrətin həmişə ağladır məni. Bütün həyatımı əhatə etmişdi sevgin. Bütün qəlbimi bəxş etdim sənə. Dəyərim, qiymətim nə oldu? Bəs günahım nə idi? Sevmək. Günahdırmı sənə qəlb bağışlamaq? Səni sevib ruhuna bağlanmaq... Həyata sevməkçün göz açdım... Sevgin həyatıma son qoysa belə, ən böyük günahım olsa belə, sevirəm səni.

13.06.2008

* * *

Həyat hamının istəyi olsa da, çox heyif ki, istəklərimizə uyğun qurulmur. Tək istəyim sən idin... Sənsiz də yaşanmır həyat. Həyatım qədər böyükdür sevgim. Sənsizlikdə hələ də varamsa, demək ki, məni həyata bağlayan sevgindir. Hər sabah məni yeniləşdirən o şahanə sevgin... Hələ də ən çox səni sevirəm.

13.06.2008

* * *

Yenə yalnız gecə… Yenə sənsizlik… Vallah, bezmişəm artıq təklikdən. Sənli dünyanın sənsizliyindən bezmişəm. Səni düşünərək ağlamaqdan bezmişəm. Artıq bacarmıram. Gücüm yoxdu. Dön gəl… Qayıt… Bəsdir… Verdiyin cəza sonuna çıxır sevdiyinin…

14.06.2008

* * *

Həyat səhnəsindəki rolum bitir artıq. Nə dərəcədə öhdəsindən gəldim rolumun, bilmirəm. Çox sınaqlarından, yalanlarından, qurma oyunlarından keçdim həyatın. Bütün acısıyla sevdim onu. Büdrəsəm də yıxılmağa qoymadı məni. Amma sən çökəltdin... Yalanınla sındırdın məni. Eşqimi gör nəyə dəyişdin... Haqq dünyasının qapısından sənə səslənirəm. Eşit məni... Həyatını yalana qurban vermə, saf sevgilərlə oynama. Mən olmasam da, sevil, xoşbəxt ol, sevgilim.

14.06.2008

* * *

Nə olar, icazə ver yanında olum. Yalnız belə xoşbəxt ola bilərəm. Yalnız səninlə könlüm sevinir. Məni qoyub uzaqlara getmə… tək sevincimi alma məndən… Yaşaya bilmərəm… Qəlbinin istisini duymasam, mənim də qəlbim durar. Sevirəm səni. Toxunuşunu, baxışını sevirəm. Sevgilim, sevgindən ayırma məni…

16.06.2008

* * *

Bu günümlə yaşayıb gələcəyi qura bilmirəm. Keçmişimdə qalıb nəzərlərim… Səni axtarıram dünənimdə… Xoşbəxtlik sevincini axtarıram. Sevgimdən böyük arzularımı istəyirəm. Səninlə olan diləklərimi… Sevgimi istəyirəm. Sevgimin hədəfi, səni arzulayıram arzularımın başına…

16.06.2008

* * *

Mən sənin hamıdan gizlədiyin eşqinəm. Heç kəsə danışmadığın romanam. Keçmişlərdən səninçün gələn xatirəyəm ki, yaşamında yerim fərqlidir… Yerini, məkanını dəyişmə… Unuda bilməzsən məni. Hara getsən də içində "mən" olan qəlbin həmişə səninlədir.

17.06.2008

* * *

Taleyimin qarma-qarışıqlığında tapmışam səni. İtirməkdən də çox qorxuram. Qurduğum qaranlıq həyatıma işıq saçdın, qurtardın məni tənhalıqdan. Böyük səylə daxil olub çıxartdın məni o qaranlıqdan. Yavaş-yavaş canımı alan qaranlıqdan... İndi anladım ki, təkcə sevginə bürüməmisən məni, həm də xilas etmisən. Qaranlıqdan uzaq sevgiylə dolu azad həyata xoş gəldik.

18.06.2008

* * *

Sən varsan deyə, həyatdan o qədər razıyam ki… Hər an güvənə bildiyim qüvvəsən. Sənin sadəcə düşünməyin məni xoşbəxt edir. Mənsə hər zaman xoşbəxtəm. Hər bir insanı həyata bağlayan nə isə olur. Yəqin sən də itirdiklərimin əvəzində Tanrının göndərdiyi dayağımsan mənim. Ən dəyərlimsən ki, hamı kimi mən də çox istəyirəm səni.

19.08.2008

* * *

Bu eşq sənin heç kimə demədiyin qəlb sözündür. Yalnız mənə danışdığın sirrini indi məndən də gizləyirsən? Həqiqətən məni unutmaq fikrindəsən? Bu, mümkün deyil axı… Hər dəfə qəlbin sızlayan zaman yanında olmasam da, qəlbində olacam. Çünki o sirrinlə birgə yerləşmişəm qəlbinin dərinliyinə.

22.06.2008

* * *

Sənin sevgi sahilindən ayrılan bir gəmiyəm. Sonsuz uzaqlara üz tutan gəmi... Yalnız bunu bil ki, harda olsam da, qəlbimin sevgisi sənindir. Həyatda hər şeydən dəyərli olan sevgim... Digər sahilə üz tutub ayrılsam da səndən, hər zaman qəlbim bu limanda, ruhumun yanında olacaq.

27.06.2008

* * *

Bilirəm, bu ömür mənə əbəs yerə verilməyib. Yaşamaq, yaratmaq və bacardığım qədər sağlam həyat sürməliyəm. Ancaq mən bu yaşamdan daha bir şey istəmişdim. Xoşbəxtlik. Bu axtarışda nə sınaqlardan keçirdi məni həyat... Yıxılanda ağlamamağı öyrətdi mənə. Sərt üzünü göstərib sonra güldürdü də... Həyatımın son pilləsini cıxıb arxaya baxıram. Nə qədər sevimli idi həyatım. Amma sən... Sən nə qədər acılar yaşatdın bu həyatda mənə? Həyat "silləsiylə" yıxa bilmədiyini, sən yalanlarınla yıxdın. Amma nə qədər sevirdim mən səni...

27.06.2008

* * *

Həyatın elə dönəmində, elə qarışıqlığında tanıdım ki səni, insanlara güvənimi itirmişdim artıq. Dostum oldun, yaxınıma gəldin, inamımı qaytardın. Gözlərində dünyaları tapdım. Özümü gördüm, sevgimi tapdım. Amma necə deyə bilərdim sevgimi sənə. Axı biz dostuq. Qorxdum... Qorxdum ki, itirərəm səni. Gözlərinə baxmasam, varlığını duymasam, yaşaya bilmərəm. Kaş ki, duyduğum hisslər qarşılıqlı olaydı... Məni bəxtəvər edən gözlərin mənə baxanda dodağın "sevirəm" deyərdi kaş... Nə qədər böyükdür sənə olan sevgim, amma itirmək qorxusu ondan güclü imiş. Hər görüşdə, hər söhbətdə nə qədər yaxınsan mənə. Həm də uzaq... Yanımda ikən həsrətindən ölürəm, sevgilim. Ürəyim sevir, açıb sevgimi söyləmək istəyirəm. Amma yox... Bacarmıram. Gizli sevgiyə dözərəm, amma onsuzluğa yox.

Bir sabah günəş yerinə qaranlıq doğdu. Dostum sevincli xəbərlə bölüşməyə gəlib. Dostum sevinirdi, mən də onunla. Amma heç də xoşbəxt görünmürdü. Evlənir, məni də toyuna çağırır. Həmin an dünyam başıma uçdu. Ağlamaq, qışqırmaq istədim, amma əvəzində "xoşbəxt ol" söylədi dilim. Axı, o, mənim can dostumdur. İllər keçir, amma mən hələ də gizli eşqimdən ayrıla bilmirəm. Hələ də onun gözlərində həmin hərarəti duyuram. Hələ də sevirəm ən yaxın dostumu. Olmaz... Can dostuma bu cür xəyanət edə bilmərəm.

Ən azından o qıza – sonradan qazandığım rəfiqəmə bunu etməyə haqqım yoxdu.

Günlərin birində iki rəfiqə söhbətləşirik. Çay dəstgahı üçün o, mətbəxə keçir, mənsə vaxtı öldürməkçün kitabı vərəqləyirəm. Birdən gözümə köhnə zamanların möhkəm dostluğundan danışan bir dəftər sataşır. Açıram, oxuyu-

ram... "Gözlərində arzularımı tapmışam, sənə baxıb sevməyi öyrənmişəm. Canım... Dostum... Sevgilim... Kaş ki, açа biləydim sənə ürəyimi... bir kəlmə "sevirəm" deyib ucaldaydın göylərə məni. İtirmək qorxusu sevgimdən üstün olmayaydı kaş..." Dəftəri bağladım, gözlərimi sildim... Daha heç vaxt o qızın gözünə dik baxa bilmədim...

29.06.2008

* * *

Səni gözləyirəm, böyük ümidlə və səbirlə. Bilirəm, nə vaxtsa dönəcəksən... Zaman... Zamandır hər şeyə dərman. Amma zaman sənsizlikdə məni yaşatmır. Artıq bacarmıram... Sənsiz olmur. Səbrim böyük ümidimə yetmir, artıq tələs... Qərarını verincə, sevdiyin artıq həyatda olmaya bilər. Dön artıq...

03.07.2008

* * *

Yenə də xəyalımın təzahürü, qarşımdasan. Sevirəm səni. Yanımda yoxkən, həsrətindən ölürəm, var ikən vicdanım əzab verir mənə. Onu bədbəxt edib, məni xoşbəxt edə bilməzsən. Düzdü, sadəcə səni görmək xoşbəxt edir məni, amma onun da xoşbəxtliyi sənsən. Ona görə də arxana baxmadan get… Bir daha da gəlmə… Həsrətində alışmağa öyrəşmişəm artıq. Həyatına gec gəlib, sevdiyimçün sənsiz qalmaq cəzam olsun mənim…

05.07.2008

* * *

Bir körpənin ana qucağına ehtiyacı olan qədər möhtacam sevginə. Yaşamam üçün lazım olan nəfəsim də sənə bağlıdır. Səni həyat qədər sevirəm. Tanrıdan sonra həyatda məni yaşadan sənsən. Məni yaşamından ayırıb yaşamıma son qoyma. Sən mənim həyatla yeganə bağımsan. Varlığınla mənim də varlığımı təsdiqləyirsən, sevgilim.

10.07.2008

* * *

Var ikən yoxluğunla öldürürsən məni. Hələ də ən dəyərlim, həyatımın ən böyük eşqi sənsən. Məndən uzaq yaşamdasan ki, yoxluğunla həyat da məni yaşatmır. Yanımda yoxsan… Yəqin, sadəcə, qismətim sən yox, xatirəndən yaranan göz yaşlarıdır. Ağlayıram… Sənsizliyimə hər gün ağlayıram. Amma səni yenə də sevirəm. Sadəcə varlığınla yaşayıram. Əgər az da olsa insafın qalıbsa, həyatı məndən əvvəl tərk etmə, sevgilim…

08.07.2008

* * *

*Anama*

Soyuq torpaq vücudunu nə qədər soyutsa da, mənim sevgimi soyuda bilmir. Səni daha çox sevirəm. Niyə tək qoydun məni? Sevgin mənimçün həyata sarılmağa yetmədi?.. Amma mən sənsiz qaldığım həyatda səni hamıdan çox sevirəm. Yaralara məlhəm olan zaman heç dayanmır… arxasına baxmadan gedir. Artıq beşinci baharımı yaşayıram sənsiz. Elə lazımsan ki, mənə… Darıxıram sənsiz. Dəyərini bilməmişəm… Sənsizlikdə ötən hər yalnız gün həyatıma vacibliyini anlayıram.

09.07.2008

* * *

İndi mən nə edəcəm? Necə yaşayacam sənsiz? Ən böyük ümidim, həyatımın eşqi idin… Hər şeydən uzaq… arzulardan, xəyallardan kənar, səndən uzaq həyat məni yaşatmaz, artıq. Varlığınla sevdiyim həyatda, yoxluğunda necə qalacam?.. Böyük bir eşqi duymadın. Puç etdin ümidlərimi. Xəyallarımı yıxdın… Hisslərimlə oynayıb həyatımı məhv etdin. Məni gözüyaşlı qoyub gedirsən… Bəs sən necə yaşayacaqsan? Hər isti münasibətdə mənim buz baxışlarımı, göz yaşlarımı duymayacaqsanmı?

Mən sevdiyimə, qəlbimi yaralamış olsa belə, yalnız xoşbəxtlik arzu edirəm. Amma bil ki, qəlbi viran qoymağın cəzası böyük olur.

10.07.2008

* * *

Bir gün yanında olmasam, ağlama… Müvəqqəti qonağı olduğumuz həyatın oyununu qəbul et. Mənim qismətimlə, öz taleyinlə sadəcə barış. Tanrının yazısını dəyişmək əlimizdə deyil, ağlayıb üsyan etmə, sevgilim… Həyatına günah qazanıb məni günah səbəbkarı etmə. Ağlama… Həyatda hər şeyin yaxşısını arzuladığın sevdiyinə orda da rahatlıq ver. Ağlama… Hər iki dünyaya yetərli sevgimizi yaşat…

10.07.2008

* * *

Bir gün mənsiz qaldığın tənha, qaranlıq otağında bir şam yandır. Ona diqqətlə bax. Əriyib məhv olacağını bilə-bilə sənin yalnızlığına yanır... Soyuq qəlbini isidir... Səni aydınlığa çıxarmaqçün öz həyatını qaraldır. Qarşında əriyən şam, əslində sənsizlikdə yanan qəlbimdi. Həyatını işıqlandırmaqçün özünü fəda edən şam, səni, dəyərini bilmədiyin qəlbim qədər sevir. Az sonra onun sevgisi bitir... Amma mən yaşayıram. Səni böyük sevgiylə sevən qəlbim də yaşayır. Sevgimin qədrini bilmədin... Ən saf hisslərimin seçilmiş hədəfi olmadın. Başımın tacı ikən, ayaq altına atdın sevgimi. Amma səni həyatından çox sevən başqa birini, həsrətinlə şam tək əritmə... Çünki bu cür yaşam ölümdən betər olur.

16.07.2008

* * *

Tənhalıqda, qaranlıq otağında yandırdığın şam, əslində, sənə olan sevgisindən əriyən mənəm. Pəncərəni də döyən yağış deyil, sənsizliyimə ağlayan göz yaşlarımdır. Həyatından uzaq tutursan məni, amma görürsən də mən otağında yanıram... pəncərəndə ağlayıram sənin. Sən qaranlıq otağında tək oturmusan. Amma tənha olmadığını unutma. Yalnızlığını ovudan hər şeydə hiss etməsən də mən varam, sevgilim.

17.07.2008

* * *

Həyatım boyu səhvlərdən qaçmışam. Həmişə insanları anlamağa çalışmışam. Bəlkə də ən böyük səhvim səni sevməyim olub ki, heç vaxt anlaya bilmədim bu hissləri. Dəyər vermədiyin sevgini niyə səninçün yaşatdığımı da anlamıram. Amma yenə də sevirəm. Bir tək sənə olan sevgimdə qəlbimə hökm edə bilmədim…

17.07.2008

* * *

*Atama*

Ömrün bu fəsli necə qəribədir… Qocaman ağacın altında, sarı xəzəlin üstündə oturub o yarpaqları izləmək necə də gözəldir. Hər an minlərlə yarpağın enişinə baxmaq, mənə sənsiz keçirdiyim hər anımın mənasızlığını anladır. O yarpağın torpağa qarışıb növbəti fəsildə yenidən burda olmaq ümidi var… Bəs həyatımın sənsizliyində mənim ümidim nədir?.. Darıxan qəlbimin sevgisi, sənsiz yaşadığım hər bir an daha da artır. Necə bir qəlbin var ki, yoxluğunda da duyuram səni.

22.07.2008

* * *

Sən həyatda duymadığım hissləri yaşatmısan mənə. Həyatıma girməklə qəlbimə sahib olmusan. Sevməyi öyrətmisən… Özünə, sevginə alışdırmısan məni… İndi "unut" deməyə haqqın yoxdu. Nəfəs almağı unudub yaşama necə davam etmək olar?.. Sənsizlikdə necə qalım?.. Həyatımı sevginə tabe etmisən, axı…

27.07.2008

* * *

Hər şeydən uzaq, qayğılardan kənar… arzuların bitdiyi, ümidlərimin yaşadığı xəyal dünyam… Azad həyatımın başlanğıcı… Sonsuz səma, ucsuz-bucaqsız dəniz… Burdan gözüm görməyən uzaqlara tələsirəm. Artıq hər şeyi unudub özümü tapmaq istəyirəm… Qaranlıqlar bitir… Hər sabah günəş doğur. Qəlbimi isidən, üzümü güldürən sabahlar da çox olacaq… Məni üzən bu həsrətin sonu artıq yaxındır. Səbr edirəm, hər şey çox yaxşı olmalıdır.

28.07.2008

* * *

Əslində, həyatı, sən varsan deyə sevdiyimi anladım. Sən keçdiyin yollardan keçməyi, varlığın duyulan hər yerdə olmağı sevirəm. Sən sevdiyin hər şeyi sevməyi sevirəm mən. Mənfilərinlə, müsbətlərinlə sevirəm səni. Səni, elə sən olduğun üçün sevirəm.

29.07.2008

* * *

Şamın ətrafında fırlanan o pərvanə öləcəyini bilə-bilə atəşə atır özünü. Onu ölümə aparan bu sevgi həyat sevgisindən böyükdür. Əslində anlayır ki, onun həyatı sevgisi uğrunda ölməkdir... Mən də bir gün həyatı tərk etmiş olsam, həyat eşqimin bitməsi demək deyil... Bu, sənə olan sevgimdən ölməyimdir.

30.07.2008

* * *

Küləkli, yağışlı gecə... Dəniz yenə hirslidir... Coşub-daşır... Qayalara çırpılan dalğalar üstümə sıçrayır. İslanmışam... Titrəyirəm... Mənə soyuqdur... Yoxluğundan çox vaxt keçir, artıq xatirən də isitmir məni. Başqa yerdə yad əlləri isidirsən sən...

Sahilə sadiq qalan dəniz kimi daima sevəcəm səni. Amma sən yeni eşq dalınca qaçdığın o yollarda öz sevgini də itirəcəksən. Sındırdığın qəlblərdən sevgi dilənəcəksən... Və onda sevgilər içində ən böyük sevgi sahibi olan qəlbimdən üstümə sıçrayan bu damlalar qədər də sevgi ala bilməyəcəksən...

03.08.2008

* * *

*Atama*

Daha bir qaranlıq gecənin sənsizliyi… Üstümə hücum edən tənhalıq… Ürəyimin böyük sevgisi… Darıxıram… Sənsizlikdə yaşadığım hər gün darıxıram. Amma bu gün həmişəkindən fərqli bir istək var qəlbimdə. Bu gecə daha çox ehtiyacım var sənə. Səsini eşitməliyəm, nəfəsini duymalıyam. Sənsizliyimə ağlayıram… Burda olub ovutmalısan məni… Hardasan?.. Niyə yoxsan?.. İllərdir əvəz edənin yoxdur, indi sənsizliyimi kim ovudacaq?.. Ölürəm… Sənsizlik dözülməzdir…

03.08.2008

* * *

Yağış yağan kimi xatirimdəsən. Hər damlada sevgimizi anıram. Mən səni heç unutmuram ki… Həyatda çox gəzmişəm, çox axtarmışam səni. Həmişə bu cür sevginin həsrətində idim. Nə yaxşı ki, qəlblər arasında səni tapıb səni sevmişəm. Həmişə arxanca gəzib kölgən olmuşam. Sevirəm səni… Qəlblər arasında ən böyük sevgi sahibi olan qəlbini mənə sevdirdiyin üçün sevirəm səni.

05.08.2008

* * *

Səni çox sevirəm. Dünyalara dəyən qəlbini mənə bəxş etdiyinçün sevirəm... Milyonlarla sevgi arasından məni dəyərləndirdiyinçün sevirəm səni. Sən də mənim dünyalara bədəl sevgimsən. Ən dəyərlimsən. Sən yalnız həyatımla müqayisə oluna bilərsən, yox, əgər sevgin həyatıma qarşı qoyulsa, sənsiz mənasız olan həyatdan inan, əl çəkərəm. Sən mənim yaşama səbəbim, sevgimsən.

05.08.2008

* * *

Tanrım, nə olar, bu sevinci, bu sevgini mənə çox görmə… Məni onsuz yaşatma… Mənə sevməyi öyrətsə də, sevgimi dəyərləndirməyən o vəfasızı sevgisiz qoyma. Ən bəxtəvər insan olsun ki, sevdiyimin sevincilə mən də xoşbəxt olum. Məni görməzdən gəlsə də onu çox sevirəm. Sevgim boyda dünyada, dünya boyda sevinc yaşat sevdiyimə, Allahım.

10.08.2008

* * *

Axtarma... Sənə aşiq olan o qəlbi heç axtarma. O, artıq yaşamır. Sən onu gözüyaşlı qoyub getdiyin gün itirmisən. Çox gec anlamısan dəyərini. Çox gec sorağına çıxmısan, çox gec. Səni sevə-sevə soyuq bir otaqda tək başına tərk etdi, sənə görə sevdiyi bu həyatı.

11.08.2008

* * *

Aradığın nömrəyə artıq uzun zamandır ki, zəng çatmır. Heç özünü yorma… Müvəqqəti deyil, sonsuza qədər bağlıdır bu nömrə… Arama… Bu nömrədə axtardığın tərk edib səni… özünü də… həyatı da…

11.08.2008

* * *

Artıq burda qərar tuta bilmirsənsə, ürəyin apardığı yerə get... arxana baxmadan get. Məndən nigaran qalma... Sadəcə varlığınla yaşaya bilərəm mən. Heç narahat da olma... Ağlayıb, sitəm etmərəm. Sənə o qədər böyük sevgim var ki, xoşbəxt olman mənə yetər. Xoşbəxtçiliyin mən olmasam belə...

11.08.2008

* * *

Yaşadığım hər yeni gün Tanrıma şükür edirəm... Sənli həyatda olduğumçün, səni sevdiyimçün. Nə yaxşı ki varsan... mənim sevgimsən... Səni sevib həyatımın sevincini tapmışam. Yalnız sən məni xoşbəxt edə bilərsən. Nəfəsim belə sevginə bağlıdır. Sevərək yaşam qazandırmısan mənə, sevgilim. Həyatımın ən dəyərlisi sənsən.

12.08.2008

* * *

Bir qəfəsdə yaşayıb hər şeyə uzaq olmaq bilirsən nədir?.. İnsanlardan kənar, həyatdan uzaq yaşamın bəs, nə olduğunu bilirsənmi? Bəs bilirsənmi ki, bacarıqlarının qum dənələri tək barmaqların arasından süzülməyi necə bir hissdir?.. Həyatı qıraqdan izləyənlərin də qəlbi olur... Qisməti "qızıl qəfəs" olanlar da sevə bilir və heç nəyə baxmayaraq, xoşbəxt olmağı bacarırlar. Mən də çox xoşbəxtəm və həyatı da çox sevirəm. Səni də sevirəm. Kənardan izlədiyim həyatı, sənin dəyərləndirmədiyin sevgim ilə yenə də sənə görə sevirəm.

13.08.2008

* * *

Ağacdan düşən yarpaq qurumağa, könüldən düşən insan unudulmağa məhkumdur. Amma sən... Ömrün payızı olsa belə qurumayacaqsan... Çünki quruyub düşəcəyin o torpaq mənim qəlbimdir. Həm də ömrün çiçəklənən vaxtı yeni bir bahar yaşatmısan qəlbimə mənim. Və unudulmayan sevgilərin ən şahanəsini sən özün təmiz qəlbinin saf eşqi ilə qazanmısan.

18.08.2008

* * *

Sevirəm kəlməsi bəzən yalan olsa da, sənin qəlbindəki hisslər mənə bəllidir. Sevgi üzərində qurulmuş həyatı hisslərə qurban etmə!.. Sevmək eyıb deyil. Sevməkdən qorxma, ya da etiraf etməkdən. Cəsarətli ol... Artıq ömür keçincə arxaya dönüb baxanda etdiklərinçün deyil, etmədiklərinçün peşman olacaqsan.

17.08.2008

* * *

Gözlər var sözləri anladır. Mənim gözlərim… Sevgimi sözlərlə bəzəmədim, baxışımla qəlbimə həkk etdim. Sözlər var ki, gözləri ağladır. Sənin sözlərin… Səni sevən qəlbimi incidən sözlərin. Böyük günahmış kimi məni hər gecə ağladan sevdan… Bir də qəlbimin dərinliyində çox incə və əziz bir hiss var ki, səni xatırladır. Göz yaşlarım sənin uğrunda olsa da, qəlbimin hər vurğusu da sənə aiddir. Sən qəlbimin içinin içindəki sevgimsən mənim.

19.08.2008

* * *

Nəfəsində mövcud olub, yanağından süzülən iki damla yaş olaydım sənin… Hər şeydən çox sevgimizi sevəydik, kaş… Həyatın hər acısında ümidim sən olaydın… Kaş ki, səninlə olub, sevginlə yaşayaydım… Sonumu da qollarında tapaydım, kaş…

19.08.2008

* * *

İndi, burda dayanıb həyatıma nəzər salıram. Sənə qarşı, yaxınlarıma, dostlarıma qarşı düzgün münasibətdə olmamışam. Həyatı anlamamışam. Qiymətləndirmədim sevənlərimi. Anlamadım dəyərini sevgimin. Həyatım boyu daha böyük hisslərin, daha böyük münasibətlərin, daha böyük nələrinsə axtarışında idim. İndi anladım ki, əslində həyat doğrudan da bizim istəklərimizə uyğun qurulmur. Həyat bizə yox, biz həyata uyğunlaşmalıyıq… Çox gecikmişəm… Bu qatara minmək, hər şeyi yenidən başlamaq gecdir artıq… Bəlkə alındı?.. Dəyişmək, öz istəklərimlə deyil, həyatın qanunlarıyla yaşamaq bəlkə alındı?.. Amma yox… Çox gec anlamış olsam da həyat, – gecdir, – deməyin də çox gec olduğunu söyləyir.

20.08.2008

* * *

Günün istisini hələ də özündə saxlayan mehriban torpağın yenə də qonağıyam. Ayağıma toxunub qaçan ləpələrin sərinliyi elə bil içimi titrədir. Sənsiz keçən daha bir günümün sonu… Günəşin üfüqdən dənizə boylanan son şəfəqləri, sənin baxışların kimidir… o gedişində sənin də baxışlarında çox isti bir münasibət vardı. Bu vidalaşmada böyük məhəbbətini hiss etdim. O böyük günəş sabah yenə dünyamıza işıq saçmaq üçün dönəcək… Mənim dünyamın işığı, bilirəm, sən də dönəcəksən.

22.08.2008

* * *

*Rəfiqəmə*

Dağlar qədər böyük ürək sahibisən. Həyat hamıya acı yaşadır. Ən böyük acılardan, inanılmaz sınaqlardan çox keçib sənin o böyük ürəyin. Amma heç nəyə baxmayaraq həyatın boyu heç bir qəlbi incitmədiyini bilirəm. Yaşadıqlarını, sənə yaşadılanları heç kimə arzulamayan qəlbin var. Qəlbinə bu gözəlliyi bəxş edən Tanrım, geniş qəlbin böyük arzularına yetirsin səni.

22.08.2008

* * *

Həyatım boyu səni axtarmışam. Hər yerdə səni gəzmişəm… Səni tapıb hədsiz sevindim. Çox xoşbəxtəm… Beynim sevgindən başqa bir şey düşünmür. Amma nə biləydim ki, hər şey yalandı? Sən də sadəcə xəyalımsan mənim. Nə bilim ki, növbəti sevgi limanında növbətçi sevgilinəm sənin… Xəyallarımın sevgisi, get… Getdiyin hər yerdə də sevil… Amma unutma, unutma ki, həyat yaşatdıqlarımızı yaşadır bizə. Bir gün nəhayət ki, həyatının ən böyük eşqini tapıb onunçün növbətçi sevgili olduğunu anlasan, heç üzülmə…

23.08.2008

* * *

Hər keçən gün anlayıram ki, səni daha çox sevirəm. Həm sevirəm, həm də çox darıxıram. Ehtiyacım var sevginə… Hamı deyir unut, acı çəkmə… Səni sevməyəni sən də sevmə… Amma heç kim anlamır ki, səni sevmək əzab olsa da, uğrunda tökdüyüm göz yaşlarım mənim ən böyük sevincimdir.

26.08.2008

* * *

Böyük sevgi axtarışında, gəldiyim bu yolda səninlə qarşılaşmaq təsadüf idi, yoxsa zərurət?! Həyatımızın təsadüfləri zərurətdən doğur, əslində. Təsadüfən həyatıma gəldiyin o gün rədd etsəm də səni, təkidinlə həyatımın zəruri sevgisi olduğunu anlatdın mənə. Həyatımın sevgiyə ən ehtiyaclı vaxtı, doğru bir zamanda sevdim səni. Daha doğrusu, ən böyük sevgimi sən özün sevdirdin mənə.

27.08.2008

* * *

Bu sətirləri oxuyursansa, demək ki, yaşamda səni hamıdan çox sevən artıq yaşamır. Digər məktublar kimi bu son məktuba da cavab yazma. İndi göndərməyə bəlli ünvan yoxdur çünki. Əslində, məktubları deyil, zaman var ikən, məni dəyərləndirməliydin. Daim sevgi mərkəzində yaşayan sevgilim, mən olmasam da, məkanım sevgi olsun. Diqqətsizliyindən həyatda özünü tərk edən ürək, indi də həyatı tərk edir... Qəlbim də, sevgim də həmişə sənə məxsus olub. Həyatda olanda, inanmadın mənə... İndi son nəfəsimi çəkib bir də deyirəm: Sevirəm səni!

28.08.2008

* * *

Əllərinə toxunmadan, gözlərini görmədən nədir bu həsrət?.. Sənsizlikdə səni sevməyin nədir anlamı?.. Sən, ey mənim sonsuz məhəbbətim, çəkdiyim acıların sevinc nöqtəsi, qəlbimin əlçatmaz eşqi, səni hamıdan gizlin, hər kəsdən çox sevirəm.

28.08.2008

* * *

*Ramazan*

Dua edib, yalvarırsan Allaha? Bağışlanmaq üçün tövbə edirsən? Amma əmin deyilsən ki, bağışlanarsan? Tanrı qapılarının üzünə bağlı olmağından qorxursan?.. Elə isə bu, səninçün, mənimçün, ümumiyyətlə, hamı üçün böyük şansdır… Nə qədər mərhəmət Sahibidir ki, etdiklərimizə baxmayaraq, Ona yaxın olmaqçün bizə “Ramazan” adlı şans verir. Bəzən anlamasaq da, əslində, çox bəxtəvərik hamımız. Namaz qılıb, oruc tutaq ki, ruhumuz təmizlənsin. Özümüzə savab qazanıb Allaha addım-addım yaxınlaşaq.

01.09.2008

* * *

Mən ruhu gözəl bir insanı sevirəm. Həyatım varlığına bağlı olan sevgilim heç varlığımın fərqində deyil. Amma onu yenə də sevirəm. Hamıdan çox… Yanında ola bilmədiyim sevdiyimin, həmişə yanında ol, Allahım… sevdiyimin sevinci ilə məni də xoşbəxt et…

04.09.2008

* * *

Tut əlimdən… Bax gözlərimə… İnan sevgimə, sarıl həyata… Həyatda hər şey olur. Bu da keçər… Fəslin qış olmağından qorxma… Sevməkçün də baharı gözləmə… Həyatı yenidən sev, səndən başqa heç kimi olmayan bu həyatda, sevgimi sənsiz qoyma!..

04.09.2008

* * *

Bir gün yaşadığın gözəl həyatdan böyük dərdlə qarşılaşsan, dönüb Tanrıya böyük bir dərdim var, deyib kömək istəmə. Həmin o dərdə, çox böyük bir Tanrım var, söylə və Rəbbinə güvən. Həyatda hər şeyi bizlərçün yaradan Allah yaratdığı hər şeydən çox böyükdür, unutma.

04.09.2008

* * *

Yenə gecə, sənsiz otağım… Səni xatırladan o mahnı, bir də tənha qəlbim… Darıxıram… Sənsiz bilsən necə darıxıram. Nəfəsini duymadan yaşaya bilmirəm. Boğuluram, ölürəm sənsiz… Artıq bacarmıram, sənsizliyin yalnızlığı ilə. Mübarizə apara bilmirəm. Gücüm yetmir… ürək dözmür, artıq. Hardasan? Çıx gəl…

07.09.2008

* * *

Dedim getmə, ölərəm... Amma ölmədim. Yaşayıram sənsiz. Bəlkə itmişəm həyatdan? Elə sən getdiyin o gün ölmüşəm. Bəlkə də?.. Kəfənsiz, məzarsız bir ölüyəm ki, yaşayıram sənsiz... Bəlkə də gözləri kor, qəlbi bağlı, sənsizliyin ölüsü kimi yaşayıram, sadəcə...

08.09.2008

* * *

Birgə gəldiyimiz bu yolda dostluq təklif edirsən mənə? Yaşadıqlarımız, sevdiklərimiz necə olsun, bəs? Bəs o böyük eşq?.. Deyirsən ki, unudum?.. Sevgimi dostluqla əvəz edim? Bacarmaram axı… Çünki qəlb sirdaşımı sevgimin simasında görmək mümkün deyil. Dost qəlbim olsa da sevgim həyatımdır mənim. Həyatçün qəlb vacibsə də, sevgini dostluğa dəyişən həyat üçün qəlbimin vurmasını istəmirəm.

09.09.2008

* * *

Açdığım hər yeni sabah sənə nə qədər möhtac olduğumu anlayıram. Yoxluğunda səni düşünüb yaşayıram. Çox sevirəm səni. Ölürəm sevgindən… amma deyə bilmirəm. Qürurum imkan vermir. Bir kərə yenilib sevgimi açmışam. Amma indi… Dön gəl… “Sənsiz bacarmıram” deməyi də bacarmıram. Sənsiz yaşaya bilmirəm. “Qayıt” deyə bilmirəm, bağışla sevgilim…

10.09.2008

* * *

Ayrılığa, artıq əvvəlki tək acımıram. Həyatda ən çox sevdiklərimdən idin. Nə şanslıydın ki, ən əziz hisslərimin sahibi olmuşdun... Çox heyif ki, anlamadın... Nə hisslərimi, nə sevgimi gizlətmədim səndən. Heç bir qarşılıq, heç bir mənfəət aramadım. İstəmədim ki... Sadəcə, qəlbin dəyərini, hisslərimin qiymətini anlaman lazım idi...

10.09.2008

* * *

O həyətdəki quyunun dibində cücərən otların günəşə həsrəti qədər həsrətindəyəm sevginin. Günəş hər sabah doğur… Amma həsrətlə ona uzanan canları yenə də isidə bilmir. Mənə də, sadəcə, varlığını duymaq kifayət etmir. Ehtiyacım var sənə. Hər canlı qəlbindəki həsrətlə yaşaya bilər, bəlkə də. Amma mən yox… Sənsizlik qəlbimi yaşatmır artıq…

13.09.2008

* * *

Təsəlli axtarışında sığındığın bütün sevgilərdə məni duyacaqsan. Hər baxışda, hər naxışda axtaracaqsan məni. Həqiqi sevgim boyda sevgi arayıb tapmayacaqsan. Sənə toxunan isti nəfəsin, buz parçasına necə çevrildiyini izləyəcəksən və anlayacaqsan ki, sevgisini puç etdiyin o zavallının göz yaşlarıdır ki, səni sevilməyə qoymur. Öz əlinlə boğub öldürdüyün sevgim səni daim izləyəcək. Kölgən olub həmişə arxanca dolaşacaq...

13.09.2008

* * *

Burdan çox-çox uzaqlarda tənhalığı duysan da, yalnızlığına ağlama. Unutma ki, sənə gülmək yaraşır. Sevdiklərini ətrafında görməsən, sevməyi unutma. Yox, əgər sevənlərin olmayınca, sevməyi unutsan, sevildiyini unutma. Unutma ki, səndən çox uzaqda yaşasa da, səninçün döyünən bir qəlb var.

14.09.2008

* * *

Xoşbəxtlik… Həyata gəldiyim gündən axtarışındayam… Ən xoşbəxt anlarımı, ən sevincli günlərimi səninlə yaşadım. Bəxtəvər etdin məni. Qoy olsun… demək ki, yazı buracan imiş. Qismətdə ayrılıq varmış. Eşqimiz nakam olsa da nəsibimiz göz yaşlarısa da, qazancımız çox böyükdür – ülvi hisslər…

İndi isə yeganə bir istəyim var… Sevdiyim vəfasız məni unutmasın.

15.09.2008

* * *

Ya Rəbbim, qıldığımız namaz, tutduğumuz oruc, kəsdiyimiz qurbanlar Sənin uğrundadır. Sən Özün qəbul et və kömək ol bizlərə. Buyurduqlarını unutmuruq. Səni eşidib mənəvi təmizlikdə yaşayırıq. Ruhumuz sevinir. Müqəddəs Məkkəni gəzib şərəfli ad qazanırıq, şükür olsun varlığına ki, yaratmısan bizləri. Tanıyırıq və sevirik Səni.

19.09.2008

* * *

Hər sabah oyanınca qəlbimdəki Tanrını duyuram. Ona hər zaman ehtiyacım var. Qismən də olsa ehtiyacı ödəməyə çalışıram. Allaha yaxınlığa layiq olmaq istəyirəm. Onu çox sevirəm. Hər şeyə qadir olan Rəbbim, bu sevgini alma qəlbimdən. Sənə daha yaxın olmağa izin ver mənə.

19.09.2008

* * *

Ya Allah, qəlbimin istəyini, inamını artırmısan Özünə qarşı. Səni çox sevirəm. Hər zaman da Səni duymağa böyük ehtiyacım var. Qəlbimə yaşatdığın bu inam məni daha böyük istəyə sürükləyir. Sənə yaxın olmaq istəyirəm. Qurban olum, ya Rəbbim, bu həyəcanı, bu sevinci yaşat mənə. Ruhum daha da paklaşsın. Məkkənin o müqəddəs adını qismət et (Amin).

20.09.2008

* * *

Həyat necə də gözəldir… Yaşamaq gözəldir. Yaşayaraq Tanrının bizlərçün yaratdığı o gözəlliyi duymaq çox gözəldir. Zaman keçdikcə, arzularımıza yaxınlığı hiss edirik. Hə, hamının qəlbində əlçatmaz arzusu, diləyi var. Mavi dənizin coşan dalğası var. Baharın çiçəyi, payızın xəzəli var. Allah yaradan hər şeyin öz gözəlliyi var. Amma mən bunların hamısından çox-çox üstünəm. Çünki mənim sənin kimi sevənim var.

23.09.2008

* * *

Həyatda daim Allah məni yaxşı insanlarla qarşılaşdırıb. Məni gözəl atanın, gözəl ananın övladı edib. Həyatda nümunə götürəcəyim insanlardır onlar. Qismətimə onlarsız həyat yazsa da taleyimdən çox razıyam. Yaradanımın mənimçün yazmış olduğu yazıyla barışıram və Ona daim şükür edirəm. İndi Allahdan bir istəyim, həyatdan tək arzum var ki, Tanrı sevgisi qəlbimdən itməsin. Və yolumu düz gedib, valideynlərimə layiq övlad olmağa Allah yardımçım olsun.

26.09.2008

* * *

Qədr gecəsi...

Bütün sevgilərdən uzaq yaşamda olsan belə, heç üzülmə, çünki bizləri sevən Allah hər zaman yanımızdadır. Biz də mübarək ayın bu müqəddəs gecəsində, Ona yaxınlığımızı və böyük sevgimizi sübut edək. Gecəni namaz qılıb, dua edək ki, sabahımız nura boyansın.

İnsanlar, Tanrıya yaxınlıq gecəniz mübarək!

26.09.2008

* * *

Ey insan, Ramazandır! Gəl qoşul müsəlmanlara!.. Tanrının verdiyi ziyafətdə sən də iştirak et. On bir ayda bizlərə hər şey bəxş edib, bizi ziyafət sahibi edən Allah, müqəddəs on ikinci ayda bizləri ziyafətə dəvət edir. Bu, sənin bildiyin maddi ziyafət deyil. Tanrı qonağı olub mənəvi zənginlik, ruhi gözəllik qazan! Duya biləcəyin ən gözəl hissdən kənar qalma. Oruc tut ki, ruhunla bərabər, əzaların sevinsin.

27.09.2009

* * *

Qurban...

Allah sevgisindən övlad canına qıymaq var müsəlman qanında. Tanrı sevgisi hər şeydən üstün və hər kəsdən əzəldir bizlərçün. Çünki Onun da sevgisi çox böyükdür. Onun böyük sevgisi və mərhəmətidir ki, İsmayılı qurban olmağa qoymadı…

Bütün gözəllikləri yaradan, bizləri maddiyyət sahibi edən Allah yolunda qurbanlar kəsib maddiyyatımızdan keçək ki, Ondan böyük sevgimizin olmadığını göstərək.

27.09.2008

* * *

İllərdən sonra səni qarşımda görsəm, tanıyaram görəsən? Nə edərəm? Ağlayıb üzümü çevirərəm, yoxsa sevinərəm?.. Gözlərinə baxıb hələ də səni sevdiyimi söylərəm, hər halda… Uzun zaman keçməsinə baxmayaraq, hələ də nəfəsim sənsən, deyərəm.

20.09.2008

* * *

Bilirəm, burdasan…. Otağımda… Hər küncdə, hər əşyada duyuram səni. Sevgi dolu nəfəsini hiss edirəm. Bilirəm, tək qoymursan məni. Sənsizlikdə qaranlıq otağımı işıqlandıran şamın atəşindəsən… Yalnızlığıma damla-damla əriyən şamı diqqətlə izləyirəm. Bilirəm, sən də mənə baxırsan… Görəsən, doğrudan da bu sənsən, yoxsa mənim “sən” adlı qəlbim?..

04.11.2008

* * *

Sənsizlikdə yanan qəlbim nə vaxt sevinəcək? Gözümdən axan yaşlar nə vaxt dinəcək? Çoxdan barışdığım həyatımın sənsizliyinə nə vaxt öyrəşəcəm?.. Alınmır... Artıq bacarmıram. Çox darıxıram. Çətindir. Sənsiz bu çətinlikdə yaşaya bilmirəm. Xatirən gələndə duymalıyam səni. Ehtiyacım var sənə. Sənin səsinə, nəfəsinə möhtacam.

26.09.2008

* * *

Yaşamınla yaşamıma sevinc qatırsan, sevgilim. Varlığından doğan sevinci, yoxluğundan yaranan həsrəti çox sevirəm. O həsrət ki, vüsal şirinliyilə bizi yenidən qovuşdurur. Səni sevirəm… səni mənə sevdirən o qəlbini sevirəm. İçində səni tapdığım bu həyatı çox sevirəm. Öz qəlbimi də sevirəm, səni sevdiyi üçün. İnan, adın keçən hər şeyi sevgimiz qədər sevirəm.

27.09.2008

* * *

Vallah, bu qarışıqlıq arasında heç nə istəmirəm. Gərəyim yalnız sənsən. Yalnız sənə, sənin sevginə ehtiyacım var. Buz bağlayan qəlbimin ən əziz sakini, sənsizlik yaşanmır, artıq. Dön gəl… Məqsəd cəzalandırmaqsa məni, sən bunu bacardın. Yetişməsən, verdiyin cəza alacaq canımı…

01.10.2008

* * *

Pərvanənin sonu atəşdən olur. Atəşdə yananda da düşünür ki, kaş min qanadım olaydı, min dəfə yanaydım. Pərvanə şama aşiqdir. Sevgisi uğrunda min kərə ölmək ona sevinc bəxş edir. Mənim də sevincim oxşardır. Qəlbimi sındıran sevgin uğrunda min dəfə ölməyə hazıram.

01.10.2008

* * *

Həyatıma qayıdışın o qədər gözəldir ki, inan o qədər sevincliyəm. Düşünürəm ki, niyə bu qədər sevinirəm?.. Nədəndir bu boyda sevgi?.. Yadındadır, bu sualı həmişə sən verirdin mənə? İndi isə özüm soruşuram özümdən. Niyə?.. Zalımlığınımı sevirəm? Yoxluğunda çəkdiyim əzabmı xoşuma gəlir? Yox, sadəcə səni sevirəm. Cismin verdiyi əzaba baxmayaraq, ruhunun vurğunuyam. Yoxluğunda səni gözlədiyim zamanı çox sevirəm. Sənə qovuşmağı, varlığını duymağı sevirəm, sevgilim mənim.

04.10.2008

* * *

Heç nə qədər sevildiyinin, bu dəyərli həyatın necə dəyərli bir parçası olduğunun fərqindəsən? Bilirsənmi ki, varlığınla sevdirmisən mənə həyatı? Bilirsən ki, qəlbimin ən ülvi hisslərinin sahibi sənsən? Həyatda əlçatmaz arzularıma səninlə yaxın olmuşam. Sən mənim qəlbimi canlandıran, ruhumu yaşadan sevgimsən…

04.10.2008

* * *

Pəncərəni tıqqıldadan o yağış sevgimin səsidir. Bir diqqət et, eşit, gör nə deyir sevgim… Anlamırsan? Bu mənəm də… Deyirəm ki, yerdə olmasam da, göylərdən səni sevməkçün gəlmişəm. Mənimçün darıxdığını duydum, bu gecə səninçün yağıram, sevgilim… Aç əlini, ovcuna qonan hər damlada da duy səsimi. Sevirəm səni…

04.10.2008

* * *

Gün batışında havanın gözəlliyinə bax, sevgilim… Türklər bu hala yakamaz deyirlər. Çox gözəldir, deyilmi?.. Qoca dünyamızı işıqlandıran günəşin vidası… amma biz bilirik, o sabah yenidən doğacaq. Xəzər üzərindən, sular qoynundan salamlayacaq yeni günü… Həyatımıza yeni bir işıq, qəlbimizə yeni bir həvəs, sevgimizə möhkəmlik gətirəcək. Bizi bu sevgidə ölməzliyə qovuşduracaq.

06.10.2008

* * *

Sənsizlik dözülməzdir, deyib geri istəyəndə, sən niyə yadmışam kimi baxırsan? Məndən ayrılmaq səninçün çətin deyil? Biz ki, birgə çıxmışdıq bu yola... İkimiz də bizi yaşadan sevdamızı birlikdə sevmişdik... Ona görə günahkarmışam kimi baxma... Boynuna almasan da bilirəm... Bilirəm ki, sevgimizin yarıda qalmasına sən də heyifsilənirsən. Ən azı mənim qədər peşmansan... Amma üzülməyə dəyməz. Yarıda qalmış sevdanı yaşatmaq üçün qəlbimiz hələ də vurur. Ən əsası, səni dünyalarla müqayisə edən bir sevənin var. Heç üzülmə, həyatım...

07.10.2008

* * *

Həyatım, bilirəm, bəlkə də mənə ayırmağa vaxtın yoxdu sənin. Daha mühüm işlərlə məşğulsan. Amma sadəcə bir neçə saniyə istəyirəm. Sadəcə, qulaq as... Sən anlamadığın hisslər, dəyərləndirmədiyin qəlbim hələ də sənindir. Bunu bilib qəbul etmədiyini bilirəm. Ona görə söyləyirəm ki, unutma... Səni çox sevirəm. Getdiyin o gündən hər an ağlımdasan. İndi də... Sənsizlikdə çox darıxıram... Qayıt, sevgilim...

09.10.2008

* * *

Sən bütün həyatımı, qəlbimi aldın. Sevirəm deyib aldatdın. Dəyişdin məni... səninçün döyünən qəlbi taptadın... Amma yenə bacarmıram, unuda bilmirəm səni. Tapdanan hisslərim yenidən səninçün canlanıb, qəlbim yenə "sən" deyə vurur. Etdiklərini düşünüb nifrət edə bilmirəm. Daha da çox sevirəm səni. Unuda bilmirəm... Sevgim boyda yaratdığın bu nifrəti də sənə aid olan hər şey kimi çox sevirəm. Həsrətli sevginə sürgün etdin ömrümü, ay sevgilim...

16.10.2008

* * *

Burda, dənizin kənarında tək oturub yenə səni düşünürəm. O, ucsuz-bucaqsız göylərin tənhalıq sayrışan ulduzlarında gəzirəm sevgimizi. Yalnızlığıma səni axtarıram… Ehtiyacım var sənə, möhtacam sevginə. Sən yoxsan… mənə soyuqdur… Dalğanın deyil, qəlbinin soyuqluğu üşüdür məni. Bu sevgidən, soyuqluğundan, sevərək alçalmaqdan bezmişəm. Tənhalıqdan doydum, artıq. Sahilə sadiq qalan dəniz kimi səni sevməkdən usandım. Əslində, dəniz qədər dəyərlidir mənim sevgim. Sadəcə, dəyərini anlamadın…

17.10.2008

* * *

Hər dəfə səndən ayrılanda anlayıram ki, sənsiz yaşaya bilmirəm. Sən yoxkən, həyat olmur. Yaşam üçün varlığın mütləqdir, sevgilim, lazımsan mənə. Səni hər şeydən çox, hər kəsdən artıq sevirəm.

18.10.2008

* * *

Sənsizlikdə yaşamım olmadığı üçün burdasan, bilirəm. Zavallı olduğumu bilirsən. Sənin sevgi əsirinəm, həyatım sənə bağlıdır. Nəfəsini duymasam, mənim də nəfəsim durar. Özüm uydurduğum bu sevgi qəlbimin ən dəyərli hissidir. Çarəsizliyimə acı… Yalançı varlığına ehtiyacım var, sevgilim…

20.10.2008

* * *

Çox-çox uzaqlarda olsan belə, sevgim səninlədir. Göylərin sultanı Günəş də Yerdən çox uzaqdır. Amma yerdəkilər onu çox sevir. Nə qədər gözəl olsa da, gecənin qaranlığında sabahı gözləyirik hamımız. Mən isə böyük ümidlə səni gözləyirəm. Daim həsrətindəyəm. Qayıdacağını da bilirəm.

21.10.2008

* * *

Xəyalımda o qədər yaxınsan ki, elə bil, uzatsam əlimi, toxunacam sənə. Açıram gözümü... və sən burda yoxsan... Həqiqətdə çox uzaqsan, ulduzlar kimi... Yenə də duyuram səni. Çünki sən qəlbimə möhürlənmiş sevdamsan mənim.

21.10.2008

* * *

İçimdəki yanğın sənsən. Məni qəlbimdən vurub içdən yandırmısan sən. Hicran alovunda həsrətinlə alışdırmısan məni. Sənsizlikdə keçmək bilməyən zamanımsan mənim. Mən səni bu zamanın hər saniyəsində sevirəm. Xatirənlə qaranlıq dünyamı işıqlandırırsan sən. Artıq sənli xatirələrdə yaşayıram, sevgilim. Məni heç axtarma. Səni sevə-sevə mən dönüb sən olmuşam.

24.10.2008

* * *

Hava yenə küləklidir. Gecənin qaranlığında coşub-daşan dənizin sahilindəyəm. Dalğalar qayalara çırpılıb geri qayıdır... Üstümə sıçrayan ləpələr sevgimizdən danışır. Sanki məni də cırmaq-cırmaq dartıb aparmaq istəyir. Uzaqlara... Sənə qovuşdurmaq üçün... Sadəcə xəyalınla yaşayıram. Qayalara çırpılan hər damlada sevgimi göndərirəm sənə... Harda olmağından asılı olmayaraq, duy sevgimi...

25.10.2008

* * *

Sənsizlikdə açılan yaranı qapamağa kömək et. Çıx artıq xəyallarımdan… Burda lazımsan mənə. Ehtiyacım var. Yalvarıram… Sadəcə toxun… Sevgiylə toxun mənə. Doymuşam, artıq yad baxışlardan. Dön gəl... sevgi dolu baxışların həsrətindəyəm. Ögey əllərdən, yad sevgilərdən xilas et məni, sevgilim. Gəl, həyatımı sənsizliyin yalnızlığından qurtar…

25.10.2008

* * *

Mən səndən sevgi istəmədim. Böyük ümidlər ummadım ki… Yalnızca yanında qalmaq, səninlə olmaq istədim. İcazə vermədin… Səni sənsiz sevməyə qoymadın məni… İnan mənə, yalnız yanında var olmaq yetərdi. Səssizcə, narahat etmədən sevərdim səni. Hamıdan gizlin, hər kəsdən böyük heyranın mən olardım. Səni hər şeydən çox sevərdim…

25.10.2008

* * *

Çox tənhayam… Darıxıram… Ağlayıram sənsiz… Göz yaşları sevgimdir. Səndən uzaqda darıxdıqca, daha çox yaxınlaşıram sevginə. Bu həyat səni sevdiyimçün, səni gözlədiyimçün çox gözəldir. Əslində, həyat bizim istəklərimizə uyğun qurulmur. Heç də bizim seçimimiz deyil… Həyatda tək seçimim sənsən. Tək sevgim, tək eşqim sənsən. Seçimimiz olmayan həyatda biz bir-birimizi seçmişik. Mən də öz seçimimi gözləyirəm… Səni, öz sevgimi gözləyirəm… Qayıt həyatıma.

27.10.2008

* * *

O pərvanə şama olan sevgisindən bilə-bilə özünü oda atıb xoşbəxtlik tapır. Sevgisi uğrunda ölməklə əslində, yeni bir yaşam qazandığını da bilir. Pərvanənin məhəbbəti qədər sevimlisən. Çox dəyərlisən mənimçün… Amma sevgindən uzaq yaşamda, əsla, ölmərəm… Yaşayaram, sevgimi yaşadaram… Sevgimi yaşadıb, ölümünə səni sevərəm… Səni sevib həyat qazanaram. Həyatımsan mənim.

31.10.2008

* * *

Səndən uzaq yaşamdayam. Artıq burdan çox uzaqlarda vurur qəlbim. Səni unutmaqçün burdayam. Amma bax, burda olma səbəbim yenə də ağlımdadır. Hələ unutmamışam səni. Necə unuda bilərəm ki? Sən ürəyimsən. Həyatımsan mənim. Qızılgülün adını dəyişsələr, o yenə qızılgüldür. Çox-çox uzaqlarda olsam belə, yenə həmin qəlbdir ki, məni yaşadır. Səni sevən qəlb...

01.10.2008

* * *

Mən səni tanıyıb sevəndə həyatımda böyük boşluq var idi. Həyatımdakı boşluğu doldurmaqçün diqqətə, sevgiyə, təmiz hisslərə ehtiyac duyurdum ki, sən çıxdın qarşıma. Ehtiyacım var ikən, yaşamıma vacib olduğunu bilə-bilə qoruya bilmədim sevgimizi. Ayrılığın qismətim olmasıyla barışdım. Uzaqlarda belə, səndən ayrı yaşamımda da varlığını həmişə duydum. Ürəyimdə hər zaman bir tək sən vardın. Fikrimdə, beynimdə həmişə yaşatdım səni. Tanrının yaratdığı mükəmməl varlıq olduğunu düşündüm və hətta sənsizlikdə belə səni daha çox sevdim. Aramızdakı məsafələr, uzanan yollar, artan illər duyğularımı azaltmadı. Sanki zaman keçdikcə daha da yaxın oldun mənə. Elə bil əvvəlkindən daha çox sevirəm səni. İndi tək istəyim səni sadəcə yenidən görməkdir, yenidən səni nə qədər sevdiyimi söyləməkdir. Amma yox… Sənsizlikdə yaşayaraq illərdən sonra, nəhayət, anladım ki, həsrətini çəkdiyim əslində mənim ürəyimdir ki, "sən" deyə döyünür.

02.10.2008

* * *

Çöldə qar yağır. Hər tərəf ağ boyanıb. Qaranlığın soyuq nəfəsi gecəyə uzanır. Yenə sənsizlik… Yatır bu qoca şəhər. Qaranlıqlardan küçəyə boylanan yenə də mənəm. Baxışlarım qar üzərinə iz salıb… Gecənin şaxtası dondurub vücudumu. Yoxluğun da qəlbimdə buz bağlayıb. Hardasan, sevgilim?.. Axı mənə söz vermişdin… Hər zaman burda olacaqdın… Həsrətdən, kədərdən uzaq, isti qucağının hərarətilə isidəcəkdin qəlbimi. Hardasan?.. Niyə yoxsan?.. Öz həyatıma qərib olmuşam sənsiz…

07.11.2008

* * *

Vidalaşmaq elə ağırdır ki… Səndən ayrılmaq çox çətindir. Necə qoyub gedə bilirsən məni?.. Yaşaya biləcəksənmi mənsiz?.. Amma mən bacarmıram. İndi qollarımın arasında ikən belə darıxıram səninçün. Hər gün çıxacam qatar yoluna… Səni gözləməkdən yorulmayacam. Bilirəm, səni görməyə alışan bu gözlər, dönən günə kimi ağlayacaq… Səni gözləyirəm, unutma. Oralarda darıxmış olsan, sarıl sevgimə. Mən olmasam da, o həmişə səninlədir. Sevdiyinin qəlbini çox üzmə, tez qayıt…

10.11.2008

* * *

Mən səni sevəndə böyük bir boşluqda idim. Yalan hisslərin arasında həyatımın tək gerçəyi sən oldun. Bu qarışıqlıqda sənə, sənin sevginə həqiqətən də ehtiyacım vardı. Çox sevdim səni.

Bəli, həyat dediyimiz budur… Şirin üzü kimi acı tərəfləri də var. Ayrıldı yollarımız... Başqa-başqa həyatları yaşayan, eyni sevginin qurbanlarıyıq. Bu müddət ərzində yalnız səni sevdim. Həyatımı sənli xatirələrlə sənsiz yaşadım. İllərdən sonra səni yenidən qarşımda görüb anladım ki, biz həmin insanlar deyilik. Böyük sevgiyə baxmayaraq, zaman ikimizi də çox dəyişib. Bu vaxta kimi axtardığım sevgi, əslində mənim qəlbim imiş…

14.11.2008

* * *

Həyatda itirdiyini tapmaqçün gəzib, hər tərəfi axtarmaqdan yorulma. Küsülü olduğun kimsə varsa, bağışlamağa tələs… Qəlbini qırdıqlarından da bağışlanma dilə… Bağışla ki, bağışlanasan. Çətinliklərdən qorxma. Qarşılaşdığın hər kəsi sev. Sevdiklərin arasından qəlb sevgini də tap… Arzuna çatmağa çalış… Həyat çox qısadır… Bu günün işini sabaha saxlama… Ömür vəfa etməyə bilər. Həmişə qəlbini dinlə… Rəbbinə inan. Yolunu düz get… Xoşbəxt ol!

16.11.2008

* * *

Qəlbimi donduran gecənin sənsizliyi… Həyatımı qaraldan sənsizlik. Təbiət də məni ovudur, sanki… Hər yan bəyazdır. Qəlbimin qaranlığına bəyaz qar yağır. Hər tərəfin ağ boyanmağı xoşuma gəlir. Deməк ki, hər qaranlığın bir ağ üzü var. Şaxta nəfəsli gecənin də, sabahı. Sənli xatirələri başdan yaşadacağın sabah… Səni düşünməyi sevirəm. Həyatımı qaraldan xəyalını sevirəm. Səni çox sevirəm, burda olmasan belə...

16.11.2008

* * *

Dostluq, dəniz kənarındakı daşlar kimidir. Sən sahildəki daşlar arasından qəlbinə yaxın, ən gözəl daşları seçirsən. Xəyalın uzaqlara apardığı baxışlar, dənizə atdığın o fərqli daşlarn batışını izləyir… Amma bəzi daşları atmağa qıymırsan… bəziləri sənə çox əziz olur… Sən də mənimçün fərqli birisən ki, seçilənlər arasından seçilmisən. Qəlbin səsiylə həyatıma seçilmiş dostum, qəlbimə sevinc yaşatdın.

20.11.2008

* * *

Sən mənə nə etdin? Varlığınla nə gətirdin, yoxluğunla nəyi qopardın həyatımdan? Niyə yaşaya bilmirəm sənsiz?.. Köksümdə daşıdığım bu qəlb niyə hələ də səninçün vurur?.. Sən heç sevgimizi anlamamış ölümünə sevilmişdin. İndi yoxluğunda da ən dəyərlim sənsən. Niyə bu qədər uzaqkən, belə yaxınsan mənə? Sevincli yaşamında heç məni düşünürsən? Arxada qoyduğunu necə bədbəxt etdiyini fikirləşirsən?.. Amma mən səni yaratdığın bu bədbəxt həyatımın hər saniyəsində düşünüb sevirəm...

20.11.2008

* * *

Bütün limanlarda gördüyü sevgiləri danışmaqçün, dənizin böyük bir sahilə ehtiyacı var. Mənim də bu qərib həyatımda yalnız sənə ehtiyacım var. Dəniz boyda sevgisi olan qəlbimin yeganə sahili sənsən. Çox fərqli, gözəl bir hiss yaşatmısan qəlbimə... Sevməyi öyrətmisən mənə... Səndən başqa heç bir sevgidə sevilməyi bacarmır qəlbim. Ona sevməyi öyrədən qəlbinə ehtiyacı var...

20.11.2008

# ŞEİRLƏR

* * *

Bu xəstə canımın dərmanısan sən,
Qəlbimə gün kimi doğulursan sən.
Səndən istədiyim sevgindir mənə,
Duymaq istədiyim "Aşiqəm sənə".

Sənə olan sevgim daimi, ölməz,
Sənlə həyatımın işığı sönməz.
Mən bu sevgimizdən olmuşam dönməz,
Sevgim başa çatsa ürək döyünməz.

Sevgidir dünyanı idarə edən,
Hər bir insana xoşbəxtlik verən.
Könül sevindirib, səadət quran,
Yaralı qəlblərə dərman tək axan.

Günəşsiz dünyanın səhəri yoxdur,
Çiçəksiz baharın bəzəyi yoxdur.
Sənsiz həyatımın mənası yoxdur,
Dərmansız bir dərdin çarəsi kimi.

Sevgidir dünyada məna kəsb edən,
Ürəklərə sevinc, qəlbə ruh verən.
Sevgidir insanın qəlbin oyadan,
Onu bu dünyada hər an yaşadan.

2003-cü il

* * *

Qəlbimi almısan qaytar, nə olar,
Getmisən, arada dön gəl, nə olar.
Qəlbsiz viran olan bu zavallını
Bir xoş baxışınla ovut, nə olar.

Niyyətin yoxsa da geri dönməyə,
İnsaf et, gözümə görünmə daha.
Qəlbimdə açdığın sevgi yarasın,
İmkan ver, uzaqda qapatmağıma.

Getsən də, gözümə görünməsən də,
Yanımda yoxsan da, qəlbimdəsən sən.
Xatirən gəlincə gözümdə yaşsan,
Qəlbimdə açılan böyük yaramsan.

30.06.2008

## SEVİRƏM SƏNİ

Qəlbimdə bir sözüm var ki, heç kimə
Sənəcən heç zaman deməmişəm mən.
Ən böyük sirrimin, böyük hədəfi,
Sənsən, sənin qəlbin, sənin sevgindir.

Sevgimi açıram, bəyan edirəm,
Ən gözəl hissimi sənə deyirəm.
Mənə bir istəyin varsa da sənin,
Nəhayət söylə ki, "sevirəm səni".

30.06.2008

## QƏLBİMİN İSTƏYİ

Qəlbimin açarı səndə qalıbdır,
Gərəyi yoxdursa qaytar özümə.
Dəyər vermədiyin hisslərlə dolu,
Qəlbim dayanmadan vurmaq istəyir.

Səni unudaraq hər zaman, hər an,
Artıq bu həyatdan sevgi istəyir.
İnan, geniş qəlbin böyük sevgisi,
Sənsiz də həyatdan yaşam istəyir.

30.06.2008

## İSTƏRSƏN?..

Böyük bir çılğınlıq edib də bir gün,
Səni sevdiyimi anlatsam əgər,
Hər şeyi buraxıb, əlindən tutsam,
Çox-çox uzaqlara getmək istəsəm.

Bütün həyatımı səninlə birgə,
Olmaq istəyimə sən nə deyərsən?
İstərsən mənimlə böyük bir həyat?..
Hansı ki, içində bir tək biz varıq.

02.07.2008

## MƏN OLMASAM

Mən olmasam, vallah fəlakət olmaz,
Mənsiz də baharda çiçəklər açar.
Sənin qəlbindəki çiçəklər amma
Mənsiz baharda da inan, açılmaz.

02.07.2008

* * *

Həyat lüğətində nə kədər, nə qəm
Sevincli, şadlıqlı günlər çox olsun.
Dünyanın ən gözəl nemətlərilə,
Həyat yollarında uğurlar olsun.

17.06.2008.

## ƏVVƏLKİ TƏK

Səhvimi anlayıb, üzr istəsəm
Bağışlanmaq üçün qapına gəlsəm,
Diz çöküb qarşında ağlarsam əgər,
Məni əvvəlki tək sevə bilərsən?

Sevginə möhtacam sevgilim, desəm
Həyatın mənası yoxdur, söyləsəm,
Ağlayıb - yalvarıb, geri dön desəm,
Məni əvvəlki tək sevə bilərsən?

Hər kəsin günahı, səhvləri olur
Mənim də günahım sevməyimdirsə,
Böyük günahımı bağışla desəm,
Məni əvvəlki tək sevə bilərsən?

Hər şeyi unudub əvvəlki kimi
Yenidən yanımda qalmaq istərsən?
Vallah bu həyata yenidən gəldim,
Məni əvvəlki tək sevə bilərsən?

01.07.2008

## SƏNİ TAPMIŞAM

Hamının qəlbində böyük bir istək,
Əlçatmaz arzusu, diləyi vardır.
Mənimsə diləyim, ən böyük arzum,
Mənə qarşı olan təmiz sevgidir.

Axtardığım böyük sevgi hissini
Axtarıb, axtarıb səndə tapmışam.
Demək axtardığım tək sevgi deyil
Həm də ki, sevgilim, səni tapmışam.

03.07.2008

## DƏSTƏYİM

Mənim ətrafımda olan insanlar,
Hər zaman həyata dəstək olublar.
Ən böyük dəstəyim, mənim dayağım,
Sənin məhəbbətin, həm qayğın olub.

Həyat çox gördüyü o gözəlliyi,
Qayğını, sevgini, o nəvazişi,
Tanrı əlləriylə, mərhəmətiylə,
Sənin vasitənlə mənə yetirdi.

04.07.2008

* * *

Sənsən ürəyimdə sevgi yaradan,
Mənim həyatıma işıq, nur saçan,
Mənimçün günəşli dünyamı quran,
Sevgi çiçəklərin qəlbimdə açan.

* * *

Qızılgül sevgidir, bəs tikan nədir?!
Ürəkdən sevirsən, bəs inad nədir?!
İnkar eyləsən də, söyləməlisən,
Sevgi tək başlayan, bəs indi nədir?

Cavab yubadırsan, deyə bilmirsən?
Onda söyləyirəm, çıxartma yaddan.
İnkar eyləsən də sən də bilirsən,
Sevgimiz yaranıb biz doğulandan.

* * *

Ayrıldıq səninlə nə üçün, nədən,
Bəlkə, bir-birini heç anlamadıq…
Sən getdin yoluna, mən də yoluma,
Səninlə ayrıldıq səbəb bilmədən.

## BACIM MƏNİM

Baxanda həyata sevinəsən sən,
Arxadakı ömrün mənalı olsun.
Canın tək dəyərli həyat yolların,
İşıqlı, günəşli, parlayan olsun.
Mələklər dayansın başının üstə,
Mənalı ömrümün hər dönəmində.
Əllərin heç kimə möhtac olmasın,
Nə edim, neyləyim söyləməyəsən.
İmanın, ümidin itməsin heç vaxt,
Mətin, iradəli olasan xoşbəxt.

## SEVƏ BİLƏRSƏN?

Həyat tək səni də ürəkdən sevsəm,
Yaşamçün varlığın gərəkdir, desəm,
Məni varlığınla yaşat, söyləsəm,
Məni olduğum tək sevə bilərsən?

Sənsiz yaşadığım hər yeni sabah,
Mənə kədər verir, qüssə gətirir.
Artıq həyat sənsiz yaşanmır, desəm,
Məni olduğum tək sevə bilərsən?

Sənə verəcəyim böyük sevgimdir,
Təmiz qəlbim, bir də məhəbbətimdir.
Bir tək bu sevgimi qəbul edərsən?
Məni olduğum tək sevə bilərsən?..

Verdiyim sevgidən, o saf hisslərdən,
Kiçik bir qarşılıq istərsəm əgər,
Səni sevdiyim tək məni sev desəm
Məni olduğum tək sevə bilərsən?..

14.07.2008

## İNSAF ET

Səni bilsən necə möhkəm sevirəm,
Sənsiz baharı da çovğun bilirəm.
Gecələr zülmündən yata bilmirəm,
Nə olar, insaf et, bir xəbər yetir.

Getmisən, ömrümü viran etmisən,
Həsrətli eşqinə sürgün etmisən.
Sevgindən ölsəm də vida etmirsən,
Nə olar, insaf et, bir xəbər yetir.

Sənsiz ömür boyu qaranlıqdayam,
Gəl məni aydına çıxart, demirəm.
Sadəcə varlığın sorağındayam,
Nə olar, insaf et, bir xəbər yetir.

02.08.2008

## SƏNSƏN

Nə qədər görsəm də, yenə doymuram,
Baxdıqca baxıram, sənə vurğunam.
Görsəm də, mən yenə çox darıxıram,
Neyləyim, mənimçün ən uca sənsən.

Nə qədər sevsəm də, yenə bilmirəm,
Bəlkə də, sədəcə sevə bilmirəm?…
Ya da ki, sevgimdə qədər bilmirəm,
Neyləyim, mənimçün ən uca sənsən.

14.08.2008

## BƏLKƏ...

Beynin düşündüyü böyük sevgimiz,
Qəlbimin istəyi sənli həyatdır.
Bilməm ki, sən necə dözürsən mənsiz,
Məni həyat artıq yaşatmır sənsiz.

Bəlkə hər şey yenə dəyişə bilər,
Yenə böyük sevgi odlana bilər.
Mənim eşqim heç vaxt ölməmişdi ki
Bəlkə sənin sevgin canlana bilər…

22.09.2008

* * *

Sənsiz nəfəs almaq çətindir mənə,
Əlacım sevginçün əl açmaq sənə.
Ağlayıb, yalvarıb qarşımda çökmə,
Həmişəkindən çox lazımsan mənə.

22.09.2008

* * *

Sən gedən yollara baxır gözlərim,
Sən gələn zamanı gözləyir qəlbim.
Sadəcə gərəksən, lazımsan mənə,
Qayıt həyatıma, sevgilim mənim.

15.10.2008

* * *

Bəlkə heç bir zaman biz qovuşmadıq,
Biz bu sevgimizi heç anlamadıq…
Sənin də, mənim də verdiyim anda,
Biz ölməz aşiqlər sadiq qalmadıq.

15.10.2008

## SON NƏFƏS

***Anama***

Artıq neçə aydır anam xəstədir.
Evdən az da olsa gülüş gəlməyir.
Şəhərdə bir həkim, loğman qalmayıb,
Bizim qapımızı döyməyib keçsin.
Bəs niyə bu cürə böyük həkimlər,
Loğmanlar, təbiblər, türkəçarələr
Bu dərdə bir çarə tapa bilməyir?
Anamı ağrıdan azad etməyir?
Anam inildəyir, dərddən ağlayır,
Sızlayır, yerindən qalxa bilməyir.
Bu dərdə, əzaba kim sinə gələr,
Hansı övlad bunu qəbul eyləyər?
Əzabı, ağrını görəndə mənim,
Qəlbimdən tikanlı, qanlı ox keçir.
Gözlərim ağlayır, başım ağrayır,
Görəsən, nə zaman bu dərd, bu əzab
Bizləri tərk edib gedəcək, Allah?!
Görəsən, mənim tək qəmli, kədərli
Bir övlad dünyada yaşayarmı heç?
Xülasə...
Bir gün qara bulud aldı başımı,
Elə bil əcəl də döydü qapını.
Sanki dünya mənə üz döndəribdi,
Anamı istəyir, açıbdır əlin.
Son nəfəs, son baxış, son sızıltıydı,
Elə bil bizləri tərk eləyirdi.
Gülüşlər gəlməyən bizim bu evdən
İndiysə ağlaşma səsi ucaldı.
Başına, dizinə, döyüb ağlayan,

Anacan! Anacan! deyib ağlayan
Bu körpəyə necə qıydın, Əzrayıl?
Artıq ümidsizik, biçarə qızlar,
İndi özümüzə, özümüz dayaq.
Baş-başa verərək yaşayırıq biz,
Nə edək, həyatdır, davam eyləyir?..

29.03.2004

* * *

Mənasız dünyada yaşayam gərək,
Sənsiz bu həyata öyrəşəm gərək.
Göz yaşım silməyə bir insan gərək,
Sənsizliyə dözüb, alışam gərək.

Lazım ki, nisgili qovaraq hər an,
Ürəkdən çıxarıb atasan bir an.
Bunların hamısı çətindir, çətin,
Səni unutmaq tək əzablı, mətin.

Sənə məxsus olan mənalı baxış,
İndi xatirədə yad gəlir mənə.
Göz yaşımı silən o yumşaq əllər,
Sanki toxunaraq yan keçir mənə.

## MƏLƏK

*Anama (sağlığında)*

Sən mənim dünyamın sevinci, şəni,
Ömrümün mənası, ruhun arzusu.
Həyatın günəşi, parlaq ulduzu,
Gözlərindən gülən, gözəlim ana!

Bu gözlər yaranıb həmişə gülsün,
Bu vücud mələk tək yaxşılıq etsin.
Səni bu dünyaya bəxş edib Allah!
Sevinib-güləsən, şən olsun həyat.

* * *

Sənsiz həyatımda gülə bilmədim,
Həyatın ləzzəti nədir bilmədim.
Sənsiz hər bir axşam, gündüz inlədim,
Sənsiz yaşamağım zülmdür, ana!...
Bu cür yaşamağım ölümdür, ana!...

Nə qədər ki, sən var idin həyatda,
Qüssə, kədər nədir bilməz idim mən,
Dünyanın çovğunu, qarlı qışı da,
Səninlə mənimçün bir bahar idi.

* * *

Alaraq əlimə qara qələmi,
Yazıram vərəqdə sənin ismini.
Səni sevdiyimi bilmək istəsən,
Nələr çəkdiyimi duymaq istəsən.

Bircə söz kifayət edərdi, məncə,
Səni özləmişəm bilsən ki, necə.
Bunları yazmağa əlim gəlməyir,
Tərk edib getmisən üzüm gülməyir.

01.04.2004

* * *

*Anama*

Əvvəl anmadığın, indi anlayır,
Hər şey gecdir artıq onu da bilir.
Fəqət son zamanlar tez-tez söyləyir,
Heyif bu canımdan, çox tez ağrıyır!

Heç bir sözə baxıb, dinləmədi o,
Canı hədər getdi, hiss etmədi o.
Artıq anlayanda zamanı keçmiş,
Olan olmuş, keçən keçmiş, ömür də bitmiş.

* * *

Sənsiz həyatımın mənası yoxdu,
Varmışam, yoxmuşam heç fərqi yoxdu,
Mənasız həyatın ləzzəti yoxdu,
Kim demiş yaşayan ölülər yoxdu?

Sən yoxsan mən isə bir ruha bənzər,
Sənsiz irəliləyib həyat yolların,
Yoxmuşam, heçmişəm bir ölü kimi
Yaşayıb gedirəm ömür yolların.

Nə qədər mənasız görünür həyat,
Sən yoxsan zindana bənzəyir həyat.
Sən yoxkən hər zaman ağladım, durdum
Sənsiz ürəyimə yaralar vurdum.

Yuxuda çağırdım, hay verənim yox,
Ağladım, göz yaşım, dindirənim yox.
Həyatda istəyim bir tək sən idin,
Sən yoxsan, heç kimə bir gərəyim yox.

* * *

*Anama*

Sənsizlik dərdimə bir çarə gərək,
Susuz torpaqlara su səpmək gərək.
Həyat çiçəklərim solmasın deyə
Ömrümə sənin tək bir ana gərək.

Sən var idin, çox sevirdim həyatı,
Bu torpağı, insanı, kainatı…
Varsan deyə sanırdım ki, bu dünya,
Dövr eyləyir zamanınca fırlanır…

* * *

Həyatdır, hər şeyə alışmalıyam,
Nə olsa, qismətlə barışmalıyam,
Sənsiz bu həyatda yaşamalıyam,
Belə bir həyatda hey yanmalıyam.

Sənsiz bu gözlərim dünyanı görmür,
Sən yoxsan həyatda mənə görünmür.
Hər bahar çovğunlu qış kimi gəlir,
Sənsiz baharımda çiçək də olmur.

15.06.2008

## YOXLUĞUNDA

Yoxluğunda hər an səni anmışam,
Sənsizlikdə belə sənlə olmuşam.
Həyat mənə nə çox sevinc yaşatdı,
Sənsiz hər sevincdə kədər duymuşam.

Sənsiz yaşadığım günlərimdə də,
Kimsədən məhəbbət axtarmamışam.
Qəlbimdə yaranan böyük sevgini,
Bir tək sənin üçün mən yaşatmışam.

01.08.2008

## ANAM

Yoxluğun ağırdı, çox əzablıdır,
Gedişin qəfildir, gözlənilməzdir.
Sənsiz bu həyata dözmək çətindir,
Yaşaya bilmirəm, gücüm bitibdir.
Həyat hər acıya dözüm öyrədir,
Sənsiz yaşamağa alışdırmayır.
Acıya dözməyə səbr gərəkdir,
Sənsiz həyatıma səbrim çatmayır.
Həyatda atasız yaşaya bildim,
Enişli yollardan atasız keçdim.
Onsuz yaşamımda qara geyindim,
Həyatı sevincə həsrət keçirdim,
Sənsə qaranlıqdan ayırdın məni.
Üzümü gülməyə məcbur eylədin,
Səninlə həyatı yenidən sevdim.
Gözdən axan yaşı dindirə bildin.
Əzaba dözərək gəldiyim yolda,
Məni sənsiz qoyub, getməzdin gərək.
Səninlə sevdiyim həyat yolunda,
Məni yetim qoyub getməzdin gərək.
Həyatda bir məna görmürəm sənsiz,
Ömrüm davam edir, nəfəs alıram.
Yaşamaq gərəksə yaşaram, sənsiz,
Onsuz da burda yox, səninlə varam.
Cismimdir, dolaşır insan içində,
Ruhumsa səninlə yaşayır, anam.
Sən məni həyatda tək buraxmısan,
Mənimsə varlığım sənlədir, anam.

12.11.2008

## SƏN OLDUN

Qaranlıq dünyamın işığı oldun,
Yaralı qəlbimə bir məlhəm oldun.
Bəs necə unudum, necə sevməyim?
Həyatda ən böyük sevincim oldun.
Sevgisiz həyata, sevgi gətirib,
Zülmətli gecəmin gündüzü oldun.
Ölümlü dünyanın, ölümsüzlüyün,
Mənə yaşatdıran axı sən oldun.
Bəxtəvərlik nədir, səninlə daddım,
Gəldiyim bu yolda sevdiyim oldun.
Söylə, axı necə sevməyim səni?
Sən mənim həyatda dayağım oldun.

10.10.2008

## ÖMÜRLÜK SEVGİM

Qayıdıb gəlsən də, heç gəlməsən də,
Səni ömrüm boyu sevəcəyəm mən.
Sənsiz keçirdiyim hər günümü də,
Varlığını duyub yaşayacam mən.
Məndən uzaqlarda olsan da, belə,
Hər zaman qəlbimlə duyacam səni,
Sənə məhəbbətim elə böyük ki,
Sadəcə varlığın yaşadır məni.
İstər yanımda ol, istər uzaqda,
Yalnız sevinc olsun qismətin sənin.
Həm də ki, hər zaman xoşbəxt olmağın,
Həyatda varlığım deməkdir mənim.

15.10.2008

## SEVƏCƏYƏM

Sevgimin qədrini anlamasan da,
Ülvi hisslərimdən kənar qaçsan da,
Məni xoş sözünə həsrət qoysan da,
Səni ömrüm boyu sevəcəyəm mən.
Bilsəm ki, mənsiz də sevilirsən sən,
Sadəcə sevinib xoşbəxt olaram.
Sevginin hədəfi mən olmasam da,
Səni ömrüm boyu sevəcəyəm mən.

19.10.2008

## SON

Buludlar dolubdur, yağış yağacaq,
Bu bizim sevginin göz yaşlarıdır.
Ağaclar saralıb, xəzan olacaq,
Bizim sevgimizin son savaşıdır.
Otağımda yanan şam da əriyir,
Qəlbimin sonuncu yanmağıdır bu.
Evimin işığı, nuru çəkilir,
Qəlbimdə yaranan qaranlıqdır bu.

21.10.2008

## XOŞBƏXTLİKDƏN UZAQ

Məndən ayrı sevgilərin qoynunda,
Xoşbəxt olub, yaşamaq istəyirsən?
Sən vəfasız, unutduğun sevdanı,
Unudaraq yaşayımmı deyirsən?
Yaşananlar unudulmuş olsa da
Xoşbəxt yaşam sənin üçün uzaqdı.
Hər isti münasibət arasında,
Buz baxışlar daim var olacaqdı.
Göz yaşlarım hər an səni izləyər,
Başqa sevgi istəsən də, alınmaz.
Hər bir yerdə kədər səni gözləyər,
Xoşbəxt olmaq istəsən də, alınmaz.

22.10.2008

## NƏ BİLƏYDİN?!

Mənim kimi sevən qəlb arayırsan?
Heç axtarma, bu cürəsi olmayır.
Səni sevən böyük bir qəlb varsa da,
O qəlb də ki, artıq sənsiz yaşayır.
Sən o qəlbin sevgisini görmədin,
Dəyərini, qiymətini bilmədin.
Sən o qəlbi gözü yaşlı qoyanda,
Həyatına böyük kədər gətirdin,
Nə biləydin yaşatdığın kədərlə,
Yaşamını sual altda qoyarsan?
Sevdiyini incidərək özün də
Həyat boyu kədərlə dost olarsan?..

22.10.2008

# MÜSƏLMAN

Sevilən insanlar arasında sən,
Tanrının sevdiyi bəndə olasan.
Həyatda atdığın hər addımınla
Tanrı sevgisinə yaxın olasan.
Etdiyin əməllə, düz əqidənlə,
Səndən kiçiklərə nümunə olub,
Səndən böyüklərə ibrət olaraq,
Müsəlman adına layiq qalasan.
Qıldığın namazla, tutduğun oruc,
Tanrı dərgahında köməyin olsun.
Müqəddəs Məkkəni ziyarət etmək,
Sənin də qismətin, taleyin olsun.

23.10.2008

## YENƏ SEVƏRƏM

Sevgindən nə qədər əzab çəksən də,
Sənsizlikdə hər an zülmət görsəm də,
Məni sevdiyimə peşman etsən də,
Yenə hamıdan çox səni sevərəm.
Səni varlığınla sevdiyim həyat,
Mənə dar olsa da, geri dönmərəm,
Səni gözləməklə keçsə də həyat,
Yenə hamıdan çox səni sevərəm.
Yaşadığım ömür qaranlıq olsa,
Səndən başqasını sevə bilmərəm,
Sənsiz həyatım da mənasız olsa,
Yenə hamıdan çox səni sevirəm.

23.10.2008

## FƏRQLİ İNSAN

Sən məni göylərə qaldıran sevdam,
Mənə gözəlliklər bəxş edən insan.
Sən mənə böyük bir dünya yaradan,
İnsanlar içində ən əziz insan.
Yer üzündə bərabəri olmayan,
Ən böyük ürəyin sahibisən sən.
Bütün saflıqları qəlbdə daşıyan,
Ən təmiz hisslərin hədəfisən sən.
Nə yaxşı ki, sən də varsan həyatda,
Səni sevib, sevilməyi bacardım.
Nə yaxşı ki, bəxş edibdir Yaradan,
Qəlbinin nurundan mən də qazandım.

24.10.2008



* * *

*Bacıma*

Həyatda yaşanan şirin günlər tək,
Acı çəkdiyimiz günlər də olur.
Bu gözəl həyatın yollarında da,
Hər vaxtın, zamanın öz hökmü olur.
Həyatda zamana hökm veriləndə,
Sənin zamanına sevinc pay olsun.
Həyatda həmişə uğurlu günlər,
Ömür yollarında xoşbəxtlik olsun.

30.10.2008

## SƏNSİZ

Sənsiz keçirdiyim hər günümdə mən,
Həyatla savaşan bir düşmən oldum.
Sevgisiz həyatın hər məqamında,
Yanaqdan süzülən göz yaşı oldum.
Sənsiz yaşatdığım bu sevgimizdə,
Həyat məni artıq yaşatmır, inan.
Qəlbimin yenidən vurması üçün,
Yanımda olmağın mütləqdir, inan.

30.10.2008

## MÖHTACAM

Burdan uzaqlara getsə də fikrin,
Qəlbimdə hər zaman sənin yerin var.
Bilməm ki, mənimsən, yoxsa özgənin
Mənim olmağına ehtiyacım var.
Sənsiz otağımın qaranlığında,
Xəyalın gözümün önündə yenə.
Möhtacam sevginə, möhtacam sənə,
Hardasan sevgilim, səs ver səsimə.

04.11.2008

## SƏNİ GÖZLƏYİRƏM

Bilmirəm nədəndir, doğmasan mənə,
Bu qədər yaxınsan mənim qəlbimə,
Bir səni sevirəm, səni anıram,
Yoxluğunda belə sənlə oluram.
Qəlbimdə yoxluğun köz bağlasa da,
Kimsələr yarama məlhəm olmayıb.
Getdiyin o gündən axan yaşı da,
İnan gözlərimdən silən olmayıb.
Səni əvəz edən qəlb mövcud deyil,
Məni başa düşən sevgi də yoxdu.
Tək sənin eşqinə, məhəbbətinə,
Başqa bir sevgiyə marağım yoxdu.
Yalnız səni sevib, səni gözlərəm,
Hər yerdə, hər zaman səni istərəm.
Ömrüm gözləməklə keçsə də mənim,
Ölüncə yenə də səni sevərəm.

03.11.2008

## GETDİN...

Məni anlamadın, dinləmədin də,
Qəlbimin səsini duymadan getdin.
Sən məni sevmədin, amma sevildin,
Bu eşqin qədrini bilmədən, getdin.
Bu necə inaddır, nə boyda bir kin,
Böyük məhəbbəti görə bilmədin.
Arxana baxmadan çırpıb qapını,
Səni sevən qəlbi tapdayıb getdin.

07.11.2008

## SEVGİM

Böyük ümidlərlə çıxdığım yolda,
Sən mənim qəlbimdə ən böyük dilək.
Xatirən olmazsa, ömrüm də solar,
Qışın soyuğunda donan çiçək tək.
Səni sevmək özü əzab olsa da,
Xatirən böyük bir sevinc gətirir.
Uğrunda tökülən hər damla yaş da
Ömrümə yeni bir yaşam gətirir.

08.11.2008

## QORXURAM SEVGİLİM

Deyirsən yağışı çox bəyənirsən,
Yağmurlu havanı hədsiz sevirsən?
Bir payız günündə yağış yağarkən,
Bəs nədir əlində çətir gəzirsən?
Sevirsən yayın da hərarətini,
Mehriban günəşin təravətini?
İsti olan kimi, günəş çıxanda,
Nədəndir ararsan sərin kölgəni?
Böyük məhəbbətlə sevdiyin külək,
Əsdikcə pəncərən qapalı qalır…
Qorxuram sevgilim, yaman qorxuram,
Mənə də dediyin şahanə sevgin,
Yalnızca dilində, sözündə qalır…

08.11.2008

## SƏN VƏ MƏN

Mən sənin ömründə oxunmuş kitab,
Bitmiş bir nağılın son səhifəsi.
Həyatçün önəmi olmayan əşya,
Səninçün növbəti həyat töhfəsi.
Sən mənim ömrümün güllü baharı,
Qaranlıq dünyamın işığı oldun,
İndi gör insafsız bir gedişinlə,
Mənim həyatımdan nələr qopardın…

07.11.2008

## ALLAHI SEVƏK

Hər kəsin qəlbində böyük bir istək,
Əlçatmaz arzusu, diləyi olur.
Mavi dənizlərin çılğın dalğası,
Qızıl payızınsa xəzəli olur.
Baharın çiçəkli-güllü nəfəsi,
Qışınsa bəyaz bir libası olur.
Qara axşamların ucsuz-bucaqsız,
Geniş səmasında ulduzu olur.
Allahım hər kəsin qəlbinə görə
Ömrünə gözəllik, səadət verir.
Bizim də hər şeydən zövq almamızçün
Ətrafa xüsusi yaraşıq verir.
Biz də gözəlliyi duyduğumuz vaxt,
Tanrıya şükür edib dualar edək.
Bizlərə hər şeyin ən yaxşısını,
Bəxş edən Allahı ürəkdən sevək.

13.11.2008

## GET...

Sən mənim qəlbimdə açılan çiçək,
Mən sənin ömrünün solğun payızı.
Sən mənim ən gözəl məhəbbətimdin,
Mən sənin qəlbinin acı sevdası.
Söylə, bu sevdada nələr yaşadın,
Həsrətdən, acıdan, qəmdən savayı.
Sevgimdən ömrünə nələr qazandın,
Gözündən damlayan yaşdan savayı.
Sevgilim, hələ də niyə burdasan?
Xoşbəxtlik hamının öz əlindədir.
Get, sən də xoşbəxtlik payını yaşa,
Bu mənim qəlbimdə ülvi diləkdir.

14.11.2008

## ƏLVİDA

Tələffüzü necə asan olsa da,
Sevgiyə əlvida söyləməyək biz.
Əlvida sözünü kinə, nifrətə,
Həyat pisliyinə desin dilimiz.
İnan ki, həyatda heç nə pis deyil,
Allah yaradanı çirkaba atan,
Əməl, niyyətimiz, davranmağımız,
Bir də nəfsimizlə bizik korlayan.
Gəlin pis işlərə əlvida deyək,
Paxıllıq, kobudluq sinədən qopsun.
Ürəkdə yalnızca möhkəm dostluğa,
Təmiz məhəbbətə böyük yer olsun.

19.11.2008



## QORXURAM

Məni tənha qoyub getmə, əzizim,
Sənsiz yaşamağı ölüm sayıram.
Sağ ikən qəbrimi qazma, əzizim,
Səni itirməkdən yaman qorxuram.
Həyatda çox şeyi mən itirmişəm,
Hər böyük itkidə acı görmüşəm.
Acılar içində səni sevmişəm,
Səni itirməkdən yaman qorxuram.

25.11.2008

## SON SÖZ

*Yeni sabaha açmışam gözlərimi… Çox gözəl bir gün, çox vacib işlər gözləyir məni. Həyatın heç bir çətinliyinə baxmayaraq, uğurlu gün olacaq. Hər günüm kimi… Ümumiyyətlə, bəzən anlamasaq da, hamımız çox şanslıyıq. Hiss etməsək də, əslində, hər günümüz uğura açılır. Mən də həyatımın hər gününə şükür edirəm və əminəm ki, sabahkı günüm bu gündən daha uğurlu olacaq.*

26.11.2008

**BAŞLIQLAR**

Həyat və sevgi nəğmələri *(Əli Rza Xələfli)* ..................5

Etüdlər ..........................................................................9

Şeirlər .......................................................................229

Son söz .......................................................................270

"Şərq-Qərb" Nəşriyyat evində çapa hazırlanmışdır

Buraxılışa məsul: ***Rasim Müzəffərli***

Texniki redaktor: ***Rövşən Ağayev***

Kompyuter səhifələnməsi: ***Yeganə Əsgərova***

Üz qabığının dizaynı: ***Elşən Qurbanov***

Çapa imzalanmışdır 25.07.2011.
Formatı 60×90 $^1/_{16}$. Fiziki çap vərəqi 17.
Sifariş N180. Tiraj 100.

"Şərq-Qərb" Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur
AZ 1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 370 68 03; 374 83 43
Faks: (+99412) 370 68 03; 370 18 49
www.eastwest.az